Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir.

HÜQUQ VƏ İNKİŞAF
İCTİMAİ BİRLİYİ

SEÇKİ HÜQUQLARINA DAİR DİQQƏTƏLAYİQ İŞLƏR VƏ MƏHKƏMƏ QƏRARLARI

BAKI - 2018

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

"Hüquq və İnkişaf" İctimai Birliyi

SEÇKİ HÜQUQLARINA DAİR DİQQƏTƏLAYİQ İŞLƏR VƏ MƏHKƏMƏ QƏRARLARI

Kitabça Avropa İttifaqının maıiyyələşdirdiyi və "Hüquq və İnkişaf" İctimai Birliyinin həyata keçirdiyi "Azərbaycanda seçki hüquqlarına və məlumatlılığına dəstək" layihəsi çərçivəsində hazırlanıb və çap olunub. Kitabçanın məzmununa görə "Hüquq və İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

© "Hüquq və İnkişaf" İctimai Birliyi

Bakı - 2018

MÜNDƏRİCAT

Ön söz …….....3

Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarları 6

Azərbaycan Respublikası Konstitusiya
Məhkəməsinin qərarı.....29

Azərbaycan Respublikası Mərkəzi Seçki
Komissiyasının qərarı.....38

Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları.....82

Ön söz

Son vaxtlar seçki hüquqlarının müdafiəsi ilə bağlı seçki komissiyalarına və məhkəmələrə şikayətlərin verilməsində yüksək fəallıq müşahidə olunmur. Bu bir tərəfdən şikayətlərin verilməsinə dair seçki bacarıqların yetərli olmamasından irəli gəlirsə, digər tərəfdən şikayətlərin obyektiv və ədalətli araşdırılacağına inamın az olması ilə bağlıdır.

Araşdırmalar göstərir ki, pozulmuş hüquqların bərpası üçün davamlı səylər və mümkün hüquqi vasitələrdən sonadək istifadə əksər hallarda hüquqların bərpası ilə nəticələnir.

Lakin ötən seçkilərin təcrübə göstərir ki, seçki iştirakçılarının heç də hamısı öz hüquqlarının müdafiəsi ilə bağlı davamlı təşəbbüslər göstərmir və mümkün hüquqi müdafiə vasitələrindən axıradək istifadə etmirlər. Bütün bunlar isə, seçki hüquqlarının həyata keçirilməsi və müdafiəsi sahəsində müsbət presedentlərin yaranması üçün imkanlar yaratmır.

"Seçki hüquqlarına dair diqqətəlayiq işlər və məhkəmə qərarları" adlı bu kitabçanın hazırlanmasında da məqsəd məhz hüquqların həyata keçirilməsi və müdafiəsi sahəsində seçki iştirakçılarının səylərini və fəallıqlarını artırmaqdır.

Bu məqsədlə Kitabçada Azərbaycanən seçki təcrübəsində müəyyən qədər müsbət xarakterizə edilə biləcək bir sıra qərarlar verilib. Bunlar Azərbaycan Respublikası Ali Məhkəməsi İnzibati-İqtisadi Kollegiyasının (Ali Məhkəmə) 2 qərarı, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun (Konstitusiya Məhkəməsi) 1 qərarı, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (Mərkəzi Seçki Komissiyası) 1 qərarı və Avropa İnsan Hüquqları Məhkəməsinin (Avropa Məhkəməsi) 3 qərarıdır.

Ali Məhkəmənin birinci qərarında İddiaçı "Hüquq və İnkişaf" İctimai Birliyinin Cavadeh Mərkəzi Seçki Komissiyasına qarşı "Normativ xarakterli aktın qismən etibarsız sayılmasına dair" iddiası üzrə Bakı Apellyasiya Məhkəməsi İnzibati-İqtisadi Kollegiyasının 12 avqust 2013-cü il tarixli 2-1inz(103)-1299/2013 №-li qərardadı ləğv edilib və iş yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilib.

Ali Məhkəmənin digər qərarında İddiaçı Məmmədov İlqar Eldar oğlunun Cavadeh Mərkəzi Seçki Komissiyasına qarşı "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarının ləğvi və namizədliyin təsdiqi vəzifəsinin həvalə edilməsi tələbinə dair" Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2-1inz(103)-1383/2013 saylı inzibati iş üzrə 28 avqust 2013-cü il tarixli qərarı ləğv edilib və iş yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilib.

Kitabçada yer alan Konstitusiya Məhkəməsi Plenumunun qərarı 2005-ci il noyabrın 6-da keçirilmiş üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair qərardır. Bu qərar Kitabçada ona görə verilib ki, 6 noyabr 2005-ci il parlament seçkilərində seçki hüquq pozuntuları seçki komissiyalarına və məhkəmələrə xeyli müraciətlər verilib və bu müraciətlərin bir hissəsi üzrə müəyyən müsbət nəticələr olub.

Belə ki, həmin seçkilərlə bağlı ***Baş Prokurorluğa cinayət tərkibli ehtimal edilən 72 müraciət daxil olub və həmin müraciətlər üzrə 11 cinayət işi, o cümlədən seçki komissiyasının dörd üzvü barəsində cinayət işləri başlanılıb, o cümlədən iki məntəqə seçki komissiyasının sədri və bir***

məntəqə seçki komissiyasının üzvü seçki saxtakarlığına görə məhkum olunub. Həmçinin seçki komissiyalarına və məhkəmələrə verilən şikayətlər əsasında 6 seçki dairəsi üzrə seçkilərin nəticələri təsdiq edilməyib.

Kitabçada verilən Mərkəzi Seçki Komissiyasınn qərarı Azərbaycan Respublikasının Milli Məclisinə 1 noyabr 2015-ci ildə keçirilmiş seçkilərdə dairə seçki komissiyası (DSK) tərəfindən qeydə alınmamış deputalığa namizədin şikayəti ilə bağlıdır. Həmin şikayətlə DSK-nın deputatlığa namizədliyin qeydə alınmasından imtina qərarı ləğv edilib və Şikayətçinin namizədliyi qeydə alınıb.

Kitabçada yer alan Avropa Məhkəməsinin qərarları "Qasımlı və digərləri Azərbaycana qarşı" işi üzrə qərarı seçkilərdə depuatalığa namizədliyin qeydə alınmasından imtina ilə bağlı, "Qəhrəmanlı və digərləri Azərbaycana qarşı" işi üzrə qərarı seçkilərin nəticələri ilə bağlı, "Seydizadə Azərbaycana qarşı" işi üzrə qərarı isə, vəzifələrin uzlaşmaması səbəbindən namizədliyin qeydə alınmasından imtina ilə bağlıdır.

Hesab edirik ki, Kitabçadakı bütün bu işlər və qərarlar özlüyündə seçki hüquqlarının müdafiəsi sahəsində pozitiv nümunələrdir və bu sahədə yaxşı təcrübənin formalaşmasına əhəmiyyətli təsir göstərə bilər. Bu nümunələrlə həmçinin, seçki iştirakçılarına ***"hüquqların həyata keçirilməsi və müdafiəsi sahəsində davamlı və ardıcıl səylər müsbət nəticələr yaradır"*** mesajı ötürülür.

Ümid edirik ki, bu Kitabça seçki iştirakçılarını öz hüquqlarını həyata keçirilməyə və müdafiə etməyə həvəsləndirəcək.

Azərbaycan Respublikası adından

Q Ə R A R

Bakı şəhəri **29 avqust 2013-cü il**

Azərbaycan Respublikası
Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyası

Hakimlər Hüseynov İlqar Kamil oğlu (sədrlik edən və məruzəçi), Rəsulbəyova Nigar İmran qızı və Nəbizadə Rahib Sahib oğlundan ibarət tərkibdə,
Əliyev Vasib Məmməd oğlunun katibliyi
İddiaçının nümayəndəsi - "Hüquq və İnkişaf" İctimai Birliyinin sədri Həsənov Hafiz Bəşir oğlunun
İddiaçının vəkili Zülfüqarov Rüstəm Məhəmməd oğlunun
Cavabdehin nümayəndəsi və vəkili İbrahimov Ramiz Hilal oğlunun iştirakları ilə

İddiaçı "Hüquq və İnkişaf" İctimai Birliyinin cavabdeh Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına qarşı ***"Normativ xarakterli aktın qismən etibarsız sayılmasına dair"*** iddiası üzrə Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 12 avqust 2013-cü il tarixli 2-1inz(103)-1299/2013 №-li qərardadından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə açıq məhkəmə iclasında baxaraq

Müəyyən etdi:

İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 05 iyun 2013-cü il tarixli 5/32 saylı qərarı ilə

təsdiq edilmiş “Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları”nın 1.3-cü, 2.1-ci, 2.3-cü bəndlərinin və 2.2.2-ci yarımbəndinin etibarsız (qüvvədən düşmüş) hesab edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

İddia onunla əsaslandırılmışdır ki, “Hüquq və İnkişaf” İctimai Birliyi ilk dəfə olaraq 09 oktyabr 2013-cü ildə keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində, 2014-cü ilin dekabrında keçiriləcək bələdiyyə seçkilərində və 2015-ci ilin noyabrında keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "exit-poll" keçirmək istəyir. Bunun üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında "exit-poll" keçirən təşkilat kimi akkreditasiyadan keçməlidir. Lakin *“Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları»nın (bundan sonra "Qaydalar" adlandırılacaq) bir sıra normaları Birliyin "exit-poll" keçirən təşkilat kimi akkreditasiyadan keçirilməməsinə qanunsuz əsas yarada bilər və bu normalar qanunvericiliyə zidd olduğu üçün etibarsız hesab edilməlidir.*

Belə ki, *"Qaydalar"ın 1.3-cü bəndində "exit-poll" keçirən təşkilat kimi exit-poll sahəsində ixtisaslaşmış, müvafiq təcrübəyə malik və nüfuzlu hüquqi şəxslərin çıxış edə bilməsi və həmin təşkilatların adından "exit-poll"un keçirilməsinə cəlb edilən şəxslərin, əsasən seçki hüququ və seçki sistemi üzrə mütəxəssis, yaxud da bu sahədə müəyyən təcrübəsi olan mütəxəssis olması nəzərdə tutulur. Bundan başqa "Qaydalar"ın 2.1-ci maddəsində deyilir ki, "exit-poll" keçirmək niyyətində olan təşkilatlar səsvermə gününə azı 20 gün qalmışadək akkreditasiyadan keçmək barədə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət təqdim etməlidir. "Qaydalar"ın 2.2.2-ci*

yarımbəndində isə göstərilir ki, təşkilatın "exit-poll" keçirərkən tətbiq olunmalı qaydalar, üsullar və resurslar (exit-poll keçirən şəxslərin sayı, "exit-poll" keçirilərkən istifadə üçün nəzərdə tutulmuş maddi- texniki vasitələr və s.) haqqında yazılı məlumat əlavə edilməlidir. Eyni zamanda "Qaydalar"ın 2.3-cü bndində göstərilir ki, bu müraciətə, Mərkəzi Seçki Komissiyası tərəfindən onun daxil olduğu gündən başlayaraq 10 gün müddətində baxılır. "Exit poll" keçirən təşkilatın exit-poll sahəsində ixtisaslaşmış, müvafiq təcrübəyə malik olması, "exit-poll" keçirərkən tətbiq olunmalı qaydalar, üsullar və resurslar (exit-poll keçirən şəxslərin sayı, "exit-poll" keçirilərkən istifadə üçün nəzərdə tutulmuş maddi-texniki vasitələr və s.), "exit-poll"un keçirilməsinə cəlb edilən şəxslərin, əsasən seçki hüququ və seçki sistemi üzrə mütəxəssis, yaxud da bu sahədə müəyyən təcrübəsi olan mütəxəssis olması tələbləri "exit-poll" un keçirilməsi üçün sərt tələblərdir və ilk dəfə "exit-poll" keçirmək istəyən hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının hüquqlarını məhdudlaşdırır. Çünki bu tələb exit-poll keçirmək hüququnu mahiyyət etibarı ilə icazəli (lisenziyalı) etməklə, Konstitusiyanın 25-ci maddəsi ilə təsbit olunan hamının qanun qarşısında bərabərlik hüququnu pozur.

Çünki "Qaydalar" "exit- pol" keçirmək üçün yalnız geniş təcrübəsi olan təşkilatlara icazə verir və ilk dəfə "exit-pol" keçirmək istəyən təşkilatlara bunu qadağan edir. Digər tərəfdən "Exit-poll" keçirmək mahiyyətcə sadə proses olduğundan, bu sahədə fəaliyyətlər geniş və ixtisaslaşmış təcrübə tələb etmədiyindən "exit poll"un keçirilməsi üçün "Qaydalar"da göstərilən sərt və lüzumsuz tələblərin qoyulması hüquqi məntiqə uyğun deyildir.

Bunlardan başqa *"Qaydalar"da "exit-poll" keçirən təşkilatların akkreditasiyadan keçirilməsi üçün sonuncu müddətin səsvermə gününə 20 gün qalmış müəyyən edilməsi və bu barədə müraciətlərə baxılması müddətinin 10 gün müəyyən edilməsi də qanunvericiliyə uyğun deyildir və "exit-poll" keçirmək istəyən təşkilatların hüquqlarını məhdudlaşdırır. Belə ki, müvafiq normativ hüquqi aktlarda "exit-poll" keçirən təşkilatların akkreditasiyadan keçirilmə ilə bağlı müraciətlərin edilməsi və bu müraciətlərə baxılması ilə bağlı müddətlər nəzərdə tutulmamışdır.* Digər tərəfdən Seçki Məcəlləsində müşahidəçilərin MSK-da qeydiyyatı üçün müraciətlərin son müddəti səsvermə gününə 10 gün qalmışadək və bu barədə müraciətlərə baxılması üçün isə müddətin 5 gün müəyyən edildiyi nəzərə alınsa, onda "exit poll" üçün müddətlərin yuxarıda göstərilən qaydada müəyyən edilməsi anlaşılan deyil.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 12 avqust 2013-cü il tarixli 2-1inz(103)-1299/2013 №-li qərardadı ilə iddia mümkün sayılmamışdır.

Apellyasiya instansiya məhkəməsi qərardadını onunla əsaslandırmışdır ki, mübahisə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 2.4-cü maddəsinə əsasən Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq ictimai birlik kimi iddiaçının Azərbaycan Respublikasında keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Milli Məclisə seçkilər və bələdiyyə seçkilərini müşahidə edə və "exit-poll" keçirə bilmək hüquqları ilə bağlı olduğundan və hazırda Azərbaycan Respublikası Prezidentinin seçkilərinə az müddət qaldığından, hazırkı mübahisəyə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin XVIII fəslinin müddəalarına

uyğun icraat qaydasında baxılmalıdır. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin "Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraatın xüsusiyyətləri" adlanan 130.1-ci maddəsinə əsasən seçki (refendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı iddia ərizələri apellyasiya instansiyası məhkəməsinə Azərbaycan Respublikası Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada verilir. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112-ci maddəsində isə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətlərdən) və qərarlardan şikayət edilməsi qaydası müəyyən olunmuşdur. Qanunvericinin Seçki Məcəlləsinin 112.1-ci maddəsində təsbit etdiyi qaydaya görə seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 35.1-ci maddəsinə əsasən bu Məcəllədə başqa qayda nəzərdə tutulmamışdırsa, iddiaçının iddia ərizəsində inzibati aktın qəbul edilməsi və ya qəbul edilməsindən imtina olunması, yaxud inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində onun hüquqlarının və qanunla qorunan maraqlarının pozulduğunu əsaslandırdığı hallarda mübahisələndirmə haqqında, məcburetmə haqqında, öhdəliklərin icrası haqqında və müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia mümkün

sayılır. İddiaçı tərəfindən mübahisələndirilən “Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları” Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının 05 iyun 2013-cü il tarixli, 5/32 saylı qərarı ilə təsdiq edilmiş və "Azərbaycan" qəzetinin 122-ci sayında dərc edilmişdir. Həmin vaxtdan da iddiaçının iddia hüququ yaranmışdır. Lakin iddiaçı iddia ərizəsi ilə məhkəməyə 06 avqust 2013-cü il tarixdə, yəni qanunla müəyyən edilmiş 3 günlük müddəti buraxmaqla müraciət etmişdir.

İddiaçı həmin qərardaddan kassasiya şikayəti verərək qərardadın ləğv edilməsini, iddianın mümkün hesab edilməsini və iddia ərizəsinin mahiyyəti üzrə baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilməsini xahiş etmişdir.

Kassasiya şikayətinin dəlilləri və tərəflərin izahatları:

Məhkəmə iddianın mümkünlüyünü qanunsuz olaraq Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin "Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" adlanan XVIII fəslində təsbit olunan müddəalar üzrə araşdırmış, həmin fəsildə təsbit olunmuş müddəalara müvafiq olaraq MSK-nın qərarından şikayət vermə müddətinin ötürülməsi səbəbindən iddia ərizəsini mümkün saymamışdır. Halbuki, bu iddia mahiyyəti və iddia predmeti baxımından İPM-nin “Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat” adlanan XV fəslində təsbit olunan normalar əsasında araşdırılmalı idi. Çünki İPM-nin XVIII fəslinin məzmunundan belə anlaşılır ki, bu fəsildəki normalar Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) konkret şəxslərin seçki hüquqlarını pozan qərarlarından

və əməllərindən şikayətlərə baxılmasını tənzimləyir və bu cür şikayətlər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq araşdırılır. Yəni, həmin fəsildə nəzərdə tutulan normalar MSK-nın seçki hüquqlarını pozan və ümumi xarakter daşımayan konkret şəxslərlə bağlı qərarlarından verilən şikayətlərin baxılmasını tənzimləyir. "Hüquq və İnkişaf" İctimai Birliyinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının 05 iyun 2013-cü il tarixli 5/32 saylı qərarı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları"nın 1.3-cü; 2.1-ci; 2.3.-ci bəndlərinin və 2.2.2-ci yarımbəndinin etibarsız (qüvvədən düşmüş) hesab edilməsi barədə iddiası isə, normativ xarakterli aktın qanunauyğunluğunun yoxlanması ilə bağlıdır ki, bu da həmin iddianın İPM-nin "Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat" adlanan XV fəslinin müddəaları əsasında araşdırılmasını tələb edir. İndiki halda isə MSK-nın qərarı ilə "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları" ("Qaydalar") təsdiq edilib və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununa müvafiq olaraq bu "Qaydalar"normativ xarakterli akt hesab edilir. Yəni, MSK-nın bu qərarı seçki hüququnun pozulması ilə bağlı konkret fərdlə bağlı olmayıb, ümumi xarakter daşıyan və icrası ümumməcburi olan normalar müəyyən edən hüquqi aktın təsdiqlənməsi ilə bağlıdır. İndiki halda MSK-nın bu qərarı bütövlükdə, qəbul edilməsi MSK-nın səlahiyyətinə aid edilmiş normativ xarakterli aktın sadəcə təsdiqindən ibarətdir. Yəni, normativ-hüquqi akt kimi qanunun qəbul edilməsinə dair Azərbaycan Respublikası Milli Məclisinin qərarı hansı xarakter daşıyırsa, normativ xarakterli aktın təsdiq edilməsinə dair MSK-nın

qərarı da eyni xarakterə malikdir. Qanunvericiliklə normativ hüquqi akt kimi qanunun Konstitusiyaya uyğunluğunun yoxlanmasını dair icraatın Konstitusiya Məhkəməsində aparılmasını nəzərdə tutduğu kimi, normativ xarakterli aktın qanunauyğunluğunun yoxlanılması da İPM-nin XV fəslinin müddəaları əsasında apellyasiya məhkəmələrində aparılmasını nəzərdə tutmuşdur.

Qərardaddan həm də belə nəticəyə gəlmək olur ki, növbəti seçkilərdə (məsələn 2014-cü il bələdiyyə və 2015-ci il Parlament seçkilərində) exit-pol keçirmək istəyən hər hansı qeyri-hökumət təşkilatı hesab etsə ki, "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları"nın qanunauyğunluğu yoxlanmalıdır, o halda da bu normativ xarakterli aktın yoxlanmasına dair iddia qaldırmaq mümkünsüz olacaq. Çünki, bu "Qaydalar"ın təsdiq edilməsinə dair MSK-nın qərarı 05 iyun 2013-cü ildə qəbul edilib və bu Qərardan da Seçki Məcəlləsinə və İPM-nin XVIII fəslinin tələblərinə görə həmin Qərarın qəbul edildiyi vaxtdan 3 gün müddətinə şikayət vermək olardı və təbii ki, növbəti seçkilərdə bu müddət ötürülmüş olur. Bu hal özü də bir daha Məhkəmənin bu Qərardadının nə qədər məntiqsiz və qanunsuz olduğunu göstərir.

Beləliklə, iddiaçı hesab edir ki, Məhkəmə iddianın mümkünlüyünü İPM-nin "Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə icraat" adlanan XV fəslində təsbit olunan müddəalar üzrə araşdırmaq əvəzinə, qanunsuz olaraq həmin Məcəllənin "Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" adlanan XVIII fəslində təsbit olunan müddəalar üzrə araşdırmış, bununla da bu iş üzrə tətbiq edilməli qanunu

deyil, tətbiq edilməli olmayan qanunu tətbiq etməklə qanunsuz və əsassız qərar qəbul etmişdir.

İddiaçının nümayəndəsi kassasiya şikayətinin məzmunu ilə eyni məzmunlu izahat verərək şikayətin təmin olunmasını xahiş etdi.

İddiaçının vəkili nümayəndənin izahatında göstərilənləri təsdiq edərək şikayətin təmin olunmasını xahiş etdi.

Cavabdehin nümayəndəsi və vəkili kassasiya şikayətinə etiraz edərək şikayətin təmin olunmadan, apellyasiya instansiyası məhkəməsinin qərardadının dəyişdirilmədən saxlanmasını xahiş etdi.

Hüquqi məsələlər:

Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin (bundan sonra - İPM) 1.1-ci maddəsinə əsasən bu Məcəllə inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir.

Həmin Məcəllənin 2.2-ci maddəsinə əsasən inzibati məhkəmə icraatı qaydasında, həmin normada təsbit edilmiş digər mübahisələrlə yanaşı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla, normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddialara (qanunauyğunluq haqqında iddia) da baxılır (2.2.6).

Normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddialara İPM-in XV fəslinin qaydalarına uyğun olaraq baxılır.

İPM-in 2.2-ci maddəsində nəzərdə tutulmuş iddia növlərinin dairəsi həmin normada göstərilənlərlə məhdudlaşmır. Belə ki, İPM-də siyasi partiyalar və kütləvi informasiya vasitələri ilə bağlı mübahisələrə dair işlərə (İPM-in, müvafiq olaraq XVI, XVII fəsilləri), seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlərə (İPM-in XVIII fəsli) baxılmasının xüsusi icraat qaydaları müəyyən edilmişdir.

İddia ərizəsinin məzmunundan və ərizəyə əlavə olunmuş sənədlərdən göründüyü kimi ictimai birlik olan iddiaçı ilk dəfə olaraq 09 oktyabr 2013-cü ildə keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində, 2014-cü ilin dekabrında keçiriləcək bələdiyyə seçkilərində və 2015-ci ilin noyabrında keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "exit-poll" keçirmək istədiyini bəyan edir. Bunun üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında "exit-poll" keçirən təşkilat kimi akkreditasiyadan keçməlidir. Lakin o, hesab edir ki, "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiya qaydaları"nın (bundan sonra "Qaydalar" adlandırılacaq) bir sıra normaları Birliyin "exit-poll" keçirən təşkilat kimi akkreditasiyadan keçirilməməsinə qanunsuz əsas yarada bilər və bu normalar qanunvericiliyə zidd olduğu üçün etibarsız hesab edilməlidir.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunun 1.0.3-cü maddəsinə əsasən normativ xarakterli akt – bu Konstitusiya Qanununda nəzərdə tutulan dövlət və ya yerli özünüidarə orqanı tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir.

Həmin Qanunun 4.1, 4.1.2-ci maddələrinə əsasən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları Azərbaycan Respublikasının normativ xarakterli aktlarıdır.

İPM-in XV fəslinin müddəalarına görə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinə uyğun olaraq yoxlanılması Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid edilmiş normativ xarakterli aktlar istisna olmaqla, dövlət və bələdiyyə orqanları tərəfindən qəbul edilmiş normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına və onların etibarsız (qüvvədən düşmüş) hesab edilməsinə dair iddia qaldırıla bilər (122.1). İddia ərizəsi bu Məcəllə ilə müəyyən edilmiş aidiyyət qaydalarına uyğun olaraq müvafiq apellyasiya instansiyası məhkəməsinə verilir (122.3). Normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair iddialar üzrə inzibati məhkəmə icraatı bu Məcəllədə nəzərdə tutulmuş müvafiq prosessual qaydalar əsasında həyata keçirilir (122.7).

İddiaçı kassasiya şikayətində haqlı olaraq qeyd edir ki, cavabdehin qərarı seçki hüququnun pozulması ilə bağlı konkret fərdlə bağlı olmayıb, ümumi xarakter daşıyan, məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş hüquqi aktın təsdiqlənməsi ilə bağlıdır. İddiaçı cavabdeh tərəfindən qəbul və təsdiq edilən normativ xarakterli aktın bəzi müddəalarının qanunauyğunluğunu mübahisələndirmiş, onun seçki hüquqlarının pozulması ilə bağlı cavabdehin qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada iddia verməmişdir.

Məhkəmə kollegiyası qeyd edir ki, iddia tələbi özündə iddiaçının seçki hüquqlarının həyata keçirilməsi ilə bağlı halları ehtiva etsə də, iddiaçı cavabdehin fərdi xarakterli (inzibati) aktını deyil, özündə məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulan normativ xarakterli aktını mübahisələndirdiyindən həmin iddiaya İPM-in XVIII fəslinin deyil, İPM-in XV fəslinin müddəalarına uyğun olaraq baxılmalıdır.

Hazırkı mübahisəyə İPM-in XVIII fəslinin müddəalarına uyğun icraat qaydasında baxılmalı olduğuna dair apellyasiya instansiya məhkəməsi düzgün nəticəyə gəlməmiş, prosessual qanunun tətbiqində səhvə yol vermişdir.

Apellyasiya instansiya məhkəməsinin qərardadının ləğv edilməsi hissəsində kassasiya şikayəti əsaslıdır.

Kassasiya şikayətinin iddianın mümkün hesab edilməsi və iddia ərizəsinin mahiyyəti üzrə baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsinə dair hissəsini məhkəmə kollegiyası əsaslı hesab etmir. Belə ki, hazırkı iddiaya İPM-in XV fəslinin müddəalarına uyğun olaraq baxılmalı olduğundan, lakin həmin növ iddianın mümkünlük şərtləri apellyasiya instansiya məhkəməsinin yoxlama predmeti olmadığından, İPM-də bununla bağlı təsbit edilmiş prosessual hərəkətlər həmin məhkəmə tərəfindən aparılmalı və yalnız bundan sonra, bunun üçün əsaslar olduqda, iddiaya mahiyyəti üzrə baxılmalıdır.

Beləliklə, hazırkı iş apellyasiya instansiyası məhkəməsinə sonrakı prosessual hərəkətlərin aparılması üçün göndərilməlidir.

Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 96, 98-ci maddələrini rəhbər tutub məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı "Hüquq və İnkişaf" İctimai Birliyinin kassasiya şikayəti qismən təmin olunsun.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 12 avqust 2013-cü il tarixli 2-1inz(103)-1299/2013 №-li qərardadı ləğv edilsin.

İş sonrakı prosessual hərəkətlərin aparılması üçün həmin məhkəməyə göndərilsin.

Kassasiya şikayəti qalan hissədə təmin olunmasın.

Qərar qətidir.

Azərbaycan Respublikası adından

Q Ə R A R

Azərbaycan Respublikası Ali Məhkəməsinin

İnzibati-İqtisadi Kollegiyası

05 sentyabr 2013-cü il **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının hakimi Məmmədov Xəqani Səyyad oğlunun sədrliyi və məruzəsi ilə, hakimlər Bədəlov Kəmaləddin Nurəddin oğlundan və Nəbizadə Rahib Sahib oğlundan ibarət tərkibdə, məhkəmə iclas katibi Cahanov Məhəmməd Atakişi oğlunun katibliyi, iddiaçının nümayəndəsi Bağırov Xalid Zakir oğlunun, cavabdehin nümayəndəsi və vəkili İbrahimov Ramiz Hilal oğlunun iştirakı ilə,

İddiaçı Məmmədov İlqar Eldar oğlunun Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına qarşı qərarın ləğvi və namizədliyin təsdiqi vəzifəsinin həvalə edilməsi tələbinə dair Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2-1inz(103)-1383/2013 saylı inzibati iş üzrə 28 avqust 2013-cü il tarixli qərarından iddiaçı tərəfindən verilmiş kassasiya şikayətinə əsasən işə açıq məhkəmə iclasında baxaraq

Müəyyən etdi:

İddiaçı Məmmədov İlqar Eldar oğlu cavabdeh Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək Azərbaycan Respublikası

Mərkəzi Seçki Komissiyasının 24 avqust 2013-cü il tarixli 18/111 saylı qərarının ləğv edilməsi və 09 oktyabr 2013-cü il tarixdə Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülən Məmmədov İlqar Eldar oğlunun namizədliyinin təsdiq edilməsi vəzifəsinin Mərkəzi Seçki Komissiyasının üzərinə qoyulması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

İddia onunla əsaslandırılmışdır ki, Mərkəzi Seçki Komissiyası avqust ayının 2-də, növbəti prezident seçkilərinin bu ilin 09 oktyabrında keçiriləcəyini elan etmiş və həmin qərar dərhal dərc olunaraq qüvvəyə minmişdir. Məmmədov İlqar Eldar oğlu həbsdə olmaqla istintaq təcridxanasında saxlanıldığı üçün namizədliyini irəli sürməsi barədə sənədləri şəxsən MSK-ya təqdim etmək imkanına malik deyildi. Ona görə də, onun vəkili tərəfindən istintaq orqanına 01 avqust tarixdə müraciət olunaraq səlahiyyətli nümayəndəsinə vəkalətnamə verməsi üçün notariusun təcridxanaya getməsinə şərait yaradılması xahiş olunsa da, uzun müddət müraciətə cavab verilməmişdir. Belə olan halda, iddiaçı 07 avqustda qanunvericiliyə əsasən vəkalətnaməni təsdiq etmək hüququ olan şəxs kimi Bakı İstintaq Təcridxanasının rəisi A.Seyidova müraciət etmişdir. A.Seyidov isə bunu edə bilməyəcəyini, həmçinin rəsmi cavabı 15 gün ərzində verəcəyini bildirmişdir. Bundan sonra iddiaçı namizədliyin irəli sürülməsi ilə bağlı sənədləri 10 avqustda Bakı İstintaq Təcridxanası vasitəsilə MSK-ya göndərsə də, həmin məktub da ünvanına çatmamışdır. Sonuncu imkan olaraq İ.Məmmədovun vəkili onun imzaladığı sənədləri avqust ayının 19-da məhkəməyə göndərmiş və məktubun həmin gün çatması barədə bildiriş almışdır. Bundan sonra istintaq orqanı tərəfindən verilmiş razılıq əsasında notarius təcridxanaya

gedərək 23 avqust tarixdə X.Bağırova iddiaçının verdiyi vəkalətnamənin təsdiq etmiş, elə həmin gün də səlahiyyətli nümayəndə saat 17:50-də sənədləri tam şəkildə MSK-ya təqdim etmişdir. Həmin tarixdə həmçinin məlum olmuşdur ki, MSK 19 avqustda göndərilmiş sənədləri çatışmazlıq olduğuna görə geri qaytarmışdır. Lakin 24 avqust 2013-cü il tarixdə MSK namizədliyin irəli sürülməsinin təsdiq edilməsinin mümkünlüyünün yoxlanılması məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən aparılmış araşdırma başa çatmadığından və hazırda buna dair təsdiqedici qərarın qəbul edilməsi qeyri-mümkün olduğundan, lakin bu hal digər namizədlərdən fərqli olaraq məhdud imkanlara malik olan istintaq təcridxanasında saxlanılan şəxsin maraqları ilə bağlı olduğundan Azərbaycan Respublikası Konstitusiyasının və seçki qanunvericiliyinin ruhuna uyğun olaraq Mərkəzi Seçki Komissiyası iddiaçının maraqlarının xeyrinə araşdırma başa çatanadək müddətin uzadılması barədə 18/111 saylı qərar qəbul etmişdir. Həmin qərar qanunsuz və əsassız olduğuna görə ləğv edilməlidir.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 28 avqust 2013-cü il tarixli qərarı ilə iddia təmin edilməmişdir.

İddiaçı kassasiya şikayəti verərək apellyasiya instansiyası məhkəməsinin qərarını ləğv edib iddianın təmin edilməsi barədə yeni qərar çıxarılmasını xahiş etmişdir.

Kassasiya şikayətinin dəlilləri:

Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, Seçki Məcəlləsinin 53.6-cı maddəsinə əsasən müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır

və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərar təqdim edir. Qanunda əlavə araşdırma aparmaqdan ötrü bu müddətin uzadılması nəzərdə tutulmayıb. Əgər MSK 19 avqust 2013-cü il tarixdə daxil olmuş sənədlərin doğurdan da İlqar Məmmədov tərəfindən tərtib edilməsini müəyyən edə bilmirdisə, 23 avqustda təqdim edilmiş sənədlər artıq İ.Məmmədovun notariat qaydasında vəkalətnamə əsasında səlahiyyət verdiyi şəxs tərəfindən təqdim edildiyindən həmin sənədlərin kimə aid olması heç bir şübhə doğurmurdu. Yəni, beş gün müddətində qüsur aradan qaldırılmışdı. MSK istinad olunan qərarda qüsurların qismən aradan qaldırıldığını qeyd etsə də, hansı qüsurların aradan qaldırılmadığı müəyyən edilmir. Yalnız MSK iclasında gedən müzakirələrin mətnlərindən bəlli olur ki, daxil olmuş sənədlərin İ.Məmmədov tərəfindən daxil olmasını müəyyən etmək mümkün olmayıb və guya təqdim olunmuş sənədlərdə şəxsiyyət vəsiqəsinin surəti olmamışdır. Göstərilənlər həqiqəti əks etdirmir, çünki təqdim olunmuş sənədlərdə şəxsiyyət vəsiqəsinin surəti olmuşdur. Digər tərəfdən isə qanunvericilikdə şəxsiyyət vəsiqəsinin təqdim edilməsi də nəzərdə tutulmamışdır.

Prosessual məsələlər:

İddiaçının nümayəndəsi Bağırov Xalid Zakir oğlu kassasiya şikayətinin məzmununa uyğun izahat verərək şikayəti təmin edib, apellyasiya instansiyası məhkəməsinin qərarını ləğv etməklə iddianın təmin edilməsinə dair yeni qərar çıxarılmasını xahiş etdi.

Cavabdehin nümayəndəsi və vəkili İbrahimov Ramiz Hilal oğlu kassasiya şikayətini qəbul etməyərək şikayətin təmin

edilmədən, apellyasiya instansiyası məhkəməsinin qərarının isə dəyişdirilmədən saxlanılmasını xahiş etdi.

Hüquqi məsələlər

Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 91-ci maddəsinə əsasən Ali Məhkəmə mübahisə ilə bağlı işə şikayət həddində baxır və yalnız apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən olunmuş işin hallarından görünür ki, Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilmiş 24 avqust 2013-cü il tarixli, 18/111 saylı qərarla 2013-cü ilin 09 oktyabr tarixinə təyin edilmiş Azərbaycan Respublikasının Prezidentinin seçkilərində namizədliyin irəli sürülməsinin təsdiq edilməsi ilə əlaqədar Məmmədov İlqar Eldar oğlunun MSK-ya daxil olmuş 19 avqust 2013-cü il tarixli 1305 saylı müraciətinə baxılma müddəti uzadılmışdır. MSK özünün qərarını belə əsaslandırmışdır ki, İ.Məmmədovun namizədliyinin irəli sürülməsi barədə müraciəti 19 avqust 2013-cü il tarixdə MSK-ya daxil olmuşdur. Qanunvericiliyin tələblərinə əməl edilmədən İ.Məmmədov tərəfindən göndərilməsi ehtimal edilən sənədlər düzgün rəsmiləşdirilmədiyindən və həmin sənədlərdə müəyyən səhv və pozuntular olduğundan namizədliyin irəli sürülməsinin namizədliyi irəli sürülmüş şəxsin iradəsinə uyğunluğunun yoxlanılması, habelə yol verilmiş qüsurların aradan qaldırılması məqsədilə müraciət daxil olan gün, yəni 19 avqust 2013-cü il tarixdə təxirə salınmadan dərhal sürətli poçt xidməti vasitəsilə İ.Məmmədovun saxlanıldığı istintaq təcridxanasına

göndərilmişdir. Göndərilmiş sənədlərdə yol verilmiş qüsurlar qismən aradan qaldırıldıqdan sonra iddiaçı tərəfindən notariat qaydada təyin edilmiş səlahiyyətli nümayəndə tərəfindən 23 avqust 2013-cü il saat 17:50-də MSK-ya təqdim olunmuşdur. Namizədliyin irəli sürülməsinin təsdiq edilməsinin mümkünlüyünün yoxlanılması məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən aparılmış araşdırma başa çatmadığından və hazırda buna dair təsdiqedici qərarın qəbul edilməsi qeyri-mümkün olduğundan, lakin bu hal digər namizədlərdən fərqli olaraq məhdud imkanlara malik olan istintaq təcridxanasında saxlanılan şəxsin maraqları ilə bağlı olduğundan Azərbaycan Respublikası Konstitusiyasının və seçki qanunvericiliyinin ruhuna uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən iddiaçının maraqlarının xeyrinə araşdırma başa çatanadək müddətin uzadılması məqsədə müvafiq hesab edilmişdir. Daha sonra isə MSK tərəfindən qəbul edilmiş 20/116 saylı, 27 avqust 2013-cü il tarixli qərarla İlqar Eldar oğlu Məmmədovun namizədliyi təsdiq edilmişdir.

Aşağıda göstərilənlərə əsasən kollegiya hesab edir ki, *apellyasiya instansiyası məhkəməsi iddia tələbini Mərkəzi Seçki Komissiyasının 24 avqust 2013-cü il tarixli 18/111 saylı qərarının ləğv edilməsi ilə bağlı hissədə haqlı olaraq rədd etsə də, iddiaçının namizədliyinin təsdiq edilməsi vəzifəsinin Mərkəzi Seçki Komissiyasının üzərinə qoyulması hissəsində iddianı rədd edərkən düzgün nəticəyə gəlməmişdir, həmin hissədə iş üzrə icraata xitam verilməlidir.*

Seçki Məcəlləsinin 53.6-cı maddəsinə əsasən müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyini müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərar

təqdim edir. Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz.

Həmin Məcəllənin 53.7-ci maddəsinə əsasən namizədin irəli sürülməsini təsdiq edən qərarın surətini verməkdən imtina edilməsi üçün əsas yalnız bu Məcəllənin 53.2 və 53.3-cü maddələrində göstərilən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədlərin irəli sürülməsinin bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydasının pozulması ola bilər. Səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası bu Məcəllənin 53.6-cı maddəsində göstərilən müddətdə namizədi bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir.

Kollegiya apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşır ki, Məmmədov İlqar Eldar oğlunun MSK-ya daxil olmuş 19 avqust 2013-cü il tarixli, 1305 saylı müraciətinə baxılma müddətinin uzadılması barədə 24 avqust 2013-cü il tarixli, 18/111 saylı qərar onun hüquqlarının pozulması nəticəsini doğurmamış, əksinə istintaq təcridxanasında saxlanıldığı nəzərə alındığında onun hüquqlarının təmin edilməsinə yönəlmiş hərəkət olmuşdur. İşin hallarından təsdiq olunduğu kimi iddiaçının MSK-ya müraciəti yalnız 19 avqust 2013-cü ildə daxil olmuşdur. İddiaçı daha əvvəl də müraciət etdiyini bildirsə də, buna dair hər hansı sübut təqdim olunmamışdır. Odur ki, müraciət tarixi kimi 19 avqust 2013-cü il qəbul edilməlidir. İş materiallarından göründüyü kimi MSK həmin müraciəti istintaq təcridxanasında saxlanılan şəxslərin yazışmalarının aparılmasına dair qanunvericiliyin tələblərinə əməl edilmədən göndərildiyinə və buna görə də,

İ.Məmmədovun iradəsini əks etdirməsinə şübhə yarandığına görə, həmçinin yol verilmiş qüsurların aradan qaldırılmasına şərait yaratmaq məqsədilə 19 avqust 2013-cü il tarixdə təxirə salınmadan iddiaçının saxlanıldığı istintaq təcridxanasına göndərmişdir. Yol verilmiş qüsurlar aradan qaldırıldıqdan sonra isə sənədlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada 23 avqust 2013-cü ildə saat 17:50-də, yəni müraciətə baxılması müddətinin bitməsinə bir gün qalmış MSK-ya təqdim edilmişdir. Beləliklə, 19 avqust 2013-cü il tarixdə qanunvericiliyə əməl edilmədən verilmiş müraciət elə həmin gün iddiaçıya göndərildiyindən həmin tarixdən yol verilmiş qüsurlar aradan qaldırılaraq sənədlər yenidən tam şəkildə 23 avqust 2013-cü il tarixdə günün sonunda MSK-ya təqdim edilənədək müraciət üzrə MSK-da araşdırma aparmaq faktiki mümkün olmamışdır. MSK-da məhz bu halı, eləcə də müraciətlərə beş gün ərzində baxılmalı olduğunu da nəzərə alaraq müraciətə baxılma müddətinin uzadılması barədə qərar qəbul etmişdir. Nəzərə almaq lazımdır ki, MSK-nın bu qərarı faktiki şəraitə uyğun olaraq araşdırma aparmaq zərurətindən yaranmış və iddiaçının passiv seçki hüququnun təmin edilməsinə yönəlmiş addım olmuşdur, nəticə etibarilə də onun namizədliyi təsdiq edilmişdir. MSK-nın bu qərarı həmçinin azad seçkilərin keçirilməsini təmin etməyə dair dövlətin beynəlxalq-hüquqi sənədlərlə öz üzərinə götürdüyü pozitiv öhdəliyinə də uyğundur. Həmin öhdəliklər tələb edir ki, dövlət orqanları fərdi hüquqların təmin edilməsi üçün ağlabatan və münasib tədbirlər görsünlər. Konkret hallardan asılı olaraq həm hüquqi, həm də faktiki maneələr hüquqların qorunması naminə pozitiv öhdəliyin tələb etdiyi davranışa uyğun qərar qəbul etməyi zəruri edə bilər. Beləliklə, Konstitusiyanın və qanunvericiliyin seçki hüququ sahəsindəki müddəalarının əsas

məqsədi məhdudlaşdırıcı hallar istisna olmaqla hər kəsin bərabər şərtlərlə azad seçkilərdə iştirakını təmin etməyə yönəldiyindən seçkini təşkil edən və keçirən orqanlardan gözlənilən də istər hüquqi, istərsə də faktiki vəziyyətə dair mübahisəli halların mövcudluğunda məhz həmin məqsədin ruhuna uyğun davranış nümayiş etdirməkdir. Bu mənada, kollegiya hesab edir ki, qanunvericilikdə müddətin uzadılmasının nəzərdə tutulmamasına baxmayaraq qəbul edilmiş qərar haqlı və əsaslı olmuşdur. Həmçinin nəzərə almaq lazımdır ki, qanunvericilikdə müddətin uzadılmasını qadağan edən norma da yoxdur.

Aşağıda göstərilənlərə əsasən isə kollegiya hesab edir ki, iddia tələbinin 09 oktyabr 2013-cü il tarixdə Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülən Məmmədov İlqar Eldar oğlunun namizədliyinin təsdiq edilməsi vəzifəsinin Mərkəzi Seçki Komissiyasının üzərinə qoyulması barədə qərar qəbul edilməsi hissəsində iş üzrə icraata xitam verilməlidir.

İnzibati Prosessual Məcəllənin 67.3-cü maddəsinə əsasən bu Məcəllənin 67.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş müddət ərzində cavabdeh tərəfindən iddiaçının tələbinin təmin olunduğu və işin mahiyyəti üzrə mübahisənin artıq mövcud olmadığı hallarda məhkəmə icraata xitam verilməsi barədə qərardad qəbul edir.

İşin hallarından göründüyü kimi iddiaçının tələbinin bir hissəsi onun namizədliyinin təsdiq edilməsi vəzifəsinin cavabdehin üzərinə qoyulmasından ibarət olmuşdur. İddiaçı məhkəməyə ərizə ilə 26 avqust 2013-cü il tarixdə müraciət etmiş, MSK tərəfindən qəbul edilmiş 20/116 saylı, 27 avqust 2013-cü il

tarixli qərarla isə onun namizədliyi təsdiq edilmişdir. Beləliklə, apellyasiya instansiyası məhkəməsi işə baxarkən iddiaçının namizədliyinin təsdiq edilməsi ilə bağlı müvafiq qərar qəbul edildiyindən iddia tələbinin həmin hissəsi üzrə mübahisə artıq mövcud olmamışdır. Bununla əlaqədar olaraq məhkəmə tələbin həmin hissəsi üzrə icraata xitam verilməli olduğu halda, prosessual normanı düzgün tətbiq etməyərək iddia tələbinin həmin hissəsini də rədd etmişdir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 96-cı maddəsini rəhbər tutaraq məhkəmə kollegiyası

Qərara aldı:

İddiaçı Məmmədov İlqar Eldar oğlunun kassasiya şikayəti qismən təmin edilsin.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2-1inz(103)-1383/2013 saylı iş üzrə 28 avqust 2013-cü il tarixli qərarı qismən - 09 oktyabr 2013-cü il tarixdə Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülən Məmmədov İlqar Eldar oğlunun namizədliyinin təsdiq edilməsi vəzifəsinin Mərkəzi Seçki Komissiyasının üzərinə qoyulmasına dair iddianın rədd edilməsi hissəsində ləğv edilsin. İddia tələbinin həmin hissəsində icraata xitam verilsin.

Qərar qalan hissədə dəyişdirilmədən saxlanılsın.

Azərbaycan Respublikası adından

2005-ci il noyabrın 6-da keçirilmiş üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu F.Abdullayev (sədrlik edən), F.Babayev, B.Qəribov (məruzəçi-hakim), R.Qvaladze (məruzəçi-hakim), E.Məmmədov, İ.Nəcəfov, S.Salmanova və Ə.Sultanovdan (məruzəçi-hakim) ibarət tərkibdə, məhkəmə katibləri İ.İsmayılov və V.Zeynalovun,

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri M.Pənahov, sədr müavini S.Qasımova, katibi N.Məmmədov, üzvləri F.Cavadov, Q.Orucov, R.İbrahimov, A.Tağıyev, İ.Məmmədov, Ə.Əliyev, X.Əhmədov, V.Kazımova, M.Bayramov, Y.Bağırzadə və A.Əlizadənin,

ekspertlər, Bakı Dövlət Universitetinin hüquq fakültəsi konstitusiya hüququ kafedrasının dosent əvəzi, hüquq elmləri namizədi M.İsmayılov və müəllimi Ş.Yusubovun,

mütəxəssislər, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları İ.Həmidova, G.Əhmədova və E.Qasımovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatı qaydasında Azərbaycan Respublikası

Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçirilmiş seçkilərin nəticələrinə dair konstitusiya işinə baxdı.

Hakimlər Ə.Sultanov, B.Qəribov və R.Qvaladzenin məruzələrini, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri M.Pənahovun, komissiyanın sədr müavini S.Qasımovanın, katibi N.Məmmədovun, üzvləri M.Bayramov və Ə.Əliyevin çıxışlarını, ekspertlər M.İsmayılov və Ş.Yusubovun rəyini, mütəxəssis E.Qasımovun arayışını dinləyib müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin II hissəsinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 145.1-ci maddəsinə və «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təyin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 4 iyul 2005-ci il tarixli 876 saylı Sərəncamına əsasən, 2005-ci il noyabrın 6-da Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 171.2-ci maddəsinin tələblərinə görə, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermə günündən ən geci 20 gün keçənədək dairə seçki komissiyalarının protokollarını (bu Məcəlləyə uyğun olaraq onlara əlavə edilən sənədlərlə birlikdə) yoxlayır, 48 saat müddətində Konstitusiya Məhkəməsinə təqdim edir.

Azərbaycan Respublikası Konstitusiyasının 86-cı, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 171.1-ci və “Konstitusiya

Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 54.1-ci maddələrinə uyğun olaraq, seçkilərin yekunlarını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir.

Qanunvericiliyin yuxarıda göstərilən tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası 2005-ci il noyabrın 6-da üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi məsələsinə baxılması üçün səsvermənin ümumi yekunları haqqında Mərkəzi Seçki Komissiyasının protokolunu, habelə dairə seçki komissiyalarının protokollarını (onlara əlavə edilən sənədlərlə birlikdə) 23 noyabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokoluna, həmçinin Mərkəzi Seçki Komissiyasının iki üzvünün xüsusi rəyləri əlavə olunmuşdur. Məhkəmə iclasında Mərkəzi Seçki Komissiyasının üzvü çıxış edərkən, xüsusi rəyini məhkəməyə təqdim etmişdir.

Məsələ ilə bağlı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi qeyd edir ki, 2005-ci ildə üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilmiş seçkilər müəyyən xüsusiyyətlərə malik olmuşdur.

Əvvəlki seçkilərdən fərqli olaraq, Azərbaycan Respublikası Milli Məclisinin deputatları yalnız majoritar seçki sistemi üzrə seçilmişlər. Parlamentə seçkilər bütün seçki prosesini tənzimləyən vahid hüquqi sənəd - 27 may 2003-cü ildə qəbul olunmuş Azərbaycan Respublikasının Seçki Məcəlləsi əsasında keçirilmişdir. Seçkilər istisnasız ölkənin bütün seçki

dairələrində, o cümlədən ilk dəfə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində yaradılmış 112-ci Xankəndi seçki dairəsində keçirilmişdir. Deputatlığa namizədliyi irəli sürülən şəxsin müdafiəsi üçün zəruri seçici imzalarının kvotası 2000 imzadan 450 imzaya qədər endirilmişdir. Deputatlığa namizədlərin qeydiyyata alınma prosesinin asanlaşdırılması nəticəsində seçkiqabağı prosesin iştirakçılarının sayı kəskin surətdə artmışdır. Hər bir seçiciyə seçki vəsiqəsi təqdim olunmuş, yerli qeyri-hökumət təşkilatlarına seçkini müşahidə etmək üçün icazə verilmiş, barmaqların rəngsiz mürəkkəblə işarələnməsi və "exit-poll" həyata keçirilmişdir.

Parlament seçkilərinə hazırlıq dövründə və həmin seçkilərin keçirilməsi zamanı bu sahədə baş verə bilən əyintilərin və qanun pozuntularının qarşısını almaq, Milli Məclisə seçkiləri Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarına tam uyğun keçirmək, icra hakimiyyəti orqanlarının üzərlərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 11 may 2005-ci il tarixli, 806 saylı və "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr 2005-ci il tarixli, 1062 saylı sərəncamları qəbul etmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə təqdim olunmuş seçkilərin ümumi yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2005-ci il 23 noyabr tarixli protokolu ilə aşağıdakılar müəyyən edilmişdir:

1) seçici siyahılarına daxil edilmiş seçicilərin ümumi sayı - 4.675.572;

2) səsvermədə iştirak edən seçicilərin sayı - 1.974.036;

3) dairə seçki komissiyalarının sayı - 125;

4) Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş dairə seçki komissiyaları protokollarının sayı - 121;

5) səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki dairələrinin sayı - 4;

6) səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı - 460.

Beləliklə, səsvermənin ümumi yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolundan göründüyü kimi, səsvermənin nəticələri etibarlı hesab edilmiş 121 seçki dairəsi üzrə deputat seçilmiş namizədlər müəyyən olunmuşlar.

Bununla belə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 noyabr 2005-ci il tarixli 44/202 saylı qərarı ilə 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 16 seçki məntəqələri; 8 noyabr 2005-ci il tarixli, 44/203 saylı qərarı ilə 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə 13 seçki məntəqələri; 12 noyabr 2005-ci il tarixli, 47/211 saylı qərarı ilə 110 saylı Zaqatala seçki dairəsinin 19 seçki məntəqələri və 15 noyabr 2005-ci il tarixli, 48/212 saylı qərarı ilə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin 11 seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilmişdir.

Göstərilən seçki dairələri üzrə səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu və həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı

seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4 hissəsindən çoxunu təşkil etdiyindən, seçki dairələri üzrə seçkilərin nəticələri etibarsız hesab edilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 noyabr 2005-ci il tarixli 45/201 və 9 noyabr 2005-ci il tarixli, 45/204 saylı qərarları ilə müvafiq olaraq 31 saylı Suraxanı ikinci seçki dairəsinin 10 seçki məntəqəsində, 8 saylı Binəqədi birinci seçki dairəsinin 12 seçki məntəqəsində seçkilərin nəticələri etibarsız hesab edilərək, həmin dairələr üzrə deputat seçilmiş namizədlər dəyişmişdir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının materialları Konstitusiya Məhkəməsinə daxil olduqdan sonra məhkəmə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 171.3-cü maddəsinin tələblərinə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim edilmiş sənədlərin yoxlanılması üçün müvafiq mütəxəssisləri cəlb etmiş, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 54.4-cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Apellyasiya Məhkəməsindən, Azərbaycan Respublikası Ali Məhkəməsindən, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən və Azərbaycan Respublikası Prokurorluğundan seçki hüquqlarının müdafiəsi və seçki qanunvericiliyinin pozulması ilə əlaqədar baxılmış şikayət və ərizələr haqqında məlumatları tələb etmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 25 noyabr 2005-ci il tarixli, 02/1-740 saylı məktubundan göründüyü kimi, Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçirilən seçkilərlə əlaqədar respublikanın rayon

(şəhər) məhkəmələri tərəfindən seçicilərin seçki siyahısına daxil olunması ilə bağlı 20117 müraciətə baxılmış, onlardan 20105 (99,9%) ərizə təmin edilmiş, cəmi 12 ərizə rədd olunmuşdur.

Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin 29 noyabr 2005-ci il tarixli 59-278/05 saylı məktubuna əsasən, Azərbaycan Respublikası Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçirilmiş seçkilərdən sonra seçki hüquqlarının pozulması ilə bağlı hərəkətlərdən (hərəkətsizliklərdən) və seçki komissiyalarının qərarlarından Apellyasiya Məhkəməsinə 71 iş daxil olmuşdur. Həmin işlərin hamısına baxılaraq, müvafiq qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının yekun qərarından Apellyasiya Məhkəməsinə 57 şikayət daxil olmuş və onlar əsassız olduğu üçün təmin edilməmişdir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi 30 noyabr 2005-ci il tarixli 2-83 saylı məktubu ilə bildirmişdir ki, kassasiya qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar 38 mülki iş daxil olmuş, həmin işlər üzrə Apellyasiya Məhkəməsinin qətnamələri dəyişdirilmədən saxlanılmışdır.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə ünvanladığı 30 noyabr 2005-ci il tarixli məktubunda Azərbaycan Respublikasının Prokurorluğu göstərmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərlə əlaqədar qanun pozuntularına yol verilməsi barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasından və müvafiq dairə seçki komissiyalarından Baş Prokurorluğa

cinayət tərkibli ehtimal edilən cəmi 72 müraciət daxil olmuşdur.

Həmin müraciətlərin araşdırılması nəticəsində ***11 cinayət işi, o cümlədən seçiciləri ələ almaq məqsədi ilə müəyyən hərəkətlərə yol verdiklərinə görə 26 saylı Sabunçu birinci, 41 saylı Sumqayıt birinci, 88 saylı Göyçay, 102 saylı Samux-Şəmkir, 108 saylı Ağstafa və 117 saylı Oğuz-Qəbələ dairələri üzrə qeydə alınmış bir sıra namizədlər, seçki komissiyasının işinə müdaxilə etdiyinə görə 99 saylı Şəmkir kənd seçki dairəsi üzrə qeydə alınmış bir namizəd, seçki sənədlərini saxtalaşdırdıqlarına görə 42 saylı Sumqayıt ikinci dairə seçki komissiyasının sədri və başqaları, 9 saylı Binəqədi ikinci dairə seçki komissiyasının sədri və başqaları, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 10 məntəqə seçki komissiyasının sədrləri və üzvləri, qulluq səlahiyyətlərindən sui-istifadə etdiklərinə görə 69 saylı Cəlilabad – Masallı - Biləsuvar dairə seçki komissiyasının 4 üzvü barəsində*** cinayət işləri başlanılmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş, həmçinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən tələb olunmuş əlavə sənədlərin, habelə cəlb olunmuş mütəxəssislərin arayışının təhlili göstərir ki, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş 121 dairə seçki komissiyalarının protokollarından 115 dairə seçki komissiyalarının protokolları Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun hesab edilməlidir.

Qalan 6 (altı) - 31 saylı Suraxanı ikinci, 44 saylı Sumqayıt - Abşeron, 69 saylı Cəlilabad – Masallı - Biləsuvar, 103 saylı

Gədəbəy, 106 saylı Tovuz – Qazax - Ağstafa və 119 saylı Ağdam kənd dairə seçki komissiyalarının protokolları yuxarıda göstərilən Məcəllənin tələblərinə cavab vermədiyindən, həmin dairələr üzrə seçkilərin nəticələri təsdiq oluna bilməz.

Göstərilənlərə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsini və 130-cu maddəsinin VIII, IX hissələrini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 54, 62, 63, 65, 67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

QƏRARA ALDI:

1. Üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçirilmiş .... *(125 seçki dairəsinin adı sadalanır)* seçki dairələri üzrə seçkilərin nəticələri təsdiq edilsin.

2. Azərbaycan Respublikası Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçirilmiş 31 saylı Suraxanı ikinci, 44 saylı Sumqayıt - Abşeron, 69 saylı Cəlilabad - Masallı - Biləsuvar, 103 saylı Gədəbəy, 106 saylı Tovuz – Qazax - Ağstafa, 119 saylı Ağdam kənd seçki dairələri üzrə seçkilərin nəticələri təsdiq edilməsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 sentyabr 2015-ci il tarixli 18 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

QƏRARI

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Babalı Hafiz Ərköyün oğlu 30 sentyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd H.Ə.Babalı müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, həmin dairənin ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqələrini və

ona əlavə edilmiş digər zəruri sənədləri dairə seçki komissiyasına təqdim etmiş, lakin dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş H.Ə.Babalının namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədliyin qeydə alınması üçün etibarlı seçici imzalarının sayı yetərli olmamış, eyni zamanda təqdim edilən sənədlərdə namizədin əmlakı ilə bağlı məlumatlar düzgün göstərilməmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış onun araşdırmada və iclasda iştirakı təmin edilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 1 oktyabr 2015-ci il tarixli protokol və rəylərdən görünür ki, H.Ə.Babalının namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Belə ki, namizəd tərəfindən toplanılmış seçici imzasından 469-u etibarlı hesab edilmişdir ki, bu da onun qeydə alınması üçün kifayət edir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Araşdırma zamanı namizəd H.Ə.Babalı tərəfindən dairə seçki komissiyasına ona məxsus olan əmlak barədə qeyri-düzgün məlumat verməsi isə öz təsdiqini tapmadı.

Qeyd olunanlara əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 42 saylı Sumqayıt ikinci seçki dairəsi dairə seçki komissiyasının H.Ə.Babalının namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 29 sentyabr 2015-ci il tarixli 19/40 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən namizəd kimi qeydə alınmalıdır.

Yuxarıdakılar əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147.1-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və7-ci hissələrinə əsasən qərara alır:

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Babalı Hafiz Ərköyün oğlunun 30 sentyabr 2015-ci il tarixli 18 saylı müraciəti əsaslı olduğundan təmin edilsin, dairə seçki komissiyasının 29 sentyabr 2015-ci il tarixli 19/40 saylı qərarı ləğv edilsin.

2. 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Babalı Hafiz Ərköyün oğlu həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınsın.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

“Qəhrəmanlı və digərləri Azərbaycana qarşı” iş üzrə (Şikayət № 36503/11)

QƏRAR

Strasburq şəhəri, 8 oktyabr 2015-ci il

“Qəhrəmanlı və digərləri Azərbaycana qarşı” iş üzrə İnsan hüquqları üzrə Avropa Məhkəməsi (Birinci Bölmə) aşağıdakı tərkibdə,

Andraş Şayo, Palatanın Sədri, Elizabet Şteyner,

Xanlar Hacıyev,

Paulu Pinti de Albukerke, Linos-Aleksandr Sisilianos, Erik Möse,

Dmitri Dedov, hakimlər,

habelə Məhkəmənin Bölmə Katibinin müavini Andre Vampaşın iştirakı ilə,

15 sentyabr 2015-ci ildə bağlı qapılar arxasında Palatada müzakirə edərək, həmin gün aşağıdakı Qərarı qəbul etdi:

PROSEDUR

1. “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın (bundan sonra – “Konvensiya”) 34-cü maddəsinə əsasən, insan hüquqları üzrə Avropa Məhkəməsinə (bundan sonra – “Avropa Məhkəməsi”) Azərbaycanın vətəndaşları olan Fuad Əli oğlu Qəhrəmanlının, Zəlimxan Adil oğlu Məmmədlinin və Namizəd Heydər oğlu Səfərovun Azərbaycana qarşı verdiyi 36503/11 №-li şikayətlə 1 iyun 2011-ci ildə iş baxılmasına başladıldı.

3. Ərizəçilər xüsusilə iddia etdilər ki, çoxsaylı saxtakarlıq halları ilə əlaqədar olaraq onların seçki dairəsində seçkilər azad və ədalətli olmamışdır və onların passiv seçki hüququ seçkilərdə pozuntulara dair şikayətlərinə müvafiq hakimiyyət orqanlarının effektiv baxmaqdan boyun qaçırması ilə pozulmuşdur.

FAKTLAR

I. İŞİN HALLARI

5. Ərizəçilər müvafiq olaraq 1975, 1957 və 1955-ci illərdə anadan olmuşdur və Bakı şəhərində yaşayırlar.

32. Ali məhkəmə, aşağı instansiya məhkəməsinin dəlili ilə razılaşaraq, ərizəçinin şikayətini 6 dekabr 2010-cu ildə rədd etmişdir. O həmçinin əlavə etmişdir ki, ərizəçilərin şikayəti və Bakı apellyasiya məhkəməsinin qərarı Konstitusiya məhkəməsi haqqında Qanunun 63.4-cü maddəsi nöqteyi-nəzərindən qiymətləndirilməlidir, hansı ki, müəyyən etmişdir ki, Konstitusiya məhkəməsinin qərarları qətidir və hər hansı orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi şəkildə

təfsir edilə bilməz. Bu baxımdan Ali Məhkəmə aşağıdakıları göstərmişdir:

“7 noyabr 2010-cu il [parlament seçkilərinin nəticələri 22 noyabr 2010-cu il seçkilərinin nəticələri haqqında protokolla [MSK] etibarlı hesab edilmişdir və 125 seçki dairəsindən bütün namizədlər parlament üzvləri tərəfindən müəyyən edilmişdir.

Seçkilərin nəticələri haqqında yuxarıda adı çəkilən protokol MSK-nın 22 noyabr 2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir və [həmin tarixdə] seçkilərin nəticələrinin yekun protokolu [DSK] yekun protokolları ilə və əlavə sənədlərlə birlikdə seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi üçün Konstitusiya məhkəməsinə təqdim edilmişdir.

7 noyabr 2010-cu il seçkilərinin [parlament] nəticələri haqqında Konstitusiya məhkəməsinin 29 noyabr 2010-cu il tarixli plenumunun qərarı ilə 22 noyabr 2010-cu il seçkilərinin nəticələri haqqında MSK-nın yekun protokolu Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 171.2-ci maddələrinin tələblərinə uyğun hesab edilmiş və 125 seçki dairəsi üzrə, o cümlədən 33 saylı Xətai birinci seçki dairəsi üzrə seçkilərin nəticələri təsdiq edilmişdir, həmin qərar çıxarıldığı ana yekun qərar olmuşdur.

Bu qərardan irəli gəlir ki, Konstitusiya məhkəməsi 33 saylı Xətai birinci seçki dairəsində səsvermə və ya seçkilərin nəticələrini müəyyən etmə zamanı baş verə biləcək, seçicilərin öz iradəsini bildirməsinə mane ola biləcək halları müəyyən etməmişdir.

Yuxarıda adı çəkilən qərarın [Konstitusiya Məhkəməsinin] qəti olmasını və hər hansı orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi şəkildə təfsir edilə bilməsinin

mümkünsüzlüyünü nəzərə alaraq, məhkəmə hesab edir ki, appelyasiya məhkəməsinin qərarı [ərizəçilərin şikayətlərinin rədd edilməsi haqqında] dəyişiklik edilmədən saxlanılmalıdır".

II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK

A. SEÇKİ MƏCƏLLƏSİ

1. Seçki komissiyaları: qərarları qəbul etmə sistemi, tərkibi və proseduru

33. Azərbaycan Respublikasında seçkilər və referendumlar seçki prosesi ilə bağlı olan (maddə 17) məsələləri geniş miqyasda gözdən keçirə biləcək seçki (referendum) komissiyaları tərəfindən təşkil edilir və keçirilir. Azərbaycan Respublikasında seçki komissiyaları sisteminə aşağıdakı komissiyalar: Azərbaycan Respublikası Mərkəzi seçki (referendum) komissiyası (MSK), dairə seçki (referendum) komissiyaları (DSK), məntəqə seçki (referendum) komissiyaları (MnSK) daxildir (maddə 18.1).

34. İstənilən səviyyədə hər bir seçki komissiyasının müvafiq seçki komissiyasının üzvlərinin açıq səsvermə yolu ilə seçdiyi sədri və iki katibi var. İstənilən səviyyəli hər bir seçki komissiyasının sədri Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı, katiblərin hər biri isə Milli Məclisdə deputatları azlıq təşkil edən siyasi partiyaları və müstəqil deputatları təmsil etməlidir (maddə 19.3).

35. Seçki komissiyasının iclası sədr tərəfindən və komissiyanın həlledici səs hüquqlu üzvlərinin azı 1/3 hissəsinin tələbi ilə çağırılır (maddə 19.5). Komissiyasının iclasları komissiyanın həlledici səs hüquqlu üzvlərinin azı 2/3 hissəsi iştirak etdikdə

səlahiyyətli hesab edilir (maddə 19.10). Bütün komissiyalrın qərarlarının qəbul edilməsi üçün iştirak edən üzvlərin azı 2/3 hissəsi tələb olunur (maddələr 28.2, 34.3 və 39.3).

36. MSK Milli Məclis tərəfindən seçilmiş 18 üzvdən ibarətdir. MSK-nın 6 üzvü birbaşa təyin edilmişdir və deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliyini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliyini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliyini təqdim edən siyasi partiyaları təmsil edir. Müstəqil deputatları MSK-da, bir qayda olaraq, namizədlikləri onlar tərəfindən irəli sürülmüş müstəqil, dövlət qulluğunda olmayan hüquqşünaslar təmsil edirlər. İki namizəd aidiyyatı tərəflər arasında: bir namizəd Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılır (maddə 24).

37. Hər DSK MSK tərəfindən seçilmiş doqquz üzvdən ibarətdir. DSK-nın üç üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı MSK-da təmsil edən komissiya üzvləri tərəfindən, üç üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları MSK-da təmsil edən komissiya üzvləri tərəfindən, üç üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını MSK-da təmsil edən komissiya üzvləri tərəfindən təqdim edilir. DSK üzvlüyünə namizədləri MSK-da siyasi partiyaları təmsil edən komissiyanın üzvlərinə müvafiq siyasi partiyaların yerli təşkilatları da təqdim edə bilərlər. Heç bir siyasi partiyaya mənsub olmayan deputatları MSK-da təmsil edən komissiya

üzvləri tərəfindən dairə seçki komissiyasına irəli sürülmüş namizədlərin ikisi maraqlı tərəflərlə: bir namizəd deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri ilə, digər namizəd deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları MSK-da təmsil edən komissiya üzvləri ilə razılaşdırılır (maddə 30).

38. Hər bir MnSK-nın tərkibi müvafiq DSK tərəfindən təyin edilən altı üzvdən ibarətdir. Məntəqə seçki komissiyasının iki üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı DSK-da təmsil edən komissiya üzvləri tərəfindən, iki üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları dairə seçki komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, iki üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını DSK-da təmsil edən üzvlər tərəfindən təqdim edilir. MnSK üzvlüyünə namizədləri DSK-da partiyaları təmsil edən DSK üzvlərinə müvafiq siyasi partiyaların yerli təşkilatları, heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını təmsil edən DSK üzvlərinə isə seçicilər və seçicilərin təşəbbüs qrupları təklif edə bilərlər. Bu namizədlər Azərbaycan Respublikasının müvafiq seçki dairəsinin ərazisində daimi yaşayan vətəndaşları olmalıdır (maddə 36).

2. Seçki mübahisələrinə baxılması

39. Namizədlər və digər maraqlı tərəflər vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu

haqda məlumat aldığı gündən sonrakı üç gün müddətində şikayət edə bilərlər (maddə 112.1).

40. Belə şikayətlər bilavasitə yuxarı seçki komissiyasına təqdim edilə bilər (maddə 112.2). Əgər şikayətə ilkin olaraq aşağı seçki komissiyası tərəfindən baxılarsa, yuxarı seçki komissiyası aşağı seçki komissiyasının qərarını ləğv etmək, məsələnin mahiyyəti üzrə qərar qəbul etmək və ya məsələyə yenidən baxılması haqqında göstəriş vermək hüququna malikdir (maddə 112.9). DSK-nın qərarından və ya hərəkətlərindən (hərəkətsizliyindən) MSK-ya, MSK-nın qərarından və ya hərəkətlərindən (hərəkətsizliyindən) isə apellyasiya instansiyası məhkəməsinə şikayət edilə bilər (maddə 112.3).

41. Əgər şikayətdə göstərilən qanun pozuntuları cinayət hesab olunarsa, müvafiq seçki komissiyası müvafiq orqana müraciət edə bilər. MSK bununla bağlı əsaslandırılmış qərar qəbul etməlidir. Müvafiq prokurorluq orqanı bu məlumata üç gün ərzində baxır (maddə 112.4).

42. Qeydə alınmış namizədin qeydiyyatının ləğv edilməsi barədə işlərə baxılarkən seçki komissiyası vətəndaşların və vəzifəli şəxslərin məlumatını dinləmək, zəruri sənədləri və materialları tələb etmək və almaq hüququna malikdir (maddə 112.8).

43. Müvafiq seçki komissiyası seçkilərin gedişində seçki komissiyasına daxil olan hər bir şikayət üzrə qərarı üç gün müddətində, səsvermə günündə və ya növbəti gündə daxil olan şikayət üzrə isə (səsvermə günündən gec olmayaraq), səsvermə günü və yaxud növbəti gün dərhal qəbul edir (maddə 112.10).

44. Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə MSK-nın nəzdində doqquz nəfərdən ibarət müvafiq ekspert qrupları yaradılır (maddə 112-1.1).

45. Əgər ərizəçi iclasda iştirak etmək barədə öz arzusunu bildirmişsə, iclasdan bir gün əvvəl ərizəçi şəxsən, telefon və ya poçt vasitəsilə iclasın yeri və vaxtı barədə xəbərdar edilir (maddə 112-1.7).

46. Məhkəmələr seçki komissiyalarının qərarlarından şikayətlərə üç gün ərzində (Seçki məcəlləsi ilə daha qısa müddət nəzərdə tutulmadığı halda) baxmalıdır. Məhkəmənin qərarından şikayət üç gün ərzində yuxarı instansiya məhkəməsinə verilə bilər (maddə 112.11).

47. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq seçki prosesinə qanunsuz müdaxilə edən və ya seçicilərin və namizədlərin seçki hüquqlarını digər formada pozan şəxslər cinayət, mülki və ya inzibati məsuliyyətə cəlb edilə bilərlər (maddə 115).

3. Səslərin hesablanması, protokolların tərtib edilməsi və seçkilərin nəticələrinin təsdiq edilməsi

48. Səsvermə məntəqəsində səsvermə gününün sonunda səslər hesablandıqdan sonra MnSK səsvermə məntəqəsində səsvermə nəticələrini təsbit edən seçkilərin yekun protokollarını üç orijinal nüsxədə tərtib edir (106.1-106.6-cı maddələr). MnSK yekun protokolunun bir nüsxəsini digər sənədlərlə birlikdə 24 saat ərzində müvafiq DSK-ya göndərir (maddə 106.7). DSK MnSK- nın yekun protokollarının hər birinin və əlavə edilmiş sənədlərin qanunauyğunluğunu və

nəticələrdə uyğunsuzluğunun olub-olmamasını yoxlayır (maddə 107.1). MnSK-nın bütün yekun protokolları təhvil verildikdən sonra DSK səsvermə günündən iki gün keçənədək müxtəlif məntəqə seçki komissiyalarının nəticələrini ümumiləşdirir və dairə üzrə səsvermənin ümumiləşdirilmiş nəticələrini əks etdirən üç orijinal nüsxələrdə yekun protokolunu tərtib edir (107.2-107.7-ci maddələr). DSK yekun protokolunun bir nüsxəsini digər sənədlərlə birlikdə səsvermə günündən sonrakı iki gün ərzində MSK-ya təqdim edər (maddə 107.4). MSK Dairə seçki komissiyalarının hər bir protokolunun qanunauyğunluğunu və nəticələrində uyğunsuzluğun mövcudluğunu (maddə 108.1) yoxlayır və bütün dairələrdə seçkilərin nəticələrini əks etdirən yekun protokolunu tərtib edir (maddə 108.2).

49. Konstitusiya məhkəməsi seçkilərin nəticələrini yoxlayır və təsdiq edir (maddə 171.1). MSK bu məqsədlə səsvermə günündən sonrakı 20 gündən gec olmayaraq dairə seçki komissiyalarının protokollarını qoşma sənədlərlə birlikdə yoxlayır və onları 48 saat ərzində Konstitusiya məhkəməsinə təqdim edir (maddə 171.2).

50. Konstitusiya Məhkəməsi göstərilən sənədləri aldıqdan sonrakı 10 gün müddətində müvafiq mütəxəssisləri cəlb etməklə həmin sənədlərin bu Məcəlləyə uyğunluğunu yoxlayır. Bu 10 günlük müddət zərurət olduğu halda uzadıla bilər (maddə 171.3).

B. KONSTİTUSİYA MƏHKƏMƏSİ HAQQINDA QANUN

51. Konstitusiya məhkəməsi haqqında Qanunun 63.4-cü maddəsində nəzərdə tutulur: “Konstitusiya Məhkəməsinin

Plenumu tərəfindən qəbul edilmiş qərarlar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz".

III. MÜVAFİQ BEYNƏLXALQ SƏNƏDLƏR

A. SEÇKİ HÜQUQU SAHƏSİNDƏ VİCDANLI TƏCRÜBƏ KODEKSİ

52. Hüquq Vasitəsilə Demokratiya Uğrunda Avropa Komissiyasının (Venesiya komissiyası) 51-ci və 52-ci plenar iclaslarda (5-6 iyul və 18-19 oktyabr 2002-ci il) qəbul etdiyi seçki hüququ sahəsində vicdanlı təcrübə Məcəlləsindən müvafiq çıxarışlar (hakim prinsiplər və izahedici məruzə (CDL-AD(2002)23rev) xüsusilə aşağıdakıları nəzərdə tutur:

"Seçkilərlə bağlı hakim prinsiplər

...3. Prosessual zəmanətlər

3.1. Seçkilərin neytral orqan tərəfindən təşkil edilməsi

a. Seçki qanunvericiliyinə əməl edilməsinə görə məsuliyyəti neytral orqan daşımalıdır.

b. İnzibati orqanların siyasi hakimiyyət orqanlarından qeyri-asılılığın çoxillik təcrübəsinin olmadığı yerdə, bütün səviyyələrdə, ümummilli səviyyədən ayrıca seçki məntəqəsinədək müstəqil, neytral seçki komissiyaları yaradılmalıdır.

c. Mərkəzi seçki komissiyası daimi fəaliyyət göstərən orqan olmalıdır.

d. Onun tərkibinə aşağıdakılar daxil olmalıdır:

i) məhkəmə hakimiyyətinin heç olmazsa, bir nümayəndəsi;

ii) artıq parlamentdə təmsil edilmiş və ya səslərin daha çox səs faizini toplamış partiya

nümayəndələri; bu şəxslər seçki məsələlərinə yaxşı bələd olmalıdır.

Onun tərkibinə aşağıdakılar daxil ola bilər: iii) daxili işlər nazirliyinin nümayəndəsi; iv) milli azlıqların nümayəndələri.

e. Siyasi partiyalar seçki komissiyalarında bərabər şəkildə təmsil edilməli və ya bu neytral orqanların fəaliyyətinə nəzarət etmək imkanına malik olmalıdır. Bərabərlik ciddi və proporsional qəbul edilməlidir...

h. Yaxşı olardı ki, seçki komissiyalarının qərarları qiymətləndirilmiş səs çoxluğu ilə və ya

konsensusla qəbul etsinlər...

3.3. Effektiv şikayət sistemi

a. Bütün seçki məsələləri üzrə şikayət etmə seçki komissiyasında və ya məhkəmədə həyata keçirilir. Parlamentə seçkilərlə bağlı şikayət əvvəlcə birbaşa parlamentdə aparılır. İstənilən halda məhkəmədə son şikayətin verilməsinə icazə olmalıdır.

b. Prosedur əvvəlcə formal baxımından sadə olmalıdır və xüsusilə şikayətlərin qəbul edilən olmasına münasibətdə çox da mürəkkəb olmamalıdır...

d. Şikayət ərizələrinə baxan orqana, xüsusilə, seçmək və seçilmək hüququ, o cümlədən seçici siyahıları, namizədlərin müəyyən tələblərə uyğunluğu, seçki kampaniyalarının keçirilməsini tənzimləyən qaydalara lazımi qaydada əməl edilməsi və seçkilərin nəticələri kimi məsələlərə baxmaq səlahiyyəti verilməlidir.

e. Yol verilən pozuntuların seçkilərin nəticələrinə təsir etmək təhlükəsi mövcud olduğu hallarda, şikayət ərizələrinə baxan orqana seçkiləri ləğv etmək səlahiyyəti verilməlidir. O həmçinin seçkilərin bütün nəticələrini və ya yalnız ayrı-ayrı seçici dairələri və ya seçki məntəqələri üzrə nəticələri ləğv etmək imkanına malik olmalıdır. Müvafiq rayonda seçkilərin nəticələri ləğv edildiyi halda yeni seçkilər təşkil edilməlidir.

f. Müvafiq seçki dairəsi üzrə qeydiyyata alınan bütün namizədlərin və seçicilərin şikayət etmək hüququ olmalıdır...

g. Şikayət ərizələrinin verilmə və baxılma müddəti qısa olmalıdır (birinci instansiyada hər bir hərəkət üçün üç gündən beş günədək).

h. Şikayət edən tərəfi hər iki tərəfin dinlənilməcəyi araşdırma qaydası ilə təmin etmək lazımdır.

i. Yuxarı seçki komissiyası şikayət ərizələrinə baxan orqan rolunda çıxış etdiyi hallarda ex officio1 təshih etmək və ya aşağı seçki komissiyasının qərarını ləğv etmək imkanına malik olmalıdır...

İzahedici məruzə

...3.1. Seçkilərin neytral orqan tərəfindən təşkil edilməsi

68. Yalnız siyasi motivli manipulyasiyanın şəffaflığı, qərəzsizliyi və ya müstəqilliyi seçkiqabağı prosesdən nəticələrin emalınadək seçki prosesinin lazımi qaydada keçirilməsini təmin edəcəkdir.

69. İnzibati orqanların siyasi hakimiyyətdən çoxillik qeyri-asılılıq təcrübəsinə malik olan ölkələrdə dövlət qulluqçuları seçkilər haqqında qanunu siyasi təzyiqə məruz qalmadan tətbiq edirlər. Beləliklə, seçkilərin inzibati orqanlar tərəfindən daxili

işlər nazirliyinin nəzarəti altında təşkil edilməsi normal və qəbul edilə biləndir.

70. Lakin plüralist seçkilərin təşkil edilməsi üzrə kiçik təcrübəyə malik olan ölkələrdə hakimiyyətin öz istəyini icra etdirmək üçün inzibati orqanlara təzyiq göstərmək riski böyükdür. Yerli hakimiyyətə milli müxalifət nəzarət etsə belə, bu həm mərkəzi, həm də yerli hakimiyyətə tətbiq ediləndir.

71. Bax buna görə də seçkilərin lazımi qaydada keçirilməsi üçün və ya heç olmazsa, pozuntuların olması barədə ciddi şübhələrin aradan qaldırılması üçün milli səviyyədən tutmuş seçki məntəqələri səviyyəsinədək müstəqil, neytral seçki komissiyaları yaradılmalıdır...

3.3. Effektiv şikayət vermə sistemi

92. Seçkilər haqqında qanunun normaları kağızda qalan sözlərdən daha təsirli olması üçün şikayətlərə baxan orqana seçkilər haqqında qanunun pozulmasından şikayət etmək imkanını nəzərdə tutulmalıdır. Bu, xüsusilə, seçkilərin nəticələrinə tətbiq ediləndir: vətəndaşlar onları səsvermənin gedişində pozuntulara əsaslanaraq etiraz edə bilərlər. Bu həmçinin seçkilərə qədər qəbul edilən, xüsusilə seçmək hüququ, seçici siyahıları və namizədlərin irəli sürülməsi, namizədlərin yararlılığı, seçki kampaniyalarını və kütləvi informasiya vasitələrindən və ya partiyaların maliyyələşdirilməsindən sərbəst istifadəni tənzimləyən qaydalara əməl edilməsi ilə bağlı olan qərarlara tətbiq ediləndir.

93. İki mümkün həll mövcuddur:

- şikayətlərə ümumi yurisdiksiyalı məhkəmələr, xüsusi məhkəmə və ya konstitusiya məhkəməsi baxa bilər;

- şikayətlərə seçki komissiyası baxa bilər. Məhkəmələrin, bir qayda olaraq, seçki məsələlərində daha az təcrübəsi olduğu üçün, komissiyaların məhdud ixtisasa malik olduğu sonuncu sistemin xeyrinə çoxlu dəlillər mövcuddur. Lakin, şikayət etmək üçün yuxarı komissiya birinci instansiya, səlahiyyətli məhkəmə isə ikinci instansiya olduqda, məhkəmə yoxlamasının hər hansı formasının ehtiyat tədbiri kimi varlığı yaxşı olardı...

95. Şikayət proseduru istənilən halda seçkilərə qədər qəbul edilməli olan qərarlara münasibətdə mümkün qədər qısa olmalıdır. Bu baxımdan iki təhlükədən çəkinmək lazımdır: birincisi şikayət prosedurunun seçki prosesini ləngitməsindən, ikincisi isə seçkilərdən əvvəl qəbul edilə biləcək, lakin sonradan qəbul edilən şikayətlər üzrə qərarı ləngidən effektin olmamasından ibarətdir. Bundan əlavə, seçkilərin nəticələri haqqında qərarlar, xüsusilə gərgin siyasi vəziyyətdə, həddən artıq çox vaxt aparmamalıdır. Bu isə o deməkdir ki, şikayət üçün müddətlər çox qısa olmalıdır və şikayətə baxan orqan qərarı mümkün qədər tez çıxarmalıdır.

Lakin, şikayəti mümkün etmək və müdafiə hüquqlarının həyata keçirilməsini və ölçülüb-biçilmiş qərara təminat vermək üçün müddətlər kifayət qədər uzun olmalıdır. Birinci instansiyada üç gündən beş günədək olan müddət (həm şikayətlərin verilməsi, həm də qərarların çıxarılması üçün) seçkilərə qədər qəbul edilməli olan qərarların əsasını təşkil edir. Bununla bərabər qərarların çıxarılması üçün ali və konstitusiya məhkəmələrinə daha çox zaman ayırılması yolverilən dir.

96. Prosedur həm də sadə olmalıdır və xüsusi şikayət formulyarlarının seçicilərə təqdim edilməsi buna şərait yarada bilər. Formalizmi aradan qaldırmaq və buna görə, əsasən siyasi

cəhətdən həssas işlərlə bağlı qəbuledilməzlik haqqında qərarlardan çəkinmək lazımdır...

99. Belə şikayətləri vermək hüququ mümkün qədər daha geniş dairəyə verilməlidir. Seçki dairəsində hər bir seçiciyə və seçkilərdə iştirak edən hər bir namizədə şikayət etmək imkanı verilməlidir. Lakin seçicilərin seçkilərin nəticələri ilə bağlı şikayətləri üçün məntiqli yetərsay tələb oluna bilər.

100. Hər iki tərəfin dinlənildiyi araşdırmadan ərizəçilərin şikayət etmə hüququnun təmin

edilməsinin vacibliyi baxımından şikayət etmə proseduru məhkəmə xarakteri daşımalıdır.

101. Şikayətlərə baxan orqanların səlahiyyətləri də vacibdir. Əgər pozuntular seçkilərin nəticələrinə təsir edə bilərsə, yəni yerlərin bölüşdürülməsinə toxuna bilərsə, onlar seçkiləri ləğv etmək səlahiyyətinə malik olmalıdır. Bu ümumi prinsipdir, lakin təshih etmə üçün açıq olmalıdır, yəni ləğvetmə bütün ölkəni və ya seçki dairəsini əhatə etmək zərurəti ilə deyil, əksinə olaraq, yalnız bir seçki məntəqəsinin nəticələrini ləğv etmək mümkün olmalıdır. Bu iki ifratçılıqdan yaxa qurtarmağa imkan verir: pozuntunun yalnız kiçik bir əraziyə aid olduğu halda, seçkilərin ümumilikdə ləğv edilməsi və toxunulan ərazinin həddən artıq kiçik olması səbəbindən ləğvetmədən imtina edilməsi. Nəticələrin ləğv edildiyi ərazilərdə seçkilər təkrar keçirilməldir.

102. Əgər şikayətlərə baxan orqanlar yuxarı komissiyalar olarsa, onlar aşağı seçki

komissiyalarının ex officio qərarlarına düzəliş etmək və ləğv etmək imkanına malik olmalıdır...".

B. AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN (ATƏT/DTİHB) 7 NOYABR 2010-CU İL PARLAMENT SEÇKİLƏRİNDƏ MÜŞAHİDƏ MİSSİYASININ YEKUN HESABATI (VARŞAVA şəhəri, 25 YANVAR 2011-ci il) (BUNDAN SONRA – ATƏT-in HESABATI)

53. ATƏT-in hesabatından müvafiq çıxarışlar aşağıdakıları nəzərdə tutur:

"..IV. Seçki sistemi və hüquqi əsas

A. Seçki sistemi

Parlament seçkiləri majoritar sistem üzrə keçirilir. Parlament üzvləri 125 birmandatlı dairələr üzrə birbaşa səsvermə yolu ilə beş il müddətinə seçilir. Daha çox səs toplayan namizəd seçilmiş hesab edilir...

V. Seçkilərin keçirilməsi

7 noyabr parlament seçkiləri MSK-nın rəhbərlik etdiyi, 18 üzvdən ibarət olan seçki orqanlarının üçpilləli sistemi ilə keçirilmişdir. 125 DSK və 5 175 MnSK fəaliyyət göstərir. Bu seçki komissiyaları beş il müddətinə təyin edilən daimi orqanlardır. MSK üzvləri parlament tərəfindən, DSK MSK tərəfindən, MnSK isə müvafiq DSK-lar tərəfindən seçilir...

Seçki Məcəlləsinə uyğun olaraq bütün seçki komissiyalarının tərkibi siyasi qüvvələrin parlamentdə bölüşdürülməsini əks etdirir: parlamentdə çoxluq təşkil edənin (yəni "Yeni Azərbaycan" partiyasının), müstəqil namizədlər qismində seçilmiş parlament üzvlərinin və parlament azlığının (parlamentdə təmsil edilən qalan siyasi partiyalar kimi müəyyən edilir) seçdiyi üzvlərin irəli sürdüyü üzvlərə üç eyni kvota ayrılmışdır.

Bu formul olduqca mübahisəli olaraq qalır, çünki o təcrübədə bütün komissiyalarda həlledici çoxluq təşkil edən hakimiyyətyönlü qüvvələrin seçkilərin keçirilməsində üstün rolunu müəyyən edir. Bundan əlavə, bütün seçki komissiyalarının sədrləri qanun nöqteyi-nəzərindən parlament çoxluğu ilə təyin edilir. Bu üstün rol seçkiləri keçirən orqanların müstəqilliyinə və qərəzsizliyinə inamı sarsıdır və ictimaiyyətin onlara inamını təmin etmir. ATƏT/DTİHB və Venesiya komissiyası dəfələrlə tövsiyə etmişdir ki, mövcud formula seçki komissiyasının hakimiyyətyönlü qüvvələrin hakimiyyəti altında olmamasını və ictimaiyyətin, xüsusilə, seçkilərin nəticələrini mübahisə edən siyasi partiyaların inamını qazanmasını təmin edə biləcək üsulla yenidən baxılsın. Bu tövsiyəyə baxılmamışdır...

ATƏT/DTİHB-in seçkilərə nəzarət missiyasının uzunmüddətli müşahidəçiləri MSK-nın fəaliyyətini ümumilikdə səmərəli və peşəkar kimi qiymətləndirmişdir, çünki seçki prosesinə texniki hazırlıqdan söhbət gedirdi. Lakin onlar, ümumilikdə göründüyü kimi, "Yeni Azərbaycan" partiyasının namizədlərinin və ya müvafiq vəzifə tutan və yenidən həmin vəzifəyə seçilən müstəqil namizədlərin mənafeyi üçün fəaliyyət göstərmiş dairə seçki komissiyalarının qərəzsizliyinə münasibətdə ciddi şübhələrinin olduğunu bildirmişdilər. DSK-nın bitərəf olmaması namizədlərin qeydiyyata alınması və seçki mübahisələrinə baxılması prosesində daha aşkar görünmüşdür...

XIV. Seçki günü

Seçki günü ümumilikdə sakit və dinc şəraitdə keçsə də, beynəlxalq müşahidəçilər çoxlu sayda ciddi çatışmazlıqlar və prosessual pozuntular, o cümlədən səsvermə qutularına bülleten atmalar haqqında məlumat vermişdi...

A. Açılış və səsvermə

...Beynəlxalq müşahidəçilər baş çəkilmiş seçki məntəqələrinin 89%-i barəsində səsverməni ümumilikdə pozitiv qiymətləndirmiş və eyni zamanda baş çəkilmiş seçki məntəqələrinin 11%-də səsverməni neqativ qiymətləndirmişdir ki, bu da, sistemli pozuntulara işarə edərək, cüzi bir hissədir (1 247 seçki məntəqəsindən 127). Səsvermə zamanı daha çox qeyd edilən prosessual pozuntular dəfələrlə səsverməyə qarşı vacib zəmanət olan mürəkkəblə işarələməyə aid olmuşdur. Baş çəkilən məntəqələrin 12%-də gözlə görünməyən mürəkkəb izinin olub-olmaması ilə bağlı seçicilərin hamısı yoxlanılmışdır, 8%-də isə seçicilərin hamısının barmağı gözlə görünməyən mürəkkəblə işarələnməmişdir. Səsvermənin müşahidə edildiyi məntəqələrdən iyirmi üç MnSK- da seçicilərin gözlə görünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini ümumiyyətlə yoxlamamışdır, 12 MnSK-da isə seçicilərin barmağı işarələnməmişdir. Beynəlxalq müşahidəçilər yeddi seçki məntəqəsindən məlumat vermişdir ki, artıq işarələnməsinə baxmayaraq, seçicilər səsverməyə buraxılmışdır...

Beynəlxalq müşahidəçilər baş çəkilən 100 seçki məntəqəsində seçici siyahılarında bir sıra oxşar imzaları, habelə 63 halda isə səsvermə qutularına bülleten atmanı qeyd etmişdir ki, bu da kifayət qədər say təşkil edir. Qrup şəklində səsvermə baş

çəkilən seçki məntəqələrinin 7%-də, nümayəndə vasitəsilə səsvermə 2%-də və dəfələrlə səsvermə 1%-də qeyd edilmişdir. Şəxsiyyəti təsdiq edən heç bir sənəd təqdim edə bilməməsinə baxmayaraq, baş çəkilən 25 seçki məntəqəsində seçicilər səsverməyə buraxılmışdır...

Baş çəkilən seçki məntəqələrinin 7%-də bəzi seçicilər öz bülletenini gizli doldurmamışdır. Həmçinin beynəlxalq müşahidəçilər bir şəxsin, səsvermənin gizliliyini potensial şəkildə pozaraq, bəzi seçicilərə "yardım etdiyi" 12 halı qeyd etmişdir...

Beynəlxalq müşahidəçilər seçki məntəqələrində və kənarda 65 gərginlik halı, seçicilərin kimə səs verməli olmasına 25 təsir göstərmək cəhdi və seçicilərin 9 qorxudulma halı haqqında xəbər vermişdir. Onlar həmçinin seçki məntəqələrinin yaxınlığında və onların ərazisində təşviqat hallarının və təşviqat materiallarının olmasını qeyd etmişdir. 79 seçki məntəqəsində səlahiyyəti olmayan şəxslər aşkar edilmişdir və 19 halda prosesə müdaxilə etmişdir və ya prosesə rəhbərlik etmişdir.

Namizədlərin, partiyaların və seçki bloklarının vəkalətli şəxsləri baş çəkilən seçki məntəqələrinin 91%-də, ölkədaxili bitərəf müşahidəçilər isə 56%-də iştirak etmişdir... Beynəlxalq müşahidəçilər müşahidəçilərin və vəkalətli şəxslərin seçki məntəqələrindən çıxarılma hallarını və onların təzyiqə, həbsə və ya fiziki təzyiqə məruz qalma hallarını qeyd etmişdir. Təəssüf ki, beynəlxalq müşahidəçilər 114 seçki məntəqəsində müşahidə aparmaq imkanından məhrum edilmişdir.

B. Səslərin sayılması

Müşahidə olunan 152 hesablamadan 105-nin pozitiv qiymətləndirilməsinə baxmayaraq, müşahidəçilər 47 halda (32%) səslərin sayılmasını neqativ qiymətləndirmişdir ki, bu da çox böyük hissədir. 14 halda daşınan və ya stasionar səsvermə qutusunda bülletenlərin sayı seçki siyahılarında olan imzaların və ya ev şəraitində səsvermə üçün yazılı ərizələrin sayını aşmışdır və 31 səsvermə qutusunda əvvəlcədən bülleten salınması ehtimalını verən bülleten topası və ya

yığını vardı. MnSK az sayda işlərdə səslərin sayılmasını başqa otaqda həyata keçirmişdir. 13 seçki məntəqəsində seçkilərin nəticələri təhrif edilmişdir.

Müşahidə edilən səs hesablamalarının dörddə birindən çoxunda əhəmiyyətli sayda prosessual xəta və nöqsanların olması barədə xəbər verilmişdir. Çoxlu sayda MnSK seçici siyahılarında seçici imzalarının sayının (61 hal), toplanmış uçotdan çıxma vəsiqələrinin (25 hal) və ya ev şəraitində səsvermə haqqında ərizələrin (25 hal) hesablaması və protokola daxil edilməsi kimi qanunla nəzərdə tutulan əsas müqayisə prosedurlarını yerinə yetirməmişdir. İyirmi səkkiz MnSK səsvermə başa çatdıqdan sonra istifadə olunan bülletenləri ləğv etməmişdir, 33 MnSK isə korlanmış bülletenləri ayrıca zərfə qoymamışdır. Əlli bir MnSK müqayisə prosedurları zamanı əldə edilən rəqəmlərin hamısını bülleten qutuları açılanadək protokol layihəsinə daxil etməmişdir və 41 MnSK-da onların riyazi ziddiyyətsizliyi təkrar yoxlanılmamışdır. Səsvermənin müşahidə edildiyi beş seçki məntəqəsində bülleten qutularının üzərində möhürlər qutuların açılma anına qədər

saxlanılmamışdır və 13 halda onların seriya nömrələri seçki məntəqəsinin açıldığı ana layihə protokoluna daxil edilənlərlə eyni olmamışdır.

Bülletenlərin etibarlılığı həmişə məntiqli və ardıcıl üsulla müəyyən edilməmişdir (müvafiq olaraq 16 və 14 halda) və səslərin hesablanmasının müşahidə edilən 42 halında mübahisəli bülletenlərin etibarlılığı məsələsini MnSK səsvermə yolu ilə həll etməmişdir. Müşahidə edilən 31 hesablamada bülletenlərdə hansı işarənin qoyulduğunu bütün iştirakçılar görə bilməmişdir və 12 halda MnSK üzvlərinə və ya müşahidəçilərə onların tələbi ilə bülletenlərə baxmağa icazə verilməmişdir. Müşahidə edilən 48 səs hesablanmasında müəyyən edilən məlumatlar layihə protokoluna daxil edilənə qədər açıqlanmamışdır. 10 seçki məntəqəsində hesablanmada səlahiyyəti olmayan şəxslər iştirak etmiş, altı seçki məntəqəsində isə belə şəxslər prosesə müdaxilə etmiş və ya prosesə rəhbərlik etmişdir. 12 seçki məntəqəsində MnSK üzvü olmayan şəxslərin səslərin hesablanmasında iştirak etməsi qeyd edilmişdir...

XVI. Şikayətlər və seçkilərdən sonrakı müraciətlər

A. Seçkilərdən sonra şikayətlərə MSK tərəfindən baxılması

MSK noyabrın 22-dək 73-ü 50 seçki dairəsində seçki nəticələrinin etibarsız sayılması tələblərinin olduğu 120-dən çox şikayətə baxmışdır. Ərizəçilər xüsusilə hərbi hissələrdə bülletenlərin salınması, dəfələrlə səsvermə və digərlərinin yerinə səs vermə, səlahiyyəti olmayan şəxslərin səs verməsi, icra hakimiyyəti orqanları tərəfindən müdaxilə olunması və təzyiq göstərilməsi, müşahidəçilərə mane olunması, səslərin hesablanması və yekun vurulması zamanı qanun pozuntusu,

habelə MnSK və DSK protokolları arasında ziddiyyətlər kimi kobud pozuntulara istinad etmişdir. Onlar həmçinin seçkilərlə bağlı qanun pozuntularını törətməsi ehtimal olunan vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsini tələb etmişdir.

Şikayətlərə MSK tərəfindən baxılması lazımi prosedur və şəffaflıqdan uzaq idi; şikayətlərin araşdırılması işin təhvil verildiyi və yalnız öz rəyi qısa şəkildə izhar edən və MSK-nin əksər üzvlərinin həmişə şərtsiz olaraq qəbul edilən təftiş qrupunun bir üzvü tərəfindən təkbaşına aparılmışdır. MSK-nın iclaslarında şikayətlərin mahiyyəti müzakirə olunmamışdır. Şikayətlərə ciddi şəkildə baxılmasından imtina etmək üçün, mübahisənin əsas mətləbini müəyyən etmək əvəzinə formal əsaslara istinad edilmişdir. Bir dəfə MSK şikayətçinin ərizədə olan imzası ilə onun şəxsiyyətini təsdiq edən sənəddə olan imzasının fərqli olduğu halda, ərizəçi ilə əlaqə saxlamağa cəhd edilmədən, şikayətə mahiyyəti üzrə baxılmasının zəruriliyini müzakirə edirdi. Pozuntular haqqında bir neçə ərizəni imzalamış müşahidəçinin imzalarında ziddiyyətin olmasına əsaslanaraq və MSK müşahidəçilərin ərizələrdə göstərilən müddət ərzində seçki məntəqələrinə baş çəkməsinin mümkünsüz olduğunu ehtimal edərək, bəzi şikayətləri rədd etmişdir.

MnSK protokolları kimi sübut qismində təqdim edilən sənədlər orijinal olmaması adı altında iclaslarda baxılmamış və müzakirə edilməmişdir. Bir qrup adamın avtobuslarda gəzdirilməsinin və dəfələrlə səs verməsinin təsdiq edildiyi şikayətlərə cavab olaraq, MSK sədri iclas zamanı bildirdi ki, MSK yalnız seçki məntəqələrinin ərazisində baş verən hadisələrə baxır və qalan heç nəyin MSK-ya aidiyyəti yoxdur.

Ərizəçilər onların şikayətlərinin baxıldığı çox az iclaslarda iştirak etmişdir və iclasa çox az vaxt qalmış bildiriş aldıqdan şikayət etmişdir. Onlar həm də şikayətlərinin MnSK və DSK tərəfindən qəbul olunmadığını iddia etmişdir. Hətta DSK öz qərarlarını vaxtaşırı olaraq bir neçə gün ərzində poçtla ərizəçilərə göndərsə belə, MSK ərizələrin qanunla müəyyən edilən üçgünlük müddət xaricində verildiyini əsaslandıraraq, sonrakı şikayətləri rədd etmişdir...

B. Şikayətlərə məhkəmələr tərəfindən baxılması

MSK-nın qərarlarından 60-dan çox şikayət Bakı Appelyasiya Məhkəməsinə verilmişdir və onların hamısı rədd edilmişdir. Məhkəmə şikayət ərizəçilərinin dəlillərini ciddi şəkildə araşdırmadan MSK-nın bütün qərarlarını dəyişiklik etmədən qüvvədə saxlamışdır. Məhkəmə, kiçik istisna olmaqla, bütün işlər üzrə şahidləri dəvət etməmiş və şikayət ərizəçilərinin təklif etdiyi şahid ifadələrini araşdırmamışdır. məhkəmə qərarının əsaslandırma hissəsində işdə iştirak edən şəxslərin istinad etdiyi sübutları qəbul etməkdən imtina motivlərinin göstərilməsi Mülki prosessual məcəllədə birbaşa nəzərdə tutulmasına baxmayaraq, məhkəmə şahidləri dəvət edilmədiyinin və ifadələrini dinlənimədiyinin səbəblərini qərarlarda göstərməmişdir.

Şikayət ərizəçilərinin qabaqcadan MSK-ya verdikləri sənədlərin əslinin onlara qaytarılması tələbləri, bir qayda olaraq, rədd edilmişdir. İşlərin birində ərizəçi MSK-nın seçki məntəqəsində quraşdırılan kameranın qeydlərini sübut kimi təqdim etmək öhdəliyi haqqında məhkəmə qarşısında vəsatət qaldırmışdır. MSK hüquqşünası bildirmişdi ki, video yazılar arxivdədir və onları təqdim etmək mümkün deyil. Məhkəmə nə

dinləmə zamanı, nə də öz qərarında vəsatətə baxmamışdır. MnSK tərəfindən təsdiq edilən, MSK-nın web-saytında yerləşdirilən nəticələrdən fərqlənən nəticələr haqqında protokollar iclaslarda təqdim edilmiş, lakin təkrar hesablamalardan sonra ziddiyyətlərin aşkar edilmədiyi MSK-nın izahatları ilə razılaşan məhkəmə tərəfindən nəzərə alınmamışdır.

ATƏT/DTİHB seçkilərə nəzarət missiyası Ali məhkəmə tərəfindən baxılan təxminən 30 iş haqqında məlumatlandırılmışdır. Seçkilərlə bağlı olan, ATƏT/DTİHB seçkilərə nəzarət missiyasının məhkəməyə göndərdiyi məlumat sorğuları cavabsız qalmışdır. Məhkəmə MSK və Bakı Apellyasiya Məhkəməsi tərəfindən şikayətlərə baxılan zamanı baş vermiş pozuntu və nöqsanlara baxmamışdır və bütün şikayətləri rədd etmişdir. Şikayət ərizəçilərinin nümayəndələri təsdiq etmişdir ki, dinləmə barədə yalnız başlanmasına bir və ya iki saat qalmış bildiriş almışlar. Ümumilikdə məhkəmələr effektiv hüquqi müdafiə vasitəsini təqdim etməmişdir və ölkə qanunvericiliyinə heç vaxt əməl etməmişdir.

C. Nəticələr haqqında yekun protokolun tərtib edilməsi və təsdiqlənməsi

Mərkəzi seçki komissiyası 22 noyabr seçkilərinin nəticələri haqqında yekun protokolu MSK qərarlarının məhkəmələrdə şikayət edilmə müddətləri başa çatanadək tərtib etmiş və Konstitusiya məhkəməsinə göndərmişdir. Protokol 18 MSK üzvündən 17-si tərəfindən imzalanmışdır. Bütün işlərə Bakı appelyasiya məhkəməsi tərəfindən baxıldığı və apellyasiya məhkəməsinin qərarlarından Ali məhkəməyə

şikayət etmə müddəti başa çatmadığı halda, Konstitusiya məhkəməsi seçkilərin nəticələrini 29 noyabr tarixli yekun qərarla təsdiq etmişdir. Bu aidiyyatı şəxsləri məhkəmə müraciət etmək üçün konstitusiya hüquqlarını həyata keçirmək imkanından faktiki olaraq məhrum etmişdir".

C. AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ QƏTNAMƏSİNƏ HƏMMƏRUZƏÇİLƏR PEDRO ARQAMUNTUN (PEDRO AGRAMUNT) VƏ TADEUŞ İVİNSKİNİN (TADEUSZ IWINSKI) İZAHAT MEMORANDUMU W 2062(2015) "AZƏRBAYCANDA DEMOKRATİYA İNSTİTUTLARININ FƏALİYYƏTİ" ("THE FUNCTIONING OF DEMOCRATIC INSTITUTIONS IN AZERBAIJAN")

54. Ardınca izahat memorandumundan çıxarışlar göstərilmişdir: "...4. Seçkilər

...27. Seçki məcəlləsinə gəldikdə isə, 2008-ci ilin martında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının demokratik təsisatlar və insan hüquqları Bürosu (ATƏT/DTİHB) və Venesiya komissiyası məcəlləyə dəyişiklik layihəsi ilə bağlı birgə rəy hazırlamışdır. [Milli Assambleya] dəyişiklikləri 2 iyun 2008-ci ildə qəbul etmişdir. ATƏT/DTİHB və Venesiya komissiyasının Seçki məcəlləsinə qəbul edilən dəyişikliklərlə bağlı digər birgə rəyi 2008-ci ilin iyununda qəbul edilmişdir. Bundan əlavə Seçki məcəlləsi əlavə olaraq 2010-cu ilin iyununda, 2012-ci ilin aprelində və 2013-cü ilin aprelində dəyişdirilmişdir, lakin əsas məsələlər, xüsusilə

müstəqil olmayan seçki orqanlarının tərkibinin yenidən formalaşdırılması işlənib hazırlanmamışdır.

28. Həm məruzəçilər 20 dekabr 2012-ci il tarixli "Vəzifə və öhdəliklərin Azərbaycan tərəfindən yerinə yetirilməsi" ("The honouring of obligations and commitments by Azerbaijan") haqqında əvvəlki məruzəsində Venesiya komissiyasının əvvəlki tövsiyələrinin nəzərə alınmaması faktı ilə bağlı narahatçılıqlarını bildirmişdir. MSK və dairə seçki komissiyalarının tərkibi, namizədlərin qeydiyyata alınması, müşahidəçilər, seçici siyahısı və onun dəqiqliyi, habelə şikayət və müraciətlərə baxılma prosedurları daha çox narahatçılıq yaratmışdır. Venesiya komissiyasının tövsiyələrinə baxmayaraq, o vaxtdan bəri seçki orqanlarının tərkibinin, namizədlərin və seçicilərin qeydiyyata alınmasının yaxşılaşdırılması üçün Seçki məcəlləsinə dəyişiklik edilməmişdir.

29. Mərkəzi seçki komissiyası parlament tərəfindən təyin edilir: üzvlərinin 1/3-i çoxluq tərəfindən, 1/3-i azlıq tərəfindən və sonuncu üçdə biri parlamentin bitərəf üzvləri tərəfindən irəli sürülür. Nəzəriyyədə qəbul edilə bilən sistem kimi görünsə də, bu formul təcrübədə hakimiyyətyönlü qüvvələri həlledici çoxluqla təmin edir və müxalifətə aid olan komissiya üzvlərinin yoxluğuna gətirib çıxarır. [Qeyd: "...həmçinin baxın, ATƏT/DTİHB və Venesiya komissiyasının 2008, 2005, 2004 və 2003-cü illərdə buraxılan əvvəlki seçki hesabatları və birgə rəyləri. Burada əvvəlki seçkilərin təcrübəsindən irəli gələrək dəfələrlə göstərilmişdir ki, nəzəri olaraq parlamentin "müstəqil" bölmələri və ya kiçik partiyaların təyin etdiyi komissiya üzvləri əslində hakim partiyanın xeyrinə səs verməyə meyllidir, xüsusilə, CDL-

AD(2003)015, CDL- AD(2004)016rev, CDL-AD(2005)029 və CDL-AD(2008)011" baxın.] Qanuna görə bütün seçki komissiyalarının sədrləri parlament çoxluğu ilə təyin edilir. Dairə seçki komissiyaları Mərkəzi seçki komissiyası, məntəqə seçki komissiyaları isə müvafiq dairə seçki komissiyaları tərəfindən təyin edilir. Qeyd edilənləri nəzərə alaraq, komissiyanın tərkibi seçki orqanlarının müstəqilliyini azaldır və bununla da seçki prosesinə olan inamı yox edir...

32. ...Seçki komissiyalarının tərkibində müstəqilliyin vacibliyi... seçki komissiyalarının tərkibinə hakimlər birliyinin heç olmazsa bir nümayəndəsinin daxil edilməsini tövsiyə edən Venesiya komissiyası tərəfindən dəfələrlə vurğulanmışdır. Bu nəticələr yekunda Venesiya komissiyasının Azərbaycan Seçki məcəlləsinə dəyişikliklər layihəsi üzrə rəyində əks olunmuşdur...".

HÜQUQ

I. KONVENSİYAYA 1 №-Lİ PROTOKOLUN 3-CÜ MADDƏSİNİN EHTİMAL OLUNAN POZUNTUSU

55. Ərizəçilər Konvensiyaya 1 №-li Protokolunun 3-cü maddəsinə və Konvensiyanın 13-cü maddəsinə istinadla şikayət etmişdir ki, onların parlament seçkilərində iştirak etdikləri seçki dairəsində seçki qanunvericiliyinin ciddi pozuntuları baş vermişdir ki, bu da seçicilərin əsil iradəsini müəyyən etməyi mümkünsüz etmiş və bu səbəbdən onların azad seçkilərdə namizəd kimi iştirak etmək hüququna xələl yetirilmişdir. Ölkədaxili hakimiyyət, o cümlədən seçki komissiyaları və məhkəmələr onların şikayətlərinə lazımi qaydada baxmamış və seçki qanunvericiliyinin yuxarıda

qeyd edilən pozuntuları ilə bağlı onların iddialarını araşdırmamışdır. Xüsusilə, onların şikayətinə Ali məhkəmə tərəfindən baxılması öz təsirini itirmişdir, çünki seçkilərin nəticələri Konstitusiya məhkəməsi tərəfindən təsdiq edilmişdir. Ərizəçilər həm də iddia etdilər ki, hökumətyönlü siyasi qüvvələr hakim mövqe tutmaqla bütün səviyyələrdə seçki komissiyalarının struktur tərkibində komissiya üzvləri tərəfindən seçkilərin nəticələrinin müxalif namizədləri ziyanına saxtalaşdırılmasına yol vermişdir və onun səmərəli şəkildə araşdırılmasından boyun qaçırma səbəblərindən biri olmuşdur.

56. Hazırkı işin xüsusiyyətləri nəzərə alınmaqla Avropa məhkəməsi ehtimal edir ki, bu şikayət yalnız Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsinə uyğun olaraq baxılmalıdır və Konvensiyanın 13-cü maddəsinə uyğun olaraq ayrıca baxılması tələb olunmur. Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsi nəzərdə tutur ki:

“Razılığa gələn Yüksək Tərəflər qanunvericilik hakimiyyət orqanlarının seçimi zamanı xalqın öz iradəsini azad şəkildə ifadə etməsini təmin edən şərtlərdə gizli səsvermə yolu ilə azad seçkiləri məntiqə uyğun dövriliklə keçirməyi öhdələrinə götürür”.

A. ŞİKAYƏTİN QƏBULEDİLƏNLİYİ

57. Avropa məhkəməsi qeyd edir ki, bu şikayət Konvensiyanın 35-ci maddəsinin “a” yarımbəndi baxımından açıq-aşkar əsassız deyildir. O həmçinin qeyd edir ki, şikayət digər hər hansı əsaslara görə qeyri-məqbul deyildir. Buna görə də, mahiyyəti üzrə baxılması üçün şikayət məqbul elan edilməlidir.

B. ŞİKAYƏTİN MAHİYYƏTİ

1. Tərəflərin dəlilləri

58. Azərbaycan hakimiyyəti qeyd etmişdir ki, ölkədaxili qanunvericilik seçkilərlə bağlı olan şikayətlərə DSK, MSK, appelyasiya məhkəməsi və Ali məhkəmə tərəfindən baxılmasının təsirli mexanizmini müəyyən edir.

59. Seçki komissiyalarının struktur tərkibinə gəldikdə, Azərbaycan hakimiyyəti iddia etmişdir ki, hər üç mərhələdə komissiyaların üzvləri parlamentdə siyasi partiyaların üç kateqoriyasını: çoxluğu, bitərəfləri və qalan partiyaların (azlığın) partiyasını təmsil etmişdir. Bir halda ki, bu qüvvələrdən hər biri komissiyaların üzvlərinin üçdə birini təmsil etmişdir, mövcud sistem təmin edir ki, partiyalardan heç biri digər iki partiyaya münasibətdə hakim mövqedə olmasın.

60. Azərbaycan hakimiyyəti qeyd etmişdir ki, ərizəçilərin seçki ilə bağlı şikayətləri Seçki məcəlləsinə və digər müvafiq qanunvericiliyə uyğun olaraq seçki komissiyaları və məhkəmələr tərəfindən tam və ciddi şəkildə baxılmışdır. Şikayətə əvvəlcə MSK-nın iclasında rəy təqdim etmiş MSK ekspert qrupunun üzvü tərəfindən baxılmışdır. MSK qərarı əsaslandırılmışdır. Mərkəzi seçki komissiyası "müxtəlif siyasi partiyaları, o cümlədən ərizəçilərin [özlərinin] siyasi

partiyalarını təmsil edən..., ərizəçilərin iddialarını dəstəkləməyən müşahidəçilərin böyük əksəriyyətinin izahatını almışdır. MSK bu izahatlar əsasında qərara gəlmişdir ki, ərizəçilərin iddiaları əsassızdır.

61. Nəticədə Azərbaycan hakimiyyəti qeyd etmişdir ki, ərizəçilər Bakı appelyasiya məhkəməsinin iclası haqqında

lazımi qaydada məlumatlandırılmışdır və onlardan ikisi orada iştirak etmiş və məhkəməyə izahat vermişdir. İki ərizəçi də Ali məhkəmənin iclasında iştirak etmişdir. Şikayətə Ali məhkəmə tərəfindən baxılmasının effektivliyinə gəldikdə isə, Azərbaycan hakimiyyəti qeyd etmişdir ki, Ali məhkəmə nəinki "mexaniki olaraq" Konstitusiya məhkəməsinin qərarına "istinad etmiş", həm də şikayətin aid edilən bütün hüquqi aspektlərini bütövlükdə gözdən keçirmişdir.

62. Ərizəçilər iddia etmişdir ki, seçki komissiyaları müstəqil olmamış, hakimiyyətyönlü namizədlər üçün müxtəlif ədalətsiz üstünlüklər yaratmaq məqsədilə Azərbaycan Hökumətinin təsiri və nəzarəti altında fəaliyyət göstərmişdir. İlk baxışdan hakim partiya nümayəndələrinin hər seçki məntəqəsində yerlərin üçdə birinə formal şəkildə malik olduğu görünsə də, əslində komissiyanın müstəqil və parlamentdə azlıq təşkil edən partiyaları təmsil edən digər üzvləri də hakim partiyaya yardım etmiş və hakimiyyətin göstərişlərinə əməl etmişdir. Bundan əlavə, qanuna görə istənilən səviyyəli hər seçki komissiyasının sədri parlamentdə çoxluq təşkil edən partiya tərəfindən irəli sürülmüşdür. Beləliklə, təcrübədə sistem hakimiyyətyönlü qüvvələrə hər bir seçki komissiyasında səmərəli şəkildə üstünlük təşkil etməyə imkan vermişdir.

63. Ərizəçilər iddia edirdi ki, müvafiq DSK-lar yol verilən pozuntulara yerində baxmamış, hətta "bir çox qanun pozuntusunu" fəal şəkildə təşviq etmişdir. Buna baxmayaraq MSK, ərizəçilərin şikayətlərinin rədd edilməsinin əsasına istinad kimi, pozuntuların olduğunu inkar edən müvafiq MnSK sədrlərinin və üzvlərinin izahatlarına istinad etmişdir. O həm də əsasən hakimiyyətyönlü partiyaları və "hakimiyyət QHT-lərini" təmsil edən müşahidəçilərin izahatlarına

istinad etmişdir. Mərkəzi seçki komissiyası bu izahatların ehtimal olunan pozuntuları təsbit edən ərizəçilərin müşahidəçilərinin izahatından hansı səbəbdən daha etibarlı olduğunu izah etməmişdir. O ərizəçilərin müşahidəçilərini dindirməmişdir.

64. Ərizəçilərin təsdiq etdiyi kimi, Bakı appelyasiya məhkəməsinin qərarı kifayət qədər əsaslandırılmamışdır, çünki ərizəçilərin ehtimal olunan pozuntularla bağlı dəlilləri və bu dəlillərə MSK tərəfindən baxılmasının ədalətsizliyi araşdırılmamışdır.

65. Onlar həmçinin iddia etmişdir ki, Ali məhkəmə ərizəçilərin şikayətinə səthi baxmışdır və bundan başqa, kənar səbəb əsasında, məhz Konstitusiya məhkəməsinin seçki nəticələrini artıq təsdiq etməsi faktı əsasında onu qismən rədd etmişdir. Bundan başqa, ərizəçi şikayətlərinin Ali məhkəməyə verilmə müddəti başa çatanadək seçki nəticələrinin Konstitusiya məhkəməsi tərəfindən vaxtından əvvəl təsdiq edilməsi hüquqi müdafiə vasitəsi kimi Ali məhkəməyə şikayət etmənin ümumi təsirini azaltmışdır.

2. Avropa Məhkəməsinin rəyi (a) Ümumi prinsiplər

66. Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsi səmərəli siyasi demokratiya üçün xarakterik olan prinsipi təcəssüm etdirir və müvafiq olaraq, konvensiya sistemi üçün birinci dərəcəli əhəmiyyət daşıyır (baxın, Avropa Məhkəməsinin "Metyu-Moen və Klerfayt Belçikaya qarşı" iş üzrə 2 mart 1987-ci il tarixli Qərarı). Bu maddə ola bilsin ki, əvvəlcə Konvensiyanın və onun Protokollarının digər müddəalarından fərqlənirdi, çünki konkret hüquq və ya

azadlıq nöqteyi-nəzərindən deyil, Razılığa gələn Yüksək Tərəflərin seçkiləri xalqın öz iradəsini sərbəst

ifadə etməsini təmin edən şəraitdə keçirmək öhdəliyi kimi xülasə edilmişdir. Lakin Avropa Məhkəməsi müəyyən etmişdir ki, o fərdi hüquqları, o cümlədən seçmək və seçilmək hüququnu təmin edir (oradaca, §§ 46-51).

67. Avropa Məhkəməsi Konvensiyanın təfsir edilməsi və tətbiq edilməsi əsasında duran demokratik prinsiplərin əhəmiyyətini ardıcıl olaraq qeyd etmişdir və hakimliyin idarə etdiyi effektiv və əhəmiyyətli demokratiyanın əsaslarının müəyyən edilməsi və dəstəklənməsi üçün Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsinə uyğun olaraq təmin edilən hüquqların əsas olduğunu vurğulamışdır (baxın, "Xyörst Birləşmiş Krallığa qarşı" iş üzrə Avropa Məhkəməsinin Böyük Palatasının Qərarı (№ 2)". Bununla belə həmin hüquqlar qəti deyildir. "Vasitəli məhdudiyyətlər" mümkündür və iştirakçı dövlətlərin bu sahədə mülahizə hədləri vardır (baxın, "Metyus Birləşmiş Krallığa qarşı" iş üzrə Avropa Məhkəməsinin Böyük Palatasının Qərarı, "Labita İtaliyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin Böyük Palatasının Qərarı və "Podkolzina Latviyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin Qərarı). Lakin, Avropa Məhkəməsi Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsinin tələblərinə əməl edilib-edilmədiyini sonuncu instansiyada müəyyən edir. O əmin olmalıdır ki, seçmək və seçilmək hüquqlarının şərtlərinin bu hüquqları onların mahiyyətini azaldacaq və onları fəallıqdan məhrum edəcək dərəcəyədək məhdudlaşdırmasın, qanuni məqsəd üçün tətbiq edilsin və vasitələrin istifadəsi proporsional olmasın. Xüsusilə, müəyyən edilən istənilən şərtlər qanunvericilik hakimiyyətinin seçkilərində xalqın öz iradəsini azad şəkildə

ifadə etməsinə mane olmamalıdır, digər sözlə, onlar ümumi seçkilər yolu ilə xalqın öz iradəsini azad şəkildə ifadə etməsinə yönəldilən seçki prosedurunun bütövlüyünün və səmərəliliyinin saxlanılması məqsədini əks etdirməli və ya zidd olmamalıdır (baxın, "Xyörst Birləşmiş Krallığa qarşı" iş üzrə Avropa Məhkəməsinin Böyük Palatasının yuxarıda xatırladılan Qərarı).

68. Bundan başqa, insan hüquqlarının müdafiə aləti olan Konvensiyanın obyekti və məqsədi onun müddəalarının onun tərəfindən təfsirini və tətbiqini o qaydada tələb edir ki, onların şərtləri nəzəri və aldadıcı yox, praktiki cəhətdən səmərəli olsun (baxın, bir çox digər nümunələrlə yanaşı "Türkiyə Birləşmiş kommunistlər partiyası və başqaları Türkiyəyə qarşı" iş üzrə Böyük Palatanın 30 yanvar 1998-ci il tarixli Qərarı, "Şassanyu və digərləri Fransaya qarşı" iş üzrə Avropa Məhkəməsinin Böyük Palatasının Qərarı, "Likorezos və Yunanıstana qarşı" iş üzrə Avropa Məhkəməsinin Qərarı). Əgər sərbəst şəkildə həll edilməsi istənilən anda mümkün olsaydı, Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsi ilə təmin edilən və əsil demokratiya mexanizminin ayrılmaz konsepsiyasını təşkil edən seçkilərdə namizəd qismində iştirak etmək hüququ sırf xəyalı olardı. Deməli, passiv seçki hüququnun abstrakt şərtləri müəyyən edilən zaman dövlətlər geniş baxış hüdudlarına malik olsalar da, hüquqların effektiv olma prinsipi tələb edir ki, seçki proseduru özbaşına qərarların qarşısının alınması üçün kifayət qədər zəmanətlərdən ibarət olsun (baxın, "Podkolzina Latviyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin yuxarıda adı çəkilən Qərarı). Özbaşınalığın qarşısının alınmasını tələb edən bu prinsip həm də fərdi seçki hüquqlarından söhbət gedən digər hallarda da əhəmiyyət kəsb

edir (baxın. mutatis mutandis1 “Kovaç Ukraynaya qarşı” iş üzrə Avropa Məhkəməsinin Qərarı).

69. Avropa Məhkəməsi müəyyən etmişdir ki, seçki hüquqları ilə bağlı olan məsələlər üzrə fərdi şikayətlərə effektiv şəkildə baxılması üzrə daxili sistemin mövcudluğu azad və ədalətli seçkilərin əhəmiyyətli təminatlarından biridir. Bu sistem fərdi seçmək və seçilmək hüquqlarının səmərəli şəkildə həyata keçirilməsini təmin edir, seçki prosesinin dövlət tərəfindən idarə edilməsinə ümumi inamı dəstəkləyir və dövlətin Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsinə uyğun olaraq malik olduğu pozitiv öhdəliyin icra vasitəsini təşkil edir. Əslində, seçki prosesi boyunca demokratik seçkilərin təmin edilmədiyinə işarə edən konkret nümunələr məsələni effektiv şəkildə müzakirə etmək iqtidarında olan səlahiyyətli ölkədaxili orqanda şəxslər tərəfindən şikayət edilməli olmasaydı, dövlətin Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsinə

uyğun təntənəli öhdəliyi və bu müddəa ilə təmin edilən fərdi hüquqlar aldadıcı olardı (baxın, “Namət Əliyev Azərbaycana qarşı” iş üzrə Avropa Məhkəməsinin Qərarı).

70. Avropa Məhkəməsi həm də seçki idarəçiliyinə görə cavabdeh olan hakimiyyət orqanlarının şəffaf fəaliyyət göstərməsinin və qərəzsizliyi və siyasi manipulyasiyalardan asılı olmamanı təmin etmələrinin vacibliyini (baxın, “Gürcüstan əmək partiyasının Gürcüstana qarşı” (Georgian Labour Party v. Georgia) iş üzrə Avropa Məhkəməsinin Qərarı, şikayət № 9103/04, § 101, ECHR 2008), onların qərarlarının isə kifayət qədər əsaslandırılmasını qeyd etmişdir (baxın, yuxarıda adı çəkilən “Namət Əliyev Azərbaycana qarşı” iş üzrə Avropa Məhkəməsinin Qərarı).

(b) Yuxarıda ifadə edilənlərin: prinsiplərin hazırkı işdə tətbiq olunması

71. Hazırkı işdə Avropa Məhkəməsi nəzərə alır ki, ərizəçilər seçki günü onların seçki dairəsində baş verməsi təxmin edilən seçki qanunvericiliyinin çoxsaylı pozuntularından şikayət etmişdir. Onlar iddia etmişdir ki, pozuntular və onlara adekvat baxılmasından ölkədaxili qüvvələrin boyun qaçırması nəticəsində onların dairəsində seçkilər azad və demokratik olmamışdır və seçkilərin rəsmi nəticələri seçicilərin real seçimini əks etdirməmişdir.

72. Ərizəçilərin ehtimal olunan konkret pozuntu halları ilə bağlı tələblərinə gəldikdə, Avropa Məhkəməsi, ərizəçilərin təqdim etdiyi, müşahidəçilərin izahatlarından ibarət bu növdə olan məlumatlardan fərqli olaraq, ehtimal olunan bütün bu pozuntuların və ya bir sıra pozuntuların baş verib-verмədiyini, əgər baş vermişsə, onların azadlığa mane ola biləcək pozuntuları təşkil etdiyini müəyyən etməyə çalışaraq, faktları müəyyən etmə funksiyasını qəbul edə bilməz.

84. Bundan əlavə, MSK istənilən pozuntunu inkar edən və adı çəkilməyən MnSK üzvlərinin bəzi izahatlarına istinad etmişdir (baxın, hazırkı Qərar, § 25). Bir halda ki, ərizəçilərin variantları seçki pozuntuları ilə bağlı məsələlərdə MnSK-nın vəzifəli şəxslərini potensial olaraq məsuliyyətə cəlb edə bilər, onların istənilən hərəkəti inkar etməsi təəccüblü deyildir. Bu səbəbdən Avropa Məhkəməsi ərizəçilərin iddialarının faktiki dəqiqliyi müəyyən edilərkən belə izahatların hazırkı işdə xüsusi faydasının olacağına əmin deyildi (müqayisə üçün "Namət Əliyev Azərbaycana qarşı" iş üzrə Avropa Məhkəməsinin yuxarıda adı çəkilən Qərarına baxın, § 83).

85. Yuxarıda xatırladılan nöqsanlar ölkədaxili orqanlar tərəfindən aradan qaldırılmamışdır. Bakı appelyasiya məhkəməsi MSK-nın nəticələrini sadəcə olaraq təkrarladı və dəstəklədi və irəli sürülən dəlillərin müstəqil araşdırmasını aparmadan və MSK prosedurunun nöqsanlarına dair ərizəçilərin şikayətlərini yoxlamadan onun dəlilini təkrar etdi.

86. Avropa Məhkəməsinə olunan şikayətə gəldikdə isə, o, ərizəçilər tərəfindən şikayətlərin Ali məhkəməyə verilməsi üçün qanunla ayrılan müddət hələ bitmədiyi halda, seçkilərin ümummilli nəticələrini təsdiq etmiş Konstitusiya məhkəməsinin hərəkətləri ilə effektivliyini itirmişdi. Ali məhkəmənin etirafına görə, ərizəçinin dairəsində seçkilərin nəticələrinə təsir edəcək qərar qəbul edə bilməmişdir, çünki onlar yekun nəticə kimi Konstitusiya məhkəməsi tərəfindən təsdiq edilmişdir. Bu vəziyyətin nəticəsi ondan ibarət olmuşdur ki, ərizəçilər seçki hüquqlarının ehtimal olunan pozuntularına görə xüsusi olaraq seçki mübahisələrinin həll edilməsi üçün nəzərdə tutulmuş mövcud şikayət sistemi çərçivəsində əvəzinin ödənilməsinə nail olmağa davam etdiyi halda, ölkədaxili hüquq sistemi Konstitusiya məhkəməsinə bütün seçki prosedurunu, o cümlədən seçkilərin nəticələrini tamamlamağa imkan vermişdi. Konstitusiya məhkəməsinin qərarı ərizəçilər üçün əlçatan olan hüquq müdafiəsi vasitəsini istənilən uğur perspektivindən məhrum etmiş və seçkilərlə bağlı olan fərdi şikayətlərə baxılması sistemini bütövlükdə ərizəçilərin işində faydasız və aldadıcı etmişdir. Bundan əlavə, davam edən araşdırmaların nəticəsi ümumilikdə parlament seçkilərinin ümumi qiymətləndirilməsi üçün vacib olmadığı kimi, seçki prosedurunun ədalətli olmasını və bəzi dairələrdə seçkilərin nəticələrinin qanuniliyini mübahisə edən bir sıra fərdi

şikayətlərin mövcud olması barədə məlumatlılığa baxmayaraq, Konstitusiya məhkəməsi seçkilərin ümummilli nəticələrini qanuni olduğunu təsdiq etmişdir.

87. Avropa məhkəməsi yuxarıda qeyd edilənlərə əsaslanaraq hesab edir ki, hazırkı işdə seçki komissiyalarının və məhkəmələrin, o cümlədən Konstitusiya məhkəməsinin davranışı və onların müvafiq qərarları seçkilərin nəticələrinin saxtalaşdırılması ilə bağlı ehtimal olunan hallarla mübarizə üçün və ərizəçilərin passiv seçki hüququnun qorunması üçün real səy göstərilməsinin açıq-aşkar olmadığını göstərir. Ərizəçilərin seçki pozuntuları ilə bağlı ciddi və sübut olunan şikayətlərinə ölkədaxili səviyyədə effektiv baxılmamışdır. Ərizəçilər üçün əlçatan olduğu və onların seçdiyi əvəzini ödəmə üsulu ərizəçilərin şikayətlərinə hələ baxıldığı halda seçkilərin nəticələrinin vaxtından əvvəl Konstitusiya məhkəməsi tərəfindən yekun nəticə kimi təsdiq edilməsinin faydasız nəticəsi olmuşdur.

88. Müvafiq olaraq, Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsi pozulmuşdur.

II. KONVENSİYANIN 14-CÜ MADDƏSİNİN EHTİMAL OLUNAN POZUNTUSU

89. Ərizəçilər yuxarıda qeyd edilən şikayətlə qarşılıqlı olaraq müxalif partiyaların irəli sürdüyü namizədlərin də onlar kimi bütün dövlət icra hakimiyyəti orqanları, seçki komissiyaları, məhkəmələr və hökumətin nəzarəti altında olan kütləvi informasiya vasitələri tərəfindən bütün seçki prosesi ərzində müxtəlif vasitələrlə ayrı-seçkiliyə məruz qalmasından şikayət etmişdir. Onlar Konvensiyanın aşağıdakıları nəzərdə tutan 14-cü maddəsinə istinad etmişdir: "...Konvensiyada təsbit olunmuş

hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır".

90. Avropa Məhkəməsi qeyd edir ki, bu hissədə şikayət qabaqcadan baxılan şikayətlə əlaqəlidir və buna görə də mahiyyəti üzrə baxılması üçün məqbul elan edilməlidir.

91. Lakin Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsinin kontekstində çıxarılan nəticəni nəzərə alaraq, Avropa Məhkəməsi hesab edir ki, hazırkı işdə Konvensiyanın 14-cü maddəsinin tələblərinin pozulması barədə məsələyə baxılması zərurəti yoxdur.

III. KONVENSİYANIN 41-Cİ MADDƏSİİN TƏTBİQ EDİLMƏSİ

92. Konvensiyanın 41-ci maddəsində deyilir:

"Əgər Avropa Məhkəməsi Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir".

A. ZƏRƏR

I. Maddi zərər

93. Ərizəçilər onların seçki kampaniyaları ilə bağlı müxtəlif xərclərə münasibətdə hər

birinin xeyrinə 30 000 avro tələb etdilər.

94. Azərbaycan hakimiyyəti iddia etdi ki, göstərilən maddi zərərlə Konvensiyanın ehtimal

edilən pozuntuları arasında səbəb-nəticə əlaqəsi yoxdur.

95. Avropa Məhkəməsi qeyd edir ki, ərizəçilərin tələbləri geniş bölgüdə ifadə edilməmişdir və sübutlarla təsbit edilməmişdir. İstənilən halda o müəyyən edilən pozuntularla ehtimal olunan maddi zərər arasında səbəb-nəticə əlaqəsini nəzərdə tutur, müvafiq olaraq, tələbi rədd edir.

2. Mənəvi zərər

96. Ərizəçilər seçki hüquqları pozulmaqla onlara vurulan mənəvi zərərə görə təzminat

qismində 100 000 avro tələb etdilər.

94. Azərbaycan hakimiyyəti iddia etdi ki, tələb olunan məbləğ həddindən artıqdır və əvvəllər baxılan Azərbaycana qarşı müqayisə edilə bilən aktlarda mənəvi zərərin əvəzinin ödənilməsi 7 500 avronu aşmadığını vurğuladı.

95. Avropa Məhkəməsi, göstərilən halları ədalətli əsaslarda qiymətləndirməklə, mənəvi təzminat qismində hər bir ərizəçiyə 10 000 avro, habelə göstərilən məbləğə hesablanan istənilən vergini təyin edir.

B. MƏHKƏMƏ XƏRCLƏRİ VƏ MƏSRƏFLƏR

99. Ərizəçilər ölkədaxili araşdırmada və işin Avropa məhkəməsində araşdırılmasında çəkilən hüquqi xərclərin əvəzinin ödənilməsi üçün birlikdə 2 000 avro tələb etdilər. Bu tələbə dəstək olaraq onlar vəkilləri H. Həsənovla olan müqavilələrini təqdim etdilər.

100. Azərbaycan hakimiyyəti qeyd etdi ki, yuxarıda adı çəkilən müqavilə ölkədaxili araşdırmada təmsilçiliyə görə hüquqi qonorarı nəzərdə tutsa da, Həsənov faktiki olaraq

ərizəçiləri yalnız ölkədaxili araşdırmada, Avropa məhkəməsində təmsil etmişdir. Burdan irəli gələrək Azərbaycan hakimiyyəti Avropa məhkəməsindən tələblərin ölkədaxili araşdırmada çəkilən hüquqi xərclərlə bağlı olan həmin hissəsinin rədd edilməsini xahiş etmişdir.

101. Avropa Məhkəməsinin əvvəlki təcrübəsinə uyğun olaraq ərizəçi xərc və məsrəfləri həqiqətən çəkilməsi, geri qaytarılması və həcminin ağlabatan olması baxımından geri qaytarmaq hüququna malikdir. Avropa Məhkəməsi hazırkı işdə qeyd edir ki, H. Həsənovun ölkədaxili araşdırmada ərizəçilərin maraqlarını təmsil etdiyi sübut olunmamışdır. Avropa Məhkəməsi təqdim edilən sənədləri nəzərə almaqla ölkədaxili araşdırmalarda çəkilən xərclərin və məsrəflərin əvəzinin ödənilməsi ilə bağlı tələbi rədd edir və Avropa Məhkəməsində araşdırma zamanı çəkilən xərclərin əvəzinin ödənilməsi hesabına hər üç ərizəçiyə birlikdə 850 avro verilməsini ədalətli hesab edir.

C. ÖDƏMƏNİN GECİKDİRİLƏCƏYİ HALDA FAİZ DƏRƏCƏSİ

102. Avropa Məhkəməsi hesab edir ki, ödənişlərin gecikdirilməsi zamanı faiz dərəcəsi

Avropa Mərkəzi Bankının son kredit dərəcəsi üstəgəl üç faiz müəyyən olunmalıdır.

Şərh olunanlara əsasən Məhkəmə yekdilliklə:

1) mahiyyəti üzrə baxılması üçün şikayəti qəbul edilən elan etdi;

2) qərara aldı ki, Konvensiyaya 1 №-li Protokolun 3-cü maddəsi pozulmuşdur;

3) qərara aldı ki, şikayətə Konvensiyanın 14-cü maddəsi əsasında baxılması zərurəti yoxdur;

4) qərara aldı ki:

(a) a) cavabdeh dövlət bu qərarın qüvvəyə mindiyi gündən sonrakı üç ay ərzində

Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə müvafiq olaraq ərizəçiyə ödəniş gününə müəyyən olunmuş məzənnə ilə yeni manata çevirməklə aşağıda göstərilən pul məbləğlərini ödəməlidir:

(i) mənəvi zərərin əvəzlənməsi qismində hər bir ərizəçinin xeyrinə 10 000 avro (on min

avro), habelə həmin məbləğə hesablanan hər cür vergilər;

(ii) hər üç ərizəçiyə birlikdə məhkəmə xərclərinin və məsrəflərin əvəzlənməsi qismində 850 avro (səkkiz yüz əlli avro), habelə göstərilən məbləğlə bağlı olaraq ödənilməsi vəzifə olaraq ərizəçilərə həvalə edilə biləcək hər cür vergilər;

(b) b) göstərilən üç aylıq müddətin sona çatdığı tarixdən ödənilmə anınadək həmin

məbləğlərin üzərinə həcmi ödənilmədiyi dövrdə qüvvədə olan Avropa Mərkəzi Bankının son faiz dərəcəsi ilə müəyyən edilən sadə faizlər, üstəgəl üç faiz hesablanmalıdır;

5) ərizəçilərin ədalətli təzminatla bağlı tələblərinin qalan hissəsini rədd etdi.

AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

BİRİNCİ BÖLMƏ

QASIMLI VƏ DİGƏRLƏRİ AZƏRBAYCANA QARŞI

(ərizələrin nömrələri 25330/11, 25340/11 25345/11, 25361/11 və 25645/11)

QƏRAR

Strasburq, 8 oktyabr 2015-ci il

YEKUN

17 dekabr 2016-ci il

Bu qərar qəti olacaq. O, redaktə oluna bilər.

Qasımlı və digərləri Azərbaycana qarşı işdə Avropa İnsan Hüquqları Məhkəməsi (Birinci Bölmə) Palata qismində aşağıdakı tərkibdə
Faris Vehabovic, Prezident
Elizabet Steyner
Xanlar Hacıyev,
Karlo Ranzoni, hakimlər,
və Milan Blaşko, Bölmə Katibinin müavini,

1. Dekabr 2015-ci ildə qapalı müşavirə keçirərək, həmin tarixdə bu qərarı qəbul edir:

PROSEDUR

1. Hazırki iş (nos. 25330/11, 25340/11, 25345/11, 25361/11 və 25645/11) "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ("Konvensiya") 34-cü maddəsinə əsasən Azərbaycan Respublikasının beş vətəndaşı cənab Əli Salah oğlu Qasımlı, cənab Təzəxan Məhərrəm oğlu Mirələmli, cənab Pərviz Kamran oğlu Həşimov, cənab Natiq Mehman oğlu Cəfərov və cənab Eyyub Umud oğlu Umudov ("Ərizəçilər") Azərbaycan Respublikasına qarşı 2011-ci ilin müxtəlif tarixlərində verilmiş ərizələr əsasında başlanmışdır.

2. Ərizəçiləri Azərbaycanda işləyən hüquqşünas cənab H.Həsənov tərəfindən təmsil olunmuşdur. Azərbaycan Hökuməti ("Hökumət") nümayəndəsi cənab Ç. Əsgərov tərəfindən təmsil olunmuşdur.

3. 24 iyun 2013-cü ildə şikayətlər Hökumətlə kommunikasiya edildi.

FAKTLAR
I. İŞİN HALLARI

4. Ərizəçilərin doğum tarixləri və yerləri barədə məlumat Əlavədə verilib.

5. Ərizəçilər 7 noyabr 2010-cü ildə keçirilən parlament seçkilərində müxalifət namizədləri olaraq müxtəlif bir mandatlı seçki dairəsi üzrə namizəd olmuşlar. Cənab Natiq Cəfərli (Ərizə nömrəsi 25236/11) öz namizədliyini irəli sürmüş, cənab Əli Qasımli, Təzəxan Mirələmli, Pərviz Həşimov və cənab Eyyub Umudov (müvafiq olaraq ərizə nömrələri 25330/11, 25340/11, 25345/11 and 25645/11) AXCP-Müvafat seçki blokundan irəli sürülmüş namizədlər olmuşdur.

6. Seçki Məcəlləsinin tələb etdiyi kimi hər bir namizədin parlament seçkilərində qeydiyyatının müdafiəsi üçün 450 seçici imzası tələb olunur, namizədlər namizədliklərinin müdafiəsi üçün imza vərəqlərində 450 seçici imzasından çox imzanı müvafiq Dairə Seçki Komissiyalarına ("DSK") təqdim etmişdirlər.

7. DSK-nın namizədlərin qeydiyyatına dair qərarından əvvəl təqdim edilmiş imza vərəqələri və digər sənədlərin yoxlanılması üçün DSK tərəfindən yaradılmış işçi qrupda yoxlanılması həyata keçirilmişdir. Namizədlərdən heç biri imza vərəqələrinin DSK-nın işçi qrupunda yoxlanılması porsesinə dəvət edilməmişdirlər.

8. DSK işçi qrupları bəzi seçici imzalarının etibarsız olduğunu və yerdə qalan etibarlı imzaların 450-dən az olduğunu müəyyən etdikdən sonra, müxtəlif tarixlərdə (Əlavələrə bax) DSK-lar ərizəçilərin namizəd kimi qeydiyyata alınmaq barədə xahişlərini rədd edən qərarlar qəbul etmişlər. Hər işdə, imzalar bir sıra əsaslarla etibarsız hesab edilmişdir ki, bunlara da aşağıdakılar daxildir: (a) saxta və ya təkrar imzalar ("başqa fərdlərin adı ilə imza vərəqlərini imzalamış eyni fərdlər tərəfindən təkrar-təkrar verilmiş imzalar"); (b) seçicilər haqqında məlumatların (doğum günü, şəxsiyyət vəsiqəsinin nömrəsi və sair) yanlış olması; (c) şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitmiş şəxslər tərəfindən verilmiş imzalar; (d) həmin seçki dairəsindən kənarda qeydiyyatda olan seçicilərə məxsus olan imzalar; (e) imza vərəqlərində təsdiq edilməmiş düzəlişlərin olması; (f) "aldadıcı yollar ilə" əldə olunduğu iddia edilən imzalar; və (g) izah edilməyən "digər əsaslar".

9. Ərizəçilərdən heç biri onların qeydiyyata alınmaq üçün xahişlərinin rədd edilməsi barədə qərarların verildiyi DSK iclaslarına dəvət edilməmişdir. Hər işdə, qanunun tələblərinə zidd olaraq, işçi qrupların bütün əlaqədar sənədləri (ekspert rəyləri, iclasların protokolları, yoxlamaların nəticələrini əks etdirən qeydlər və cədvəllər), həmçinin DSK qərarının özü, yalnız ərizəçilərin qeydiyyata alınmasını rədd edən qərar qəbul olunduqdan sonra onlara təqdim edilmişdir. Bir çox hallarda, bəzi sənədlər ərizəçilərə heç vaxt verilməmiş, yaxud da çox gec, Bakı Apellyasiya Məhkəməsindəki məhkəmə prosesi əsnasında onlara təqdim edilmişdir.

10. Hər bir ərizəçi DSK qərarlarına qarşı Mərkəzi Seçki Komissiyasına ("MSK") şikayət vermişdir. Onlar aşağıda qeyd olunanların bəziləri və ya hamısı haqqında şikayət etmişlər:

(a) belə çox sayda imzanın etibarsız olması barədə DSK işçi qruplarının tapıntıları faktiki baxımdan yanlış, əsaslandırılmamış və özbaşına olmuşdur. Bu cür fakt tapıntılarının bəziləri sadəcə həmin seçici ilə əlaqə saxlayıb, onun imzasının həqiqi olub-olmadığını təsdiq etmək yolu ilə asanlıqla təkzib edilə bilərdi. Ancaq DSK-lar hər hansı bir etibarlı dəlil ilə, məsələn, imzalarının yanlış olduğuna şübhə edilən bir qrup seçici arasından təsadüfi seçim yolu ilə bir neçə nəfəri seçib, onları sorğu-sual etməklə, öz tapıntılarının doğru olduğunu təsdiq etmək üçün heç bir addım atmamışlar. DSK işçi qruplarının üzvləri arasında əl yazısı üzrə heç bir mütəxəssis olmamışdır və ona görə də, bəzi imzaların həqiqi olub-olmadığı haqqında onların tapıntıları olduqca subyektiv və özbaşına xarakter daşımışdır;

(b) imzaların etibarsız olduğunu bildirən DSK qərarları özbaşına olmuş və qanunun fundamental və prosessual tələblərini pozmaqla qəbul edilmişdir. Ərizəçilər Seçki Məcəlləsinin müxtəlif müddəalarına istinad edərək iddia etmişlər ki, imza vərəqlərindəki qəsdən edilməyən və düzəldilə bilən səhvlər hər hansı bir seçicinin imzasını etibarsız hesab etmək üçün səbəb ola bilməzdi. Əgər tapılmış səhvlər lazımi düzəlişlər edilməklə aradan qaldırıla bilərdisə, Seçki Məcəlləsinin tələblərinə görə, DSK iyirmi dörd saat ərzində həmin namizədə bu barədə xəbər verməli və onun namizəd kimi qeydə alınıb-alınmamasına dair qərar qəbul etməzdən əvvəl, sənədlərdə düzəlişlər etmək üçün ona imkan verməli idi. Lakin, ərizəçilərdən hər birinin işində, DSK-lar namizədlərə əvvəlcədən məlumat vermədən və lazımi düzəlişləri etmək üçün onlara imkan yaratmadan, asanlıqla düzəldilə biləcək səhvləri əsas gətirərək, çox sayda imzanın etibarsız olduğunu elan etmişdir;

(c) DSK-ların izlədiyi prosedur həmçinin Seçki Məcəlləsinin digər tələblərini də pozmuşdur. 59.3-cü Maddənin tələblərinə zidd olaraq, imza vərəqlərinin yoxlanılmasının vaxtı və yeri barədə ərizəçilərə əvvəlcədən məlumat verilməmişdir və onların bu prosesdə iştirakı təmin olunmamışdır. Həmçinin, Seçki Məcəlləsinin 59.13-cü Maddəsinə zidd olaraq, ərizəçilərin namizəd kimi qeydiyyata alınmaq barədə xahişlərinə baxılan DSK iclaslarından ən az iyirmi dörd saat əvvəl, imza vərəqlərinin etibarlı olub-olmadığına dair yoxlamaların protokollarının bir nüsxəsi onlara təqdim edilməmişdir. Nəticə etibarilə, ərizəçilərdən heç biri DSK iclaslarına dəvət olunmamışdır ki, bu da onları öz mövqelərini müdafiə etmək imkanından məhrum etmişdir;

(d) imzaları etibarsız saymaq üçün göstərilən bəzi əsaslar qanunla təsbit olunmamışdır və buna görə də, imzaları həmin əsaslarla etibarsız elan etmək qeyri-qanuni olmuşdur. Məsələn, Seçki Məcəlləsi icazə vermir ki, sadəcə seçicinin şəxsiyyətini təsdiq edən sənədin etibarlılıq müddəti yaxın zamanlarda başa catdığına görə onun imzası etibarsız hesab olunsun. Buna bənzər olaraq, qeyri-müəyyən və izah edilməyən "digər əsaslarla" imzaları etibarsız hesab etmək də qeyri-qanuni olmuşdur, çünki Seçki Məcəlləsi imzaları etibarsız elan etmək üçün açıq-aydın əsasların müfəssəl siyahısını müəyyən etmişdir və seçki komissiyalarına bu məqsədlə hər hansı digər əsaslar müəyyən etmək üçün heç bir mülahizə səlahiyyəti verməmişdir;

(e) bəzi hallarda, müxtəlif yerli dövlət rəsmiləri və polis məmurları seçicilərin "hiylə yolu ilə" aldadılaraq namizədin xeyrinə imza verdiyini əsas gətirərək, öz imzalarını "geri götürmələri" üçün seçicilərə və ya imza toplayanlara qanunsuz təzyiqlər göstərmişlər.

11. Ərizəçilərdən bəziləri MSK-ya təqdim etdikləri şikayətlərinə bir sıra seçicilər tərəfindən öz imzalarının həqiqi olduğunu təsdiq edən aktlar da əlavə etmişlər. Lakin həmin aktlar MSK tərəfindən nəzərə alınmamışdır.

12. MSK öz işçi qrupunun üzvləri tərəfindən imza vərəqlərinin yoxlanılması üçün başqa bir yoxlama təşkil etmişdir. Ərizəçilərdən heç biri həmin yoxlama prosesində iştirak etmək üçün dəvət olunmamışdır. Hər işdə, MSK-nın işçi qrupu çoxlu sayda imzanın etibarsız olduğunu və yerdə qalan etibarlı imzaların sayının qanunla tələb olunan minimumdan aşağı olduğunu müəyyən etmişdir.

13. Hər işdə, MSK-nın işçi qrupu tərəfindən etibarsız olduğu müəyyən edilən imzaların sayı müvafiq DSK-nın işçi qrupu tərəfindən verilən rəqəmlərdən fərqlənmişdir, çox vaxt bu rəqəmlər əhəmiyyətli dərəcədə fərqli olmuşdur. Bundan əlavə, demək olar ki hər bir işdə, MSK tərəfindən imzaların etibarsız elan edilməsi üçün gətirilən əsaslar ilə eyni imza vərəqləri üçün DSK-nın göstərdiyi əsaslar bir-birindən fərqli olmuşdur. Əksər hallarda, ümumi imzaların müəyyən qədəri həm də bu əsasla etibarsız hesab edilmişdir ki, onlar saxta "görünür", yəni, "ehtimal ki, eyni şəxs tərəfindən icra olunmuşdur".

14. Müxtəlif tarixlərdə, MSK da həmçiin namizədlərin şikayətlərini rədd etmişdir (bax Əlavəyə). Heç bir Ərizəçi şikayətlərinin MSK-da araşdırılmasına dəvət edilməmişdir. Bundan başqa, hər bir işdə MSK-nın sənədlərini (işçi qrupun sənədləri də daxil olmaqla) MSK-nın qərarının qəbulundan sonra Ərizəçilər əldə edə bilmişdir, lakin bəzi işlərdə belə sənədlər Ərizəçilərə ümumiyyətlə verilməmiş və ya məhkəmə prosesində Ərizəçilər üçün əlçatan olmuşdur.

15. Müxtəlif tarixlərdə hər bir Ərizəçi seçki komissiyalarının qərarlarından Bakı Apellyasiya Məhkəməsinə şikayət etmişdir. Onlar şikayətlərində MSK və DSK qərarlarını və prosedurlarını mübahisələndirmişlər. Onlar həmçinin MSK-nın qərar və prosedurlarındakı aşağıdakı məsələləri qaldırmışlar:

(a) seçki qanunvericiliyinin tələblərinə zidd olaraq, MSK Ərizəçiləri onun iclası barədə məlumatdırmamış və imza vərəqələri və şikayətlərin araşdırılmasında onların iştirakını təmin etməmişdir;

(b) seçki qanunvericiliyinin tələblərinə zidd olaraq, MSK-nın müvafiq sənədləri onlar üçün əlçatan olmamış, bununla da

onlar MSK-nın qərarlarının effektiv mübahisələndirilməsi imkanından məhrum edilmişdirlər;

(c) seçki komissiyalarının qərarları ehtimal və spekluasiyaya istinad edən ekspert rəylərinə əsaslanmış, heç bir müvafiq faktlara istinad olmamışdır;

(d) bəzi işlərdə Ərizəçilər öz şikayətlərini müdafiə edən əlavə sənədlər təqdim etmişlər, həmin sənədlər MSK tərəfindən rədd edilmiş və nəzərə alınmamışdır.

16. Yerli qanunvericiliyin müxtəlif müddəalarına və birbaşa Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinə istinadən Ərizəçilər onların seçkilərdə iştirak hüquqlarının pozulmasını iddia etmişlər.

17. Müxtəlif tarixlərdə (bax Əlavə), Bakı Apellyasiya Məhkəməsi Ərizəçilərin şikayətlərini onların əsaslarının uyğunsuz və əsassız olmağını əsas gətirərək təmin etməmiş və MSK-nın qərarlarının ləğvi üçün əsas olmadığını bildirmişdir.

18. Ərizəçilər Ali Məhkəməyə kassasiya şikayətləri vermiş və əvvəlki şikayətlərinin və əsaslarının Bakı Apellyasiya Məhkəməsi tərəfindən ədalətli araşdırılmamasını və nəticədə əsassız qərar qəbul edilməsini qeyd etmişlər.

19. Müxtəlif tarixlərdə (bax Əlavə), Ali Məhkəmə heç bir araşdırma aparmadan ərizəçilərin şikayətlərinin əsassız olması, seçki komissiyaları və Bakı Apellyasiya Məhkəməsinin qərarlarının ləğv edilməsi üçün əsas olmamasını göstərmişdir.

II. MÜVAFİQ YERLİ QANUNVERİCİLİK VƏ BEYNƏLXALQ SƏNƏDLƏR

20. Namizədlərin qeydiyyatına dair müvafiq yerli qanunvericilik və beynəlxalq sənədlər həmçinin 2010-cu Azərbaycan Parlament seçkilərində aparılmış müşahidəçilik ilə bağlı hallar Tahirov Azərbaycana qarşı işdə (no. 31953/11, §§ 23-31, 11 iyun 2015) qeyd edilmişdir.

HÜQUQ

I. ƏRİZƏLƏRİN BİRLƏŞDİRİLMƏSİ

21. Ərizələrdə eyni faktiki və hüquqi məsələlərin olmasını nəzərə alaraq Məhkəmə qərara alır ki, onlar Məhkəmə Qaydalarının 42-ci Qaydasının 1-ci hissəsinə uyğun olaraq birləşdirilməlidir..

II. HÖKUMƏTİN ƏRİZƏLƏRİN KONVENSİYANIN 37-Cİ MADDƏSİNƏ ƏSASƏN SİYAHIDAN ÇIXARILMASINA DAİR XAHİŞİ

22. 16 sentyabr 2014 Hökumət hazırki ərizələrdə göstərilən məsələlərin həllinə dair bitərəfli bəyanat təqdim etmişdir. Onlar sonradan Məhkəmə tərəfindən Konvensiyanın 37-ci maddəsinə əsasən şikayətin siyahıdan çıxarılmasını xahiş etmişlər.

23. Ərizəçilər bitərəfli bəyanatın şərtləri ilə razı olmayaraq Məhkəmədən şikayətin araşdırılmasının davam etdirilməsini xahiş etmişdir.

24. Hökumətin bitərəfli bəyanatının şərtləri ilə tanış olaraq Məhkəmə hesab edir ki, Tahirov qərarında qeyd edilən səbəblərin hazırki işlərə aid edilir və Məhkəmə hesab edir ki, təklif edilən bəyanat Konvensiyanın və ona dair Protokolların

müddəalarında müəyyən edilən insan hüquqlarına riayət olunmasını təmin etmir, ona görədə işi araşdırmağa davam edir.

25. Buna görə də, Məhkəmə Hökumətin ərizələri işlərin siyahıdan çıxarılması ilə bağlı Konvensiyanın 37-ci maddəsinə əsasən çıxarılmasına dair xahişi rədd edir və işi müvafiq olaraq qəbuledilənlik və mahiyyəti üzrə araşdırmağa davam edir.

III. KONVENSİYAYA DAİR 1 №-Lİ PROTOKOLUN 3-CÜ MADDƏSİNİN İDDİA OLUNAN POZUNTUSU

26. Ərizəçilər Konvensiyaya 1 №-li Protokolun 3-cü Maddəsinə və Konvensiyanın 13-cü Maddəsinə əsaslanaraq şikayət etmişlər ki, onların seçkilərdə iştirak etmək hüququ pozulmuş çünki onların namizədlikləri əsassız olaraq qeydiyyata alınmamışdır. Məhkəmə hazırkı işin xüsusi cəhətlərini nəzərə alaraq hesab edir ki, şikayət yalnız Konvensiyaya 1 №-li Protokolun 3-cü Maddəsi (müqayisə Namət Əliyev Azərbaycana qarşı iş, Ərizə 18705/06, § 57, 8 aprel 2010) əsasında araşdırılmalıdır və 13-cü Maddə əsasında ayrıca araşdırmaya ehtiyac yoxdur. 1 №-li Protokolun 3-cü Maddəsində deyilir:

“Razılığa gələn Yüksək Tərəflər qanunverici hakimiyyət orqanını seçərkən xalqın iradəsini sərbəst ifadə edə biləcəyi şəraitdə ağlabatan dövriliklə, gizli səsvermə yolu ilə, azad seçkilər keçirməyi öhdələrinə götürürlər.”

A. QƏBULEDİLƏNLİK

27. Məhkəmə qeyd edir ki, şikayət Konvensiyanın 35 § 3 (a) Maddəsinin mənası daxilində açıq-aydın əsassız deyildir. O,

həmçinin qeyd edir ki, şikayət başqa heç bir əsasla da qəbuledilməz deyil. Ona görə də, o, mümkün sayılmalıdır.

B. İşin Mahiyyəti

1. Tərəflərin arqumentləri

28. Ərizəçilər iddia etmişlər ki, Seçki Məcəlləsinin 59.3-cü maddəsinə zidd olaraq DSK-nın işçi qrupunun iclası barədə əvvəlcədən məlumatdırılmamışlar və onlara iclasda iştirak imkanı yaradılmamışdır. Seçki Məcəlləsinin 59.13-cü maddəsinə zidd olaraq, imza vərəqlərinin yoxlanılmasına dair işçi qrupun müvafiq sənədləri DSK-nın onların qeydiyyatına dair yekun qərarlarından əvvəl onlara verilməmişdir. Buna görə də onlar işçi qrupuna zəruri izahatların verilməsi imkanından məhrum edilmiş və işçi qrupu tərəfindən müvafiq imzalar şübhəli və ehtimal olunan hesab edilmişdir.

29. Ərizəçilər hesab edir ki, ən vacibi seçki komissiyaları tərəfindən onların imzalarının bir hissəsinin müxtəlif əsassız səbəblərdən düzgün və saxta hesab edilməsidir. İşçi qruplarının bəzi nəticələri tamamilə səhv olmuş və onlar asanlıqla sadəcə seçicilər ilə əlaqə saxlamaqla onlara suallar verə və onların imzalarının təsdiqi araşdıra bilərdirlər. Xüsusilə seçki komissiyaları və onları ekspertləri tərəfindən seçici imzalarının necə etibarsız etdikləri aydın deyildir. Ekspertlər arasında xəttşünaslıq mütəxəssisi olmamış və buna görə də böyük sayda imzaların yoxlanılması və qərar qəbul edilməsi subyektiv və əsassız olmuşdur. Lakin seçki komissiyaları əlavə olaraq araşdırma aparmadan işçi qrupların ekspertlərinin rəyinə əsaslanmışdırlar.

30. Bundan sonra Ərizəçilər qeyd etmişlər ki, onların MSK və yerli məhkəmələrə şikayətləri qərəzli olaraq araşdırılmış və onların arqumentləri nəzərə alınmamışdır.

31. Hökumət qeyd etmişdir ki, I saylı Protokolun 3-cü maddəsi çərçivəsində seçki hüquqlarının həyata keçirilməsi zamanı Tərəf Dövlətlərin mülahizə sərbəstliyi vardır. Bir namizədin müdafiəsi üçün ən azı 450 imza toplamaq tələb kənar namizədlərin sayının azaldılması və seçicilərin arasında qeydə alınmış namizədlərin siyahıları qarşılıqlığın aradan qaldırılması kimi bir qanuni məqsəd daşıyır.

32. Hökumət iddia etmişdir ki, daxili seçki qanunu namizədlərin qeydiyyatından imtinanın qarşısının alınması üçün kifayət qədər təminatlar ilə təmin edilmişdir. Birinci imza vərəqələri Seçki Məcəlləsinin 59.2-ci maddəsinə uyğun olaraq seçki komissiyaları tərəfindən yaradılmış işçi qruplar tərəfindən araşdırılmışdır. İşçi qrupları müvafiq dövlət qurumları xüsusi ilə də Ədliyyə Nazirliyi Ekspertiza Mərkəzi, Daxili İşlər Nazirliyi, Daşınmaz Əmlakın Dövlət Reyestri və digər qurumların ekspert və mütəxəssislərindən ibarət olmuşdur. Onlar işçi qrupun üzvü kimi vəzifəsinin icrasına başlamamışdan əvvə "bu sahə kifayət qədər bilik və təcrübəyə sahib" ekspertlər tərəfindən təlimləndirilmişlər. İkincisi, seçki qanunvericiliyi tələb edir ki, işçi qrupların iclasları ictimaiyyətə açıqdır, namizədlikləri irəli sürülmüş şəxslər əgər istəyirlərsə onların orada iştirak imkanları vardır və işçi qrupların imzaların yoxlanılmasına dair yekun sənədləri müvafiq seçki komissiyalarının iclaslarından 24 saat əvvəl namizədlər üçün əlçatandır. Üçüncüsü, qanun tələb edir ki, işçi qrup imzaların etibarsızlığın əsaslarını qeyd edir. Dördüncüsü, namizədin hüququ var ki, qeydiyyatdan imtinaya dair qərardan MSK və

məhkəmələrə müraciət etsinlər. Yuxarıda göstərilənlər namizədlərin qeydiyyatından əsassız imtina edilməsinin qarşısının alınması üçün formalaşdırılmışdır.

33. Hökumət bildirmişdir ki, hazırkı işdə MSK və DSK-nın işçi qrupları namizədlərin müdafiəsi üçün toplanmış imzaların böyük hissəsinin etibarsız hesab edilməsini müəyyən etmişdirlər. Buna görə də qeydiyyatdan imtinaya dair qərarlar əsaslandırılmış, Ərizəçilər isə namizədliklərinin müdafiəsi üçün ən azı 450 etibarlı imzanı təqdim edə bilməmişdirlər.

Bakı Apellyasiya Məhkəməsinə etdikləri etiraz, onlar seçki komissiyalarının işçi qruplarının nəticələri etiraz etdi, ərizəçilər Graphologist tərəfindən ekspertizası ki məhkəmə qərarı tələb etməyib. Həm Bakı Apellyasiya Məhkəməsi və Ali Məhkəmə doğru seçki komissiyalarının işçi qruplarının nəticələri şübhə üçün heç bir əsas yox idi ki, bağlanmış idi. Bakı Apellyasiya Məhkəməsinə şikayətlərində seçki komissiyalarının işçi qruplarının nəticələrini mübahisələndirmişlər lakin onlar məhkəmədən xəttşünaslıq ekspertizanın keçirilməsini xahiş etməmişdirlər. Bakı Apellyasiya Məhkəməsi və Ali Məhkəmə düzgün olaraq seçki komissiyalarının işçi qruplarının qərarlarının mübahisələndirilməsi üçün əsas olmamasını qət etmişdir.

2. Məhkəmənin qiymətləndirməsi

34. Məhkəmə özünün Tahirov işi (yuxarıda qeyd olunub, §§ 53-57) üzrə qərarında qoyduğu presedent hüququnun xülasələrinə istinad edir ki, onlar da eyni dərcədə hazırkı işə tətbiq olunmağa uyğundur.

35. Hazırkı şikayətin məqsədləri baxımından, Məhkəmə Hökumətin rəyi ilə razılaşmağa hazırdır ki, namizədliyin irəli

sürülməsi üçün 450 dəstəkləyici imzanın toplanması tələbi ifrat namizədlərin sayının azaldılması kimi qanuni bir məqsədi güdür.

36. Hazırkı iş üzrə, bu uyğunluq şərtinə riayət olunmasının monitorinqi üçün prosedurların özbaşına qərara qarşı qorunmaq üçün kifayət qədər təminatlar verə biləcək tərzdə həyata keçirilib-keçirilmədiyinə baxılmalıdır.

37. İşin materialları və tərəflərin dəlillərinə diqqət yetirdikdən sonra, Məhkəmə qeyd edir ki, hazırkı iş üzrə qaldırılan məsələlər mahiyyətcə Tahirov işi üzrə qərarda araşdırılmış məsələlərlə eynilik təşkil edir. Tahirov işinin və hazırkı işin faktları əhəmiyyətli dərəcədə bir-birinə bənzəyir. Məhkəmə hesab edir ki, Tahirov işi üzrə qərarda aparılmış təhlil və çıxarılmış nəticələr həmçinin hazırkı işə də şamil oluna bilər. Xüsusilə, Məhkəmə seçki komissiyalarının qərəzsizliyi, onların fəaliyyətində şəffaflığın olmaması və onların prosedurlarındakı müxtəlif çatışmazlıqlar (bax: yenə orada, §§ 60-61); imza vərəqlərini yoxlamaq vəzifəsi həvalə edilmiş işçi qrupu ekspertlərinin təyin olunmasına dair peşəkar kvalifikasiyalar və meyarlar haqqında aydın və yetərli məlumatın olmaması (bax: yenə orada, §§ 63-64); imzaların həqiqi olub-olmaması haqqında ekspert rəylərini təsdiq və ya inkar etmək üçün seçki komissiyaları və məhkəmələr tərəfindən heç bir əlavə araşdırma addımlarının atılmaması (bax: yenə orada, § 65); irəli sürülmüş namizədlərin özbaşına qərarlardan müdafiə olunması üçün müəyyən edilmiş bir sıra hüquqi təminatlara seçki komissiyaları tərəfindən sistematik şəkildə riayət olunmaması (bax: yenə orada, §§ 66-68 və 69); imzaların həqiqi olub-olmadığı barədə işçi qrupu ekspertlərinin tapıntılarına etiraz etmək məqsədilə namizəd tərəfindən təqdim

edilmiş münasib və əhəmiyyətli dəlillərin seçki komissiyaları və məhkəmələr tərəfindən nəzərə alınmaması (bax: yenə orada, § 69); və ölkədaxili məhkəmələrin şikayətlərlə lazımi qaydada mə.ğul olmaması (bax: yenə orada, § 70) haqqında ciddi narahatlığın mövcud olduğunu qeyd etmişdir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, Məhkəmə müəyyən etmişdir ki, praktiki olaraq, Tahirov işində ərizəçiyə onun namizəd kimi qeydiyyata alınmasını rədd edən özbaşına qərarın qarşısını almaq üçün kifayət qədər hüquqi təminat verilməmişdir.

38. Hazırkı işin faktlarını və bu faktlarla Tahirov işinin faktları arasındakı bütün müvafiq və mühüm məqamlarda açıq-aydın bənzərliyi nəzərə alaraq, Məhkəmə özünün həmin qərarındakı tapıntılarından kənara çıxmaq üçün heç bir xüsusi hal görmür və müəyyən edir ki, hazırkı işdə hər bir ərizəçinin seçkilərdə namizəd olmaq hüququ eynən yüxarıda təsvir olunan səbəblərə görə pozulmuşdur.

39. Müvafiq olaraq, burada Konvesiyaya 1 №-li Protokolun 3-cü Maddəsinin pozulması olmuşdur.

II. KONVENSİYANIN 14-CÜ MADDƏSININ İDDİA EDİLƏN POZUNTUSU

40. Ərizəçilər nos. 25330/11, 25340/11, 25345/11 və 25645/11 həmçinin Konvensiyanın 14-cü maddəsinə istinadən yuxarıdakılar ilə birlikdə şikayət etmişlər ki, onların seçki hüquqları qanunsuz və əsassız ölçülərin Hökumət tərəfindən icrası nəticəsində pozulmuş və həmin hərəkətlər siyasi müxalifətin iştirakının məhdudlaşdılması və Hökumətə yaxın namizədlərlə eyni statusa malik olmasından məhrum edilməsi olmuşdur. Maddə 14 qeyd edir ki:

““Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır..

41. Məhkəmə qeyd edir ki, bu şikayət yuxarıda qeyd edilən şikayətlə əlaqəlidir və beləliklə, qəbul edilən hesab edilməlidir.

42. Lakin, 1-ci Protokolun 3-cü maddəsi ilə bağlı yuxarıda qeyd edilən nəticəni nəzərə alaraq, Məhkəmə qərara alır ki, bu işdə 14-cü maddənin pozulub-pozulmamasının müəyyən ediləsinə ehtiyyac yoxdur (müqayisə Tahirov işi, § 75).

V. KONVENSİYANIN 41-Cİ MADDƏSİNİN TƏTBiQİ

43. Konvensiyanin 41-ci maddəsi bunları nəzərdə tutur:

“Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.”

A. Ziyan

44.Ərizəçilər 100000 avro mənəvi ziyan vurulmasını iddia etdi.

45. Ərizəçi 25345/11 ilə bağlı Hökumət qeyd etdi ki, bu tələb həddindən artıqdır və ərizəçiyə 7 500 avro məbləğində mənəvi ziyanın ödənilməsi məqbul hesab etmişdir. Digər dörd Ərizəçi ilə bağlı Hökumət heç bir şərh bildirməmişdir.

46. Ədalətli əsaslarla qərar çıxararaq, Məhkəmə hər ərizəçiyə 10 000 avro məbləğində mənəvi ziyanin ödənilməsi (tələb edilən verginin məbləği əlavə edilərək) qərara alır.

B. Costs and expenses

47. Hər bir Ərizəçi hüquq xidmətinə görə yerli instansiyalar və Məhkəmədə işin aparılmasına görə 1 600 avro tələb etdi.

48. Ərizə 25345/11 ilə bağlı, Ərizəçinin tələbini qəbul etdi. Digər dörd Ərizəçinin tələbi ilə bağlı Hökumət heç bir şərh bildirməmişdir.

49. Məhkəmə qeyd edir ki, bütün Ərizəçilər eyni hüquqşünas cənab H.Həsənov tərəfindən Məhkəmə qarşısında təmsil etmiş və hüquqşünasın təqdim Ərizələr müxtəlif əsas hissəsi oxşardır. Məhkəmədə olan sənədləri nəzərə alaraq, yerli instansiyalarda çəkilmiş xərc və məsrəflər hissəsində rədd edir və hər beş Ərizəçiyə birlikdə Məhkəmə qarşısında çəkilmiş xərc və məsrəflərə vergilər xaric olmaqla 5 000 avro ödənilməsini qərara alır.

C. Gecikdirməyə görə faizlər

50. Məhkəmə cərimə faizinin Mərkəzi Avropa Bankındakı satış kursu əsasında hesablanması və onun üzərinə müvafiq üç faiz dərəcəsinin əlavə edilməli olduğunu müəyyən edir.

BU SƏBƏBLƏRƏ GÖRƏ MƏHKƏMƏ YEKDILLIKLƏ

1. Ərizələrin birləşməsi qərara alır;

2. Hökumətin ərizələrin Məhkəmənin siyahıdan çıxarılmasıns dair xahişini rədd edir

3. Qərara alır ki, ərizələr qəbulediləndir;

4. Qərara alır ki, Konvensiyanýn 1-ci Protokolunun 3-cü maddəsi pozulub;

5. Qərara alır ki, Konvensiyanın 14-cü maddəsi çərcivəsində şikayətin (bu işlərdə qaldırılmışdır 25330/11, 25340/11, 25345/11 və 25645/11) ayrıca araşdırılmasına ehtiyac yoxdur

6. Qərara alır ki,

a) Üç ay ərzində cavabdeh dövlət yuxarıdakı məbləğləri, ödəmə günü tətbiq edilən məzənnəyə əsasən Azərbaycan manatına çevirməklə, ərizəçilərə ödəməlidir:

(i) hər bir Ərizəçiyə maddi ziyana dair 10,000 avro (on min) və hər hansı vergi tətbiq edilərsə onun məbləği əlavə olaraq ödənilməlidir

(ii) xərc və məsrəflərə görə beş ərizəçiyə birlikdə 5 000 avro (beş min) və hər hansı vergi tətbiq edilərsə onun məbləğı əlavə olaraq ödənilməlidir

(b) yuxarıda qeyd edilən müddət bitdikdən sonra öhdəlik icra edilənə qədər yuxarıda qeyd edilən ödənilməli məbləğlərin üzərinə Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxarı həddinə bərabər olan adi faiz məbləği əlavə olunmalı və onun da üzərinə daha üç faiz əlavə edilməlidir;

7. Əvəzin ədalətli ödənilməsi ilə baðlý ərizəçinin qalan tələblərini rədd edir.

İngilis dilində tərtib olunub və Məhkəmə Reqlamentinin 77-ci qaydasının 2 və 3-cü bəndlərinə müvafiq olaraq, qərar barədə məlumat yazılı şəkildə 17 dekabr 2015-ci ildə göndərilib.

AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

Birinci bölmə

Seyidzadə Azərbaycana qarşı

QƏRAR

(Şikayət № 37700/05)

Strasburq, 03 dekabr 2009-cu il

Bu qərar qətidir, lakin redaktə edilməsi üçün yenidən baxıla bilər. Qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində göstərilən hallarda qəti olacaq. O, yenidən redaktə edilə bilər.

Seyidzadə Azərbaycana qarşı iş üzrə,

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Birinci Bölmə) aşağıdakı tərkibdə,

Nina Vajiç, Sədr,
Anatoli Kovler,
Xanlar Hacıyev,
Din Spilman,
Sverr Erik Jebens,
Ciorcio Malinverni,
Corc Nikolau, hakimlər,
və Soren Nilsen, Bölmə Katibi,

12 noyabr 2009-cu ildə qapalı şəkildə müzakirə edərək, həmin gündə bu qərarı qəbul edir:

Prosedur

1. “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın 34-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı olan cənab Mirəziz Mirəsgər oğlu Seyidzadənin (“Ərizəçi”) Azərbaycana qarşı verdiyi şikayət üzrə (№ 37700/05) iş 07 oktyabr 2005-ci ildə başlanılmışdır.

2. Hüquqi yardım alan ərizəçini Bakıda vəkil işləyən cənab Ə. Rzayev təmsil edib. Azərbaycan Hökumətini (“Hökumət”) onun nümayəndəsi Ç. Əsgərov təmsil edib.

3. Ərizəçi xüsusilə iddia etdi ki, 1 saylı Protokolun 3-cü maddəsinin təmin etdiyi şəkildə onun seçkidə namizəd kimi iştirak etmək hüququ pozulmuşdur.

4. Birinci Bölmənin Sədri 11 yanvar 2007-ci ildə şikayət barədə Hökuməti məlumatlandırmaq qərarına gəlib. Həmçinin qərara gəlinmişdir ki, şikayətin mahiyyətinə onun qəbuledilənliyi ilə eyni vaxtda baxılsın (Konvensiyanın 29-cu maddəsinin 3-cü bəndi).

Faktlar

I. İşin halları

5. Ərizəçi 1949-cu ildə anadan olub və Bakıda yaşayır.

6. Ərizəçi Qafqaz Müsəlmanları İdarəsinin təhsil şöbəsinin müdiri, Qazılar Şurasının üzvü və Bakı İslam Universitetinin Sumqayıt filialının rəhbəri kimi vəzifələrdə işləmişdir. O, həmçinin 2002-ci ildən nəşr olunmuş və İslam dini məzmunlu müxtəlif məqalələri dərc etmiş “Kəlam” jurnalının təsisçisi və baş redaktoru olmuşdur.

7. Ərizəçi birmandatlı 71 saylı Masallı kənd seçki dairəsi üzrə 06 noyabr 2005-ci ildə keçiriləcək Milli Məclisə seçkilərdə namizəd kimi qeydə alınması üçün Dairə Seçki Komissiyasına ("DSK") müraciət etmişdir. Müraciətlə birgə o, parlament üzvü vəzifəsi ilə uyğun gəlməyən hər hansı peşə fəaliyyətinə son qoymaq barədə yazılı öhdəliyi təqdim etmişdir.

8. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının və Elmi Dini Şurasının 14 iyul 2005-ci ildə keçirilmiş birgə iclasının protokollarına görə, Ərizəçinin Qazılar Şurasındakı üzvlüyünə onun öz müraciəti əsasında xitam verilmişdir. Qeyd olunmuşdur ki, ərizəçinin parlament seçkilərində namizədliyinin irəli sürülməsi nəzərə alınmaqla, onun xahişi təmin edilmişdir.

9. Qafqaz Müsəlmanları İdarəsi sədrinin 15 avqust 2005-ci il tarixli qərarına əsasən, ərizəçi İdarənin təhsil şöbəsinin müdiri və Bakı İslam Universitetinin Sumqayıt filialının rəhbəri vəzifəsindən azad olunmuşdur.

10. 25 avqust 2005-ci ildə DSK ərizəçini namizəd kimi qeydə almaqdan imtina etmişdir, ona görə ki, o, Seçki Məcəlləsinin 1472.4-cü maddəsinin tələblərinə zidd olaraq "peşəkar dini xadim kimi fəaliyyətini davam etdirmişdir".

11. Ərizəçi bu qərardan Mərkəzi Seçki Komissiyasına ("MSK") şikayət etmişdir. 27 avqust 2005-ci ildə MSK ərizəçinin şikayətini rədd etmişdir. MSK-nın qərarında aşağıdakılar əks olunmuşdur:

"Milli Məclisə seçkilərdə namizədliyini irəli sürən Mirəziz Mirəsgər oğlu Seyidzadənin şikayətini araşdıraraq, (MSK) Seçki Məcəlləsinin 19.4, 19.14, 28.4 və 112.9-cumaddələrinə və Seçki Məcəlləsinin təsdiq olunması və qüvvəyə minməsi

haqqında 27 may 2003-cü il tarixli Qanunun 3.5 və 3.6-cı maddələrinə əsasən, qərara aldı:

Mirəziz Mirəsgər oğlu Seyidzadənin şikayəti əsassız olduğu üçün rədd olunsun."

12. Ərizəçi bu qərardan Apellyasiya Məhkəməsinə şikayət etmişdir ki, onun namizədliyi qanunsuz qeydə alınmamışdır, ona görə ki, o, "peşəkar dini fəaliyyəti" ilə bağlı bütün vəzifələrindən çıxmış və artıq hər hansı dini fəaliyyətlə məşğul olmamışdır. 01 sentyabr 2005-ci ildə Apellyasiya Məhkəməsi onun şikayətini rədd edərək hesab edib ki, MSK-nın qərarı qanunidir. Xüsusən, Apellyasiya Məhkəməsi qeyd etdi:

"İşin materiallarına əsasən, Milli Məclisə seçkilərdə namizədliyini irəli sürən Mirəziz Mirəsgər oğlu Seyidzadə dini xadimdir.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, dini xadimin ... seçkilərdə iştirak etmək hüququ məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 14.2.4-cü maddəsinə əsasən, dini xadimlər peşəkar dini fəaliyyətlə məşğul olduqda, Milli Məclisin üzvü ola bilməz.

Qafqaz Müsəlmanları İdarəsində və Bakı İslam Universitetində yuxarıda qeyd olunan bütün vəzifələrdən çıxdığına dair ərizəçinin dəlili onun iddiasının təmin olunması üçün əsas kimi qiymətləndirilə bilməz.

Xüsusən, ərizəçinin yuxarıda qeyd olunan vəzifələrdən çıxması faktı onun peşəkar dini fəaliyyətlə məşğul olmadığına dəlalət etmir.

Digər tərəfdən, Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə əsasən, dini xadim Milli Məclisin üzvü seçilə bilməz.

Beləliklə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarının Azərbaycan Respublikası Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə uyğun olduğunu nəzərə alaraq, ərizəçinin şikayətində irəli sürülmüş dəlillər bu qərarın ləğvi üçün əsas kimi qiymətləndirilə bilməz."

13. Ərizəçi bu qətnamədən Ali Məhkəməyə kassasiya şikayəti vermişdir. 08 sentyabr 2005-ci il tarixli qərarla Ali Məhkəmə eyni əsaslardan istifadə etməklə, şikayəti təmin etməmişdir.

14. Ərizəçi Ali Məhkəmənin sədrinə əlavə kassasiya şikayəti verməklə, işin yenidən açılmasına və Ali Məhkəmənin Plenumunda yenidən baxılmasına çalışmışdır. 20 sentyabr 2005-ci ildə Ali Məhkəmənin sədri onun müraciətini təmin etməməklə, işin yenidən açılması üçün əsasların olmadığını müəyyən etmişdir.

15. Nəhayət, Ərizəçi Konstitusiya şikayəti vermişdir. 26 oktyabr 2005-ci il tarixli qəbuledilənliklə bağlı qərardadla Konstitusiya Məhkəməsi şikayəti baxılması üçün qəbul etməkdən imtina etməklə hesab edib ki, ərizəçi əsasən ümumi yurisdiksiya məhkəmələrinin fakt üzrə qənaətlərini mübahisələndirir (xüsusən, ərizəçinin "peşəkar dini fəaliyyətlə" məşğul olub-olmamasına dair). Konstitusiya Məhkəməsi qeyd edib ki, o, işin müəyyən olunmuş faktiki hallarının düzgünlüyünün yenidən baxılması səlahiyyətinə malik deyil. O, həmçinin dini xadimin seçkilərdə namizədliyini irəli sürmək

hüququnun məhdudlaşdırılmasına dair aşağıdakıları qeyd etmişdir:

Konstitusiyanın 7-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikası qanunun aliliyi ilə idarə olunan demokratik, dünyəvi, unitar respublikadır. Konstitusiyanın 18-ci maddəsinin I hissəsi nəzərdə tutur ki, din Dövlətdən ayrı olmalıdır. Bu baxımdan, yuxarıdakı müddəalar seçilən ali dövlət orqanının təşkilinə dair konstitusiya qaydalarında nəzərə alınmalıdır.

Din xadiminin dövlət orqanlarına seçilməsinin ictimai marağın tələblərinə əsaslanan məhdudlaşdırılması dinin Dövlətdən ayrılması barədə əsas məqsədə yönəlir. Məhdudiyyət Dövlətin idarə olunmasına xas olan məsələləri dini icmaların, dini xadimlərin və dini fiqurların təsiri dairəsindən kənarlaşdırmağa və belə təsiri minimuma endirməyə xidmət edir.

Məhdudiyyətin digər məqsədi səslərin mövqelərə əsasən verilməsini və hər hansı lazımsız müdaxilədən azad şəkildə seçim edilməsini təmin etmək vasitəsi kimi seçki prosesi baxımından dini seçiciləri dini xadimdən ayırmasıdır.

Qeyd olunmalıdır ki, bir neçə dövlətlərin də hüquqi sistemləri dini xadimin seçkidə namizədliyinin irəli sürülməsinə məhdudiyyəti nəzərdə tutur.

Seçki Məcəlləsinin 14.2.4-cü maddəsi nəzərdə tutur ki, peşəkar dini fəaliyyətlə məşğul olduqda, dini xadim Milli Məclisin üzvü, Respublikanın Prezidenti və bələdiyyənin üzvü ola bilməz. Belə olan halda, qanunverici dini xadimin parlamentin üzvü kimi işləməsini məhdudlaşdıran "dini əsasla uzlaşmama tələbini" yalnız onun peşəkar dini fəaliyyətlə məşğul olduğu dövrə tətbiq etmişdir."

II. Müvafiq daxili qanunvericilik

A. Azərbaycan Respublikasının 1995-ci il tarixli Konstitusiyası

16. Həmin vaxtda Konstitusiyanın müvafiq müddəaları aşağıdakıları nəzərdə tutub:

Maddə 7. Azərbaycan dövləti

“I. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. ...”

Maddə 18. Din və dövlət

“I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.”

Maddə 56. Seçki hüququ

“I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.”

Maddə 85. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığına namizədlərə aid tələblər

“1. Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.”

B. Azərbaycan Respublikasının 2003-cü il tarixli Seçki Məcəlləsi

17. Həmin vaxtda Seçki Məcəlləsinin müvafiq müddəaları aşağıdakıları nəzərdə tutub:

Maddə 13. Passiv seçki hüququnun mənsubiyyəti

“13.1. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın referendum üzrə təşviqat qruplarının yaradılmasının təşəbbüsçüsü olmaq, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş Prezidentliyə, deputatlığa, bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə, Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ — passiv seçki hüququ vardır.

13.2. Passiv seçki hüququ ilə bağlı məhdudlaşdırıcı hallar Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, 85-ci, 100-cü maddələri ilə və bu Məcəllə ilə müəyyən edilir.

13.3. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin III hissəsinə, 85-ci və 100-cü maddələrinə uyğun olaraq, aşağıdakı şəxslərin Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ — passiv seçki hüququ yoxdur:

13.3.1. məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslər;

13.3.2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4 — 15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə məhkum olunmuş şəxslər;

13.3.3. ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşları (ikili vətəndaşlığı qalanadək);

13.3.4. xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşları həmin öhdəliklərə xitam verilənədək)....”

Maddə 14. Vəzifələrin uzlaşmaması

“14.1. Vəzifələrin uzlaşmaması halları Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, 85-ci, 100-cü maddələri ilə və bu Məcəllə ilə müəyyən edilir.

14.2. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin III hissəsinə uyğun olaraq, aşağıdakı şəxslər tutduqları vəzifələrə görə Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü ola bilməzlər:

14.2.1. hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə);

14.2.2. hakimlər (hakim olduqları müddətdə);

14.2.3. dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə);

14.2.4. din xadimləri (peşəkar dini fəaliyyət ilə məşğul olduqları müddətdə).”

Maddə 53. Namizədlərin öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülməsi

“... 53.3. Bu Məcəllənin 53.2-ci maddəsində göstərilən bildirişlə birlikdə namizədin seçkili dövlət və ya bələdiyyə orqanında seçkili vəzifəyə seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də göndərilir. Bu ərizədə onun tərcümeyi-halına aid məlumatlar (onun əsas işi daxil olmaqla (bu olmadıqda — fəaliyyət növü)) göstərilir. ...”

Maddə 69. Qeydə alınmış namizədlərin və referendum üzrə təşviqat qruplarının bərabərliyi

“69.1. Qeydə alınmış bütün namizədlər və referendum üzrə təşviqat qrupları onların statusları nəzərə alınmaqla bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar.

69.2. Dövlət orqanlarında işləyən və ya bələdiyyə qulluğunda olan və ya kütləvi informasiya vasitələrində əmək və mülki hüquq müqaviləsi əsasında işləyən qeydə alınmış namizədlər, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri seçki (referendum) kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar (bu qayda Azərbaycan Respublikası Prezidentinə, Milli Məclisin deputatlarına və bələdiyyə üzvlərinə şamil edilmir), müvafiq əmrin (sərəncamın) təsdiq

edilmiş surətini qeydiyyat günündən ən geci 3 gün ərzində onları qeydə almış seçki komissiyasına təqdim edirlər; onlar öz vəzifə və xidməti mövqeyindən imtiyaz qazanmaq və üstünlük əldə etmək məqsədi ilə istifadə edə bilməzlər."

Maddə 143. Milli Məclisə seçkilərin əsasları

"Milli Məclisə birmandatlı seçki dairələri üzrə 125 deputat (bir dairədən — bir deputat) seçilir."

Maddə 144. Azərbaycan Respublikası vətəndaşlarının Milli Məclisə deputat seçilmək hüququ

"Azərbaycan Respublikası Konstitusiyanın 85-ci maddəsində göstərilən Azərbaycan Respublikası vətəndaşları Milli Məclisə deputat seçilə bilərlər. ..."

C. "Dini etiqad azadlığı haqqında" 1992-ci il tarixli Qanun

18. Həmin vaxtda "Dini etiqad azadlığı haqqında" Qanunun müvafiq müddəaları aşağıdakıları nəzərdə tutub:

Maddə 5. Dövlət və dini qurumlar

"Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır.

Dövlət ona aid olan hər hansı işin yerinə yetirilməsini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır.

Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir.

Dini qurumlar siyasi partiyaların fəaliyyətində iştirak etmir və onlara maliyyə yardımı göstərmirlər.

Dövlət orqanlarının tərkibinə seçildikdə və ya vəzifəyə keçdikdə din xadimlərinin dini xadim kimi fəaliyyəti həmin müddətdə dayandırılır."

D. Dövlət qulluqçularının seçkidə namizədliyini irəli sürmək məqbuliyyətinə aid müvafiq daxili təcrübə

19. Ağayev Azərbaycana qarşı iş (№ 7607/06, Məhkəmənin 09 sentyabr 2009-cu il tarixli Komitə qərardadında qeyri-məqbul elan olunmuşdur) Seçki Məcəlləsinin 14-cü maddəsində əks olunmuş vəzifələrin uzlaşmaması tələblərinə dair hazırkı iş üçün əhəmiyyətli olan aşağıdakı faktları əks etdirmişdir. Bu iş üzrə ərizəçi 06 noyabr 2005-ci il tarixli seçkilərdə 65 saylı birmandatlı Saatlı-Sabirabad-Kürdəmir Seçki Dairəsində namizəd olmuşdur. Onun rəqiblərindən biri, Q.A. Saatlı rayon İcra Hakimiyyətinin ("SRİH") başçısı olmuşdur. Yerli icra hakimiyyətlərinin başçıları vəzifələrinə Respublika Prezidenti tərəfindən təyin və azad olunurlar. Namizəd kimi rəsmi qeydə alınmasından sonra Q.A. özünün imzaladığı 05 sentyabr 2005-ci il tarixli əmrə əsasən ödənişsiz şəkildə 16 noyabr 2005-ci il tarixinədək vəzifəsindən müvəqqəti azad olunmuşdur. Bu qərar barədə seçki orqanları və Prezident Aparatı lazımınca məlumatlandırılıblar. Q.A., həmçinin seçildiyi halda, parlament üzvü vəzifəsi ilə uyğun gəlməyən hər hansı fəaliyyətinə son qoyulması öhdəliyini təqdim etmişdir. Ərizəçi daxili orqanlar qarşısında dairədəki seçki prosesinin qanuniliyini mübahisələndirərək bildirmişdir ki, Q.A. namizəd kimi rəsmi qeydə alınmasından əvvəl Prezidentin sərəncamı ilə öz vəzifəsindən tam azad edilməlidir. Seçki orqanları və məhkəmələr ərizəçinin tələblərini rədd edərək göstərmişlər ki, Q.A. Seçki Məcəlləsinin 69.2-ci maddəsinə tamamilə uyğun olaraq öz vəzifəsindən müvəqqəti azad olunmuş və bu səbəbdən, o, yüksək dərəcəli dövlət qulluqçusu kimi seçki prosesinə qanunsuz təsir etmək imkanında deyil. Buna görə, Q.A. namizəd kimi seçkidə iştirak etməyə icazə alıb. Sonradan,

Q.A. dairədəki seçkiləri udub. 02 dekabr 2005-ci ildə Q.A. Prezidentin sərəncamı ilə öz vəzifəsindən tamamilə azad olunmuşdur.

Hüquqi məsələlər

I. 1 saylı Protokolun 3-cü maddəsinin iddia edilən pozuntusu

20. Ərizəçi şikayət edib ki, "peşəkar dini fəaliyyət" kimi qiymətləndirilə bilən bütün vəzifələrindən azad olunmasına baxmayaraq, onun parlament seçkilərində namizədliyinin irəli sürülməsi Konvensiyanın 1 saylı Protokolunun aşağıdakıları nəzərdə tutan 3-cü maddəsinə zidd olaraq qanunsuz rədd olunmuşdur:

"Razılığa gələn Yüksək Tərəflər qanunverici hakimiyyət orqanını seçərkən, xalqın öz iradəsini sərbəst ifadə edə biləcək şəraitdə, ağlabatan dövriliklə, gizli səsvermə yolu ilə azad seçkilər keçirməyi öhdələrinə götürürlər."

A. Şikayətin qəbuledilənliyi

21. Məhkəmə hesab edir ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin mənasında açıq-aşkar əsassız deyil və ya hər hansı başqa əsaslarla qeyri-məqbul deyildir. Buna görə, şikayət məqbul elan olunmalıdır.

B. İşin mahiyyəti

4. Tərəflərin dəlilləri

22. Hökumət iddia edib ki, peşəkar dini fəaliyyətlə məşğul olduqda, dini xadimlərin parlament üzvü kimi işləməkdən diskvalifikasiyası səs vermək və namizədliyini irəli sürmək şərtlərinin müəyyən olunması üzrə Dövlətin mülahizə

sərbəstliyi daxilindədir. Bu məhdudiyyət qanunla nəzərdə tutulmuş və qeyri-mütənasib olmamış, bununla da, qanunverici orqanın seçilməsində xalqın fikrinin azad ifadə olunmasına qarşı qoyula bilər.

23. Hökumət qeyd edib ki, ərizəçinin namizədliyini irəli sürmək istədiyi Masallı rayonu İslam dini cəmiyyətinin və dini xadimlərin daimi təsiri altında olmuşdur. Bu məntəqədə dini icmanın üzvləri yerli sakinlər arasında müstəsna dərəcəli hakimiyyətə malikdirlər və bu da seçicilər üzərində qanunsuz təsir mənbəyi kimi istifadə oluna bilər. Fəal dini fiqur kimi ərizəçi həmin seçki dairəsindən olan digər namizədlər üzərində ədalətsiz üstünlüyə malik olmuş olardı.

24. Hökumət bildirib ki, dini fəaliyyətə aid olan bütün vəzifələrdən çıxdığına dair ərizəçinin dəlilinə baxmayaraq, seçki komissiyaları tərəfindən əldə olunmuş məlumatlara görə, o, dini xadim kimi peşə vəzifələrini həyata keçirməyə davam etmişdir. Hökumət, həmçinin bildirib ki, seçkidən əvvəlki və sonrakı müddətdə Ərizəçi "Kəlam" jurnalının baş redaktoru vəzifəsində qalmışdır.

25. Ərizəçi qeyd edib ki, daxili qanunvericilikdə "dini xadim" və ya "peşəkar dini fəaliyyət" terminlərinin dəqiq hüquqi anlayışı yoxdur. Buna görə, onun "dini xadim" kimi təsvir edilməsi və bu əsasla seçkidə namizədliyini irəli sürmək hüququnun məhdudlaşdırılması qanunla nəzərdə tutulmamışdır. Hər bir halda, Seçki Məcəlləsinin 14.2.4-cü maddəsi yalnız onu müəyyən edir ki, dini xadim parlament üzvü kimi işləyə bilməz. Buna görə, qanun onların seçkidə iştirak etməsinə və seçilməsinə maneə törətmir və yalnız onu tələb edir ki, seçkidə namizədliyini irəli sürərkən deyil, ancaq

Milli Məclisə seçildikdə, dini xadimlər öz dini fəaliyyətlərinə xitam versinlər. Bu səbəbdən, seçki orqanları seçildiyi halda hər hansı "peşəkar dini fəaliyyətə" xitam vermək haqqında yazılı öhdəliyə əsasən onun namizədliyini qeydə almalı olmuşlar. Buna baxmayaraq, işini düzgün qurmaq üçün ərizəçi ehtiyat tədbirləri görmüş və "peşəkar dini fəaliyyət" kimi qiymətləndirilə bilən bütün vəzifələrdən çıxmışdır.

26. Ərizəçi, həmçinin iddia edib ki, onun peşəkar dini fəaliyyətlə məşğul olmağa davam etdiyinə dair daxili dövlət orqanlarının qənaəti və Hökumətin dəlili düzgün deyil. Bu qənaətlə bağlı hər hansı sübut təqdim olunmamışdır. Kəlam jurnalının baş redaktoru kimi vəzifələrinin həyata keçirilməsinin davam olunmasına gəldikdə, ərizəçi iddia edib ki, birincisi, bu iş sadəcə olaraq jurnalist peşəsi kimi qiymətləndirilir (dini peşə kimi yox) və ikincisi, hər bir halda, seçkidə namizədliyini irəli sürərkən, o, jurnalın baş redaktoru qismində funksiyalarının həyata keçirilməsini dayandırmışdır.

5. Məhkəmənin qiymətləndirməsi

(a) Ümumi prinsiplər

27. 1 saylı Protokolun 3-cü maddəsi səmərəli siyasi demokratiya üçün fundamental prinsipi təsbit edir və müvafiq olaraq Konvensiya sistemində ən mühüm əhəmiyyət kəsb edir (baxın, Metyu-Mohin və Klerfet Belçikaya qarşı, 02 mart 1987-ci il, § 47, A Seriyaları, № 113). Məhkəmə müəyyən edib ki, bu müddəa səs vermək və seçkidə namizədliyini irəli sürmək hüquqları daxil olmaqla, fərdi hüquqları təmin edir. Bu hüquqlar vacib olsa belə, mütləq deyil. Konvensiyanın 3-cü maddəsi həmin hüquqları açıq terminlərlə təsbit etmədən tanıdığı üçün, onların müəyyən olunması ilə üz-üzə qaldıqda,

“ehtimal olunan məhdudiyyətlər”in mümkün olduğu aşkarlanır və tərəf Dövlətlər bu sahədə geniş mülahizə sərbəstliyinə malikdirlər. Öz daxili hüquqi sistemlərində onlar səs vermək və seçkidə namizədliyini irəli sürmək hüquqlarını Konvensiyanın 3-cü maddəsi üzrə maneə ilə üzləşməyən müəyyən şərtlərdən asılı edirlər (həmin yerdə, §§ 51-52, Metyus Birləşmiş Krallığa qarşı (BP), № 24833/94, § 63, AİHM 1999-I; və LabitaİtaliyayaqarşI (BP), № 26772/95, § 201, İHAM 2000-IV). Bu müddəada təmin olunmuş hüquqların məhdudlaşdırılması ilə qarşıya qoyulmuş məqsədlərin yolverilənliyinin müəyyən olunması üçün “nəzərdə tutulan məhdudiyyətlər” anlayışı mühüm əhəmiyyət kəsb edir. 1 saylı Protokolun 3-cü maddəsinin Konvensiyanın 8-11-ci maddələrində sadalanmış kimi “qanuni məqsədlərin” spesifik siyahısı ilə məhdudlaşdırılmadığını nəzərə alaraq, Dövlətlər məhdudiyyətə haqq qazandırmaq üçün bu siyahıda əks olunmamış məqsədə istinad etmək sərbəstliyinə o şərtlə malikdirlər ki, bu məqsəd qanunun aliliyi prinsipi və Konvensiyanın ümumi məqsədləri ilə uyğun olsun. Bundan başqa, 1 saylı Protokolun 3-cü maddəsi ilə uyğunluğu yoxlayarkən, Məhkəmə “zərurilik” və ya “təzyiqli ictimai zərurət” testlərini tətbiq etmir; əvəzində, Məhkəmə əsasən iki meyar üzərində dayanmışdır: qanunsuzluğun və ya mütənasiblik çatışmazlığının olub-olmaması və məhdudiyyətin xalqın öz mövqeyini azad ifadə etməsinə müdaxilə edib-etməməsi (baxın, Yumak və Sadak Türkiyəyə qarşı (BP), № 10226/03, § 109 (iii), 08 iyul 2008-ci il).

28. Tərəf Dövlətlər səs vermək və seçkidə namizədliyini irəli sürmək hüququna şərtlərin qoyulmasında geniş mülahizə sərbəstliyinə malik olsalar belə, 1 saylı Protokolun 3-cü

maddəsinin tələblərinə riayət edilib-edilməməsinin müəyyən olunması sonda Məhkəməyə aiddir; Məhkəmə özünü əmin etməlidir ki, şərtlər sözügedən hüquqları o dərəcədə azaltmır ki, onların mahiyyətinə zərər yetirilmiş və onlar səmərəlilikdən məhrum edilmiş olsun; və istifadə olunmuş vasitələr qeyri-mütənasib deyil (baxın, yuxarıda qeyd olunmuş Metyu-Mohin və Klerfeyt, § 52 və Qitonas və digərləri Yunanıstana qarşı, 01 iyul 1997-ci il, § 39, Qərar və Qərardadların Hesabatı, 1997-VI). Xüsusən, qoyulmuş hər hansı məhdudiyyətlər qanunverici orqanın seçilməsində xalqın səsinin azad ifadə olunmasına zidd olmamalı — yəni, onlar ümumi səsvermə vasitəsilə xalqın iradəsinin müəyyən olunmasına yönəlmiş seçki prosesinin bütövlüyünün və səmərəliliyinin qorunması marağını əks etdirməli və ya bu marağa zidd olmamalıdır (baxın, Hirst Birləşmiş Krallığa qarşı (№ 2) (BP), № 74025/01, § 62, AİHM 2005-IX). Məhkəmə, həmçinin 1 saylı Protokolun 3-cü maddəsinin tələbləri ilə seçki hüquqlarının üzərinə qanunla qoyulmuş məhdudiyyətlərin uyğunluğunun yoxlanılması kontekstində yaxın vaxtlarda baxılmış işlərdə ifadə etdiyi yanaşmasını təkrar edir ki, Konvensiyanın tərkib hissəsi olan "qanunilik" anlayışının vacibliyi də nəzərə alınmalıdır (baxın, təhlilin əvvəlində Məhkəmənin passiv seçki hüquqlarına qanunla qoyulmuş məhdudiyyətin qanuniliyini qiymətləndirdiyi Adamsons Latviyaya qarşı, № 3669/03, §§ 116-19, 24 iyun 2008-ci il; baxın, həmçinin mutatis mutandis, yuxarıda qeyd olunmuş Yumak və Sadak, § 118, bu işdə təhlilin əvvəlində Məhkəmə qeyd edib ki, şikayət olunan qanunvericilik tədbirinin qabaqcadan gözlənilən olması məsələsi iş üzrə mübahisə predmeti olmamışdır).

29. Səs vermək məqbuliyyətindən fərqli olaraq, parlament seçkilərində namizədliyin irəli sürülməsinin məqbuliyyətinə daha ciddi məhdudiyyətlər qoyula bilər (baxın,Melniçenko Ukraynaya qarşı, № 17707/02, § 57, AİHM 2004-X). Dövlətlər qeyri-məqbul elan olunması üçün meyarlar daxil olmaqla, parlament üzvlərinin statusuna dair konstitusiya qaydalarının müəyyən olunması üçün geniş imkanlara malikdirlər. Bu meyarlar hər Dövlətə spesifik olan tarixi və siyasi faktorlardan asılı olaraq fərqlənir. 3-cü maddənin tətbiqinin məqsədləri üçün hər hansı seçki qanunvericiliyi müvafiq ölkənin siyasi təkamülü baxımından qiymətləndirilməli, bununla da, bir sistem kontekstindəqəbulolunmaz kimi görünən xüsusiyyətlər digər kontekstdə əsaslı ola bilər (baxın, yuxarıda qeyd olunmuş Metyu-Mohin və Klerfeyt, § 54 və Podkolzina Latviyaya qarşı, № 46726/99, § 33, AİHM 2002-II; və yuxarıda qeyd olunmuş Melniçenko Ukraynaya qarşı, № 17707/02, § 55). Abstrakt şəkildə uzlaşmama şərtlərinin müəyyən olunmasında dövlətlərin geniş mülahizə sərbəstliyinə malik olduqları doğru olsa belə, hüquqların səmərəli olmalı olduğu prinsipi tələb edir ki, uzlaşma prosesi qanunsuz qərarların qarşısını almaq üçün kifayətedici təminatlara malik olsun (yuxarıda qeyd olunmuş Podkolzina Latviyaya qarşı, № 46726/99, § 35 və Rusiyanın Sahibkarlarının Konservativ Partiyası və digərləri Rusiyaya qarşı, № 55060/00 və 55638/00, §50, İHAM 2007-I).

30. Məhkəmə belə nəticəyə gəlib ki, 1 saylı Protokolun 3-cü maddəsi prinsipcə Tərəf Dövlətlərin qanunverici tədbirlər yolu ilə müəyyən kateqoriya şəxslərə digərlərindən fərqli yanaşıldığı ümumi siyasət sxemlərini müəyyən etməsinə o şərtlə maneə törətmir ki, qanunla müəyyən olunmuş kateqoriya şəxslərin hüquqlarına müdaxilə bütövlükdə Konvensiya baxımından

əsaslı olsun. Sözügedən daxili qanunvericilik hüquqlarına toxunulmuş şəxslərin kateqoriyasının anlayışına və qanunla qoyulmuş mübahisəli məhdudiyyətin tətbiqi dairəsinə kifayət qədər aydın və dəqiq olduqda, yalnız onu müəyyən etmək zəruri olur ki, qanunun əsasında duran məqsəd Konvensiyanın mütənasiblik tələblərinə uyğundur. Qanunla müəyyən olunmuş məhdudiyyət özlüyündə mütənasib olduqda, daxili dövlət orqanlarının vəzifəsi konkret şəxsin qanunla müəyyən olunmuş mübahisəli kateqoriyaya aid olub-olmamasının müəyyənləşdirilməsi ilə məhdudlaşır (baxın, Zdanoka Latviyaya qarşı (BP), № 58278/00, §§ 112-14 və 125,İHAM 2006-IV sonrakı istinadla Rekveni Macarıstana qarşı işə (BP), № 25390/94, §§ 34-50 və 58-62, İHAM 1999-III). Belə işlərdə Məhkəməyə qalan rol ərizəçinin fərdi işində tətbiq olunmuş proseslərin və ya müvafiq daxili qanunvericiliyin tətbiqində daxili dövlət orqanları tərəfindən gəlinmiş nəticələrin qanunsuz kimi qiymətləndirilməli olub-olmamasınımüəyyən etməkdən ibarətdir (baxın, yuxarıda qeyd olunmuş Zdanoka Latviyaya qarşı, § 127). Qanunla müəyyən olunmuş mübahisəli kateqoriyanın anlayışı geniş və ya qeyri-dəqiq olduqda, bu kateqoriyaya mənsub şəxsin seçki hüquqlarının məhdudlaşdırılmasında "fərdiləşdirilmiş" yanaşmanın tətbiqi və spesifik fərdi işdə müvafiq şəxsin siyasi cəlb olunmasının demokratik qaydaya mümkün təhlükəni ifadə edib-etmədiyinin qiymətləndirilməsi zəruri ola bilər (baxın, mutatis mutandis, Adamsons Latviyaya qarşı, № 3669/03, § 125, 24 iyun 2008-ci il).

(b) Hazırkı işə tətbiq

31. Hazırkı işdə ərizəçinin namizəd kimi qeydə alınmaq müraciətindən "dini xadimə" parlamentə seçilməyə maneə

törədən Konstitusiyanın 85-ci maddəsinin II hissəsinə və "peşəkar dini fəaliyyətlə" məşğul olduqda, parlament üzvü işləməyi "dini xadimə" mümkünsüz edən Seçki Məcəlləsinin 14.2.4-cü maddəsinə əsasən imtina olunmuşdur.

32. Məhkəmə qeyd edir ki, hazırkı işdə mübahisələndirilən əsas məsələ tətbiq olunmuş tədbirin iddia olunduğuna görə qabaqcadan gözlənilən olmaması və qanunsuzluğudur. Bu baxımdan, ərizəçi iddia edib ki, birincisi, daxili qanunvericilik tətbiq olunmuş məhdudiyyətin əhatəsinə aid qeyri-müəyyəndir və ikincisi, o, hüquqları məhdudlaşdırılmış şəxslərin kateqoriyasının dəqiq anlayışını nəzərdə tutmur. Müvafiq olaraq, ərizəçinin şikayətinin əsas istiqaməti məhdudiyyətin əsaslandığı qanunun keyfiyyətinə aiddir. Xüsusən, məhdudiyyətin qabaqcadan gözlənilən olması hazırkı işdə mübahisələndirilir (müqayisə et, yuxarıda qeyd olunmuş Yumak və Sadak Türkiyəyə qarşı, § 118).

33. 1 saylı Protokolun 3-cü maddəsinə əsasən şikayət olunan müxtəlif tədbirlərin qanuni əsası və gözlənilənliyi mübahisə olunmayan bir neçə əvvəlki işlərdə, Məhkəmə ümumi qayda kimi özünü bu tədbirlərin qiymətləndirilməsində onların yalnız məqsəd və mütənasibliyin qanuniliyi tələblərinə uyğunluğu məsələləri ilə məhdudlaşdırmışdır. Lakin Məhkəmə təkrar edir ki, 1 saylı Protokolun 3-cü maddəsi ilə təmin olunmuş fərdi hüquqların üzərinə qoyulmuş məhdudiyyət sözügedən hüquqları o dərəcədə azaltmır ki, onların mahiyyətinə zərər yetirilmiş və onlar səmərəlilikdən məhrum edilmiş olsun (baxın, yuxarıda 28-ci paraqraf). Bu prinsip, eləcə də bu hüquqların xəyali deyil, səmərəli olmalı olduğuna dair ümumi Konvensiya tələbi baxımından, Məhkəmə hesab edir ki, hazırkı işdə olduğu kimi seçkidə namizədliyin irəli sürülməsinin

uzlaşmasına məhdudiyyətlər qanunla nəzərdə tutulduğu hallarda, belə qanun qabaqcadan gözlənilənlik kimi keyfiyyətinə aid müəyyən minimum tələblərə cavab verməlidir. Bununla bağlı, Məhkəmə xatırladır ki, qayda "qabaqcadan gözlənilən" o halda olur ki, o, — zərurət olduqda, müvafiq məsləhətlə — hər hansı şəxsə hərəkətlərini müəyyən etməyə imkan vermək üçün kifayət qədər dəqiq ifadə olunsun (baxın, mutatis mutandis, Rotaru Rumıniyaya qarşı (BP), № 28341/95, § 55, İHAM 2000-V).

34. İlk növbədə, Məhkəmə məhdudiyyətin dairəsinə, yəni Seçki Məcəlləsinin dini xadimlərin seçkidə namizədliyini irəli sürməyə və seçilməyə manea törətməməsinə, sadəcə olaraq, namizədliyini irəli sürdükdə yox, Milli Məclisə seçildiyi halda və ya seçildikdə, dini fəaliyyətlərinə xitam verilməsini tələb etdiyinə dair ərizəçinin birinci dəlilini nəzərə alır. Məhkəmə qeyd edir ki, həqiqətən daxili qanunvericiliyin müvafiq müxtəlif müddəalarının hərfi ifadəsinə nəzər yetirdikdə, bu müddəalar dini xadimlərin passiv seçki hüquqlarından (yəni, seçkidə namizədliyini irəli sürmək hüququ) məhrum olunub-olunmaması məsələsinin, həm də yalnız uyğun gəlməyən vəzifələri (yəni, "peşəkar dini fəaliyyətin" seçildiyi halda parlament üzvü vəzifəsi ilə eyni zamanda həyata keçirilməsi) eyni vaxtda tutduqları üçün onların diskvalifikasiya oluna bilib-bilməməsiməsələsinin hər ikisinə zidd kimi görünə bilər. Xüsusən, Konstitusiyanın 85-ci maddəsinin II hissəsi və Seçki Məcəlləsinin 13 və 144-cü maddələri göstərir ki, dini xadimlər parlament üzvü "seçilə bilməzlər". Digər tərəfdən, Seçki Məcəlləsinin 14.24-cü maddəsi və "Dini etiqad azadlığı haqqında" Qanunun 5-ci maddəsi nəzərdə tutur ki, "peşəkar dini fəaliyyətlə" məşğul olduğu dövrdə dini xadimlər "Milli

Məclisin deputatı ola bilməzlər" və din xadimlərinin dini fəaliyyəti seçildikləri dövlət vəzifəsini tutduqları dövrdə "dayandırılmalıdır". Bununla bağlı, Məhkəmə həm də qeyd edir ki, eyni hüquqi müddəalar və konkret olaraq Seçki Məcəlləsinin 14.2-ci maddəsi yalnız "dini xadimlərin" deyil, həmçinin dövlət qulluqçuları kimi digər kateqoriya şəxslərin seçki hüquqlarının əsasən eyni ifadələrlə məhdudlaşdırılmasını nəzərdə tutur. Lakin müvafiq daxili təcrübəni nəzərə alaraq (baxın, yuxarıda 19-cu paraqraf), Məhkəmə qeyd edir ki, dövlət qulluqçularının 2005-ci ildə keçirilmiş eyni parlament seçkilərinə namizəd qismində qeydə alınmaqla seçildiyi halda, dövlət vəzifəsindən çıxmaq öhdəliyini təqdim etdikləri (Seçki Məcəlləsinin 53.3-cü maddəsinə müvafiq olaraq) və seçki dövrü ərzində rəsmi vəzifələrindən müvəqqəti azad olunduqları (Seçki Məcəlləsinin 69.2-ci maddəsinə müvafiq olaraq) işlər olmuşdur.

35. Məhkəmə qeyd edir ki, Hökumət "dini xadimə" aid yuxarıda göstərilmiş daxili hüquqi müddəaların əhatə dairəsinin hərtərəfli və dolğun təfsirini göstərən daxili təcrübənin və ya məhkəmə qərarlarının hər hansı misallarını təqdim etməmişdir. Milli dövlət orqanlarının və xüsusilə məhkəmələrin təfsiri ilə özünün təfsirini əvəz etmək Məhkəmənin vəzifəsi deyildir, ona görə ki, daxili qanunvericiliyi təfsir və tətbiq etmək ilk növbədə milli məhkəmələrə aiddir (baxın, bir çox başqa mənbələr arasında, KruslinFransaya qarşı, 24 aprel 1990-cı il, § 29, A Seriyaları, № 176-A). Məhkəmə qeyd edir ki, konkret hazırkı işdə müvafiq hüquq müddəaları əsasında ərizəçinin namizəd kimi qeydə alınmaq müraciətinə imtina cavabı verərkən, daxili dövlət orqanları açıq-aşkar şəkildə belə nəticəyə gəliblər ki, bu

müddəalar “dini xadimin” seçkidə namizəd kimi iştirak etmək hüququnun özünü məhdudlaşdırır. Buna görə, hazırkı işin məqsədləri üçün Məhkəmə sonrakı təhlilini dövlət orqanlarının yuxarıdakı yanaşması əsasında aparacaq.

36. Lakin məhdudiyyətlə hüquqlarına toxunulmuş şəxslərin kateqoriyasına aid ərizəçinin dəlilinə qayıdarkən, Məhkəmə hesab edir ki, həqiqətən müvafiq daxili qanunvericilik kifayət qədər aydın və dəqiq deyil ki, hüquqları məhdudlaşdırılmış kateqoriyaya konkret şəxsin mənsub olub-olmadığının müəyyən edilməsində seçki orqanları tərəfindən qanunsuz qərarların qarşısını alsın. Xüsusən, daxili qanunvericilik kimin “dini xadim” qismində qiymətləndirilməsinə və nəyin “peşəkar dini fəaliyyəti” təşkil etdiyinə dair hər hansı anlayışı nəzərdə tutmur. Ayrı-ayrı yollarla öz daxili strukturunu təşkil edən dini əqidələrin geniş müxtəlifliyinin mövcudluğu spesifik din, etiqad və ya inama aid “dini xadim” qismində kimin qiymətləndirilməli olduğuna dair fərqli baxışların yaranmasına potensial nəticəyə səbəb ola bilər. Bundan başqa, “peşəkar dini fəaliyyət” termininin daha qeyri-müəyyən olduğunu və kifayət qədər geniş təfsirə imkan verdiyini nəzərə alaraq, bu terminin yalnız ruhanilərin və ya başqa ruhani vəzifələri tutan şəxslərin (o cümlədən imamlar, keşişlər və ya ravvinlər kimi) əsas fəaliyyətini ehtiva etdiyini, yaxud da Hökumətin təqdim etdiyi dəlillərdə (baxın, yuxarıda 24-cü paraqraf) nəzərdə tutula bildiyi kimi, dinlə bağlı ruhani qismində təsvir edilməyən başqa fəaliyyətlərin və ya dini tərəfdarların kütləsi (məsələn, dini mövzular barədə yazan publisistlərin fəaliyyəti və ya dini məsələlərdə formalaşan pedaqoji fəaliyyət kimi) ilə birbaşa əlaqələrin dairəsinə şamil olunub-olunmadığı aydın deyildir. “Dini fəaliyyət” termini ilə istifadə olunmuş “peşəkar”

termininin mənası da aydın deyildir. Xüsusən, bunun ödənilən dini xidmətlərin təqdim olunmasına aid rəsmi vəzifə və ya formal işə aid olunmasını, yaxud da adi mənasında mütləq şəkildə ödənilən işi təşkil etməyən tam və ya natamam iş vaxtının hər hansı başqa formasını nəzərdə tutduğu aydın deyildir. Konstitusiyanın və Seçki Məcəlləsi müəlliflərinin bu məsələni bilə-bilə açıq saxlamaqla onun müəyyən dərəcədə məhkəmə təfsirini və aydınlaşdırılmasını tələb etdiyi iddia oluna bilsə belə, Məhkəmə qeyd edir ki, Hökumət iddia etməyib ki, yuxarıdakı terminləri müəyyən edən və aydınlaşdıran hər hansı daxili məhkəmə qərarları mövcuddur və belə qərarların hər hansı misallarını təqdim etməmişdir. Hazırkı işdə daxili məhkəmələr də hər hansı təfsiri və ya aydınlaşdırmanı təqdim etməmişlər (baxın, aşağıda 38-ci paraqraf).

37. Belə olan halda, Məhkəmə hesab edir ki, mübahisəli tədbiri nəzərdə tutan daxili qanunvericilik özünün nəticələrinə aid qabaqcadan gözlənilən olmamış və onunla hüquqlarına toxunulan şəxslərin kateqoriyasının müəyyən edilməsinə aid fərziyyələrə əhəmiyyətli yer qoymuşdur. Müvafiq hüquqi müddəalar ərizəçiyə öz hərəkətlərini müəyyən etməyə imkan vermək və passiv seçki hüquqlarının məhdudlaşdırılmasına səbəb olan spesifik növ fəaliyyətləri qabaqcadan gözləmək üçün kifayət qədər dəqiq olmamışdır. “Dini xadim” və “peşəkar dini fəaliyyət” terminlərinin hər hansı anlayışının olmaması seçki orqanlarına həddən artıq geniş mülahizə vermiş və Konstitusiyanın 85-ci maddəsinin II hissəsinə və Seçki Məcəlləsinin 14.2.4-cü maddəsinə əsasən məhdudiyyətin tətbiqində qanunsuzluq üçün böyük yer saxlamışdır. Hazırkı işdə məhz bu baş verib, ona görə ki, ərizəçinin “peşəkar dini

fəaliyyət" kimi qiymətləndirilə bilən bütün vəzifələrdən çıxmasına baxmayaraq, daxili dövlət orqanları onun hələ də "peşəkar dini fəaliyyətlə" məşğul olan "dini xadim" olduğuna dair qənaətləri üçün hər hansı faktiki əsasları hətta göstərmədən qeydiyyat müraciətini qanunsuz rədd etmişlər.

38. Daha konkret olaraq Məhkəmə qeyd edir ki, ərizəçi Qafqaz Müsəlmanları İdarəsində və Bakı İslam Universitetində "peşəkar dini fəaliyyət" kimi qiymətləndirilə bilən bir neçə vəzifələr tutmuşdur. Həqiqətən, o, seçkidə namizədliyini irəli sürmək üçün ona imkan verəcəyinə inanaraq, bütün yuxarıdakı vəzifələrdən çıxmışdır. Lakin bu vəzifələrdən çıxması onu hələ də dini xadim kimi qiymətləndirən seçki komissiyaları tərəfindən kifayətedici hesab olunmamışdır. "Peşəkar dini xadim kimi fəaliyyətinə davam etdiyini" müəyyən edərkən, DSK konkret hansı fəaliyyətin nəzərdə tutulduğunu göstərməmişdir. Eyni ilə, MSK hər hansı əsaslandırmanı və ya izahatı təqdim etmədən ərizəçinin dəlillərini rədd etmişdir. Seçki komissiyalarının qərarlarını yoxlayarkən, daxili məhkəmələr sadəcə olaraq qeyd etmişlər ki, ərizəçinin bütün sözügedən vəzifələrdən çıxması faktı "onun peşəkar dini fəaliyyətlə məşğul olduğunu istisna etmir". Seçki komissiyaları kimi, məhkəmələr ərizəçi tərəfindən həyata keçirilmiş konkret olaraq hansı fəaliyyətin onun seçkidə namizədliyinin irəli sürülməsinə maneə törətməsi və Konstitusiyanın 85-ci maddəsinin və Seçki Məcəlləsinin 14.2.4-cü maddəsinin mənasında onun hələ də "dini xadim" kimi hansı anlayış və sübutlarla qiymətləndirilməsi ilə bağlı hər hansı izahatı təqdim etməmişlər. Ərizəçinin dini jurnalın baş redaktoru qismində işləməkdə davam etdiyinə dair Hökumətin dəlilinə gəldikdə, Məhkəmə qeyd edir ki, nə seçki orqanları, nə də daxili

məhkəmələr ərizəçinin "dini fəaliyyətlə" məşğul olmağa davam etdiyi barədə qənaətə gələrkən, konkret bu funksiyaya heç vaxt açıq şəkildə istinad etməmişlər. Nəticədə, belə görünür ki, ərizəçinin bu kateqoriyaya aid olan kimi qiymətləndirilməsinə dair hər hansı hüquqi əsaslandırma təqdim olunmamışdır.

39. Nəticədə, Məhkəmə qeyd edir ki, mübahisəli məhdudiyyətlə hüquqlarına toxunulmuş şəxslərin kateqoriyasının hüquqi tənzimlənməsi həddən artıq geniş və qeyri-müəyyəndir. Əlavə olaraq, ərizəçiyə qarşı qanunun tətbiqi 1 saylı Protokolun 3-cü maddəsində təsbit olunmuş hüquqların mahiyyətinə zərər yetirildiyi vəziyyətlə nəticələnmişdir.

40. Belə nəticəyə gəlinir ki, iş üzrə Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsi pozulmuşdur.

II. Konvensiyanın başqa iddia edilən pozuntuları

A. Konvensiyanın 14-cü maddəsi

41. Yuxarıdakı şikayətlə birgə, ərizəçi şikayət edib ki, o, dini fəaliyyətlə bağlı əvvəlki məşğuliyyəti əsasında ayrı-seçkiliyə məruz qalmışdır. O qeyd edib ki, seçki orqanları parlament deputatı vəzifəsi ilə uyğun gəlməyən vəzifələri keçmişdə tutan, lakin onlardan çıxan bir neçə başqa şəxsləri namizəd kimi faktiki olaraq qeydə almışlar. Ərizəçidən fərqli olaraq, bu namizədlər dövlətin icra və məhkəmə orqanlarında vəzifələr tutmuşlar.

Konvensiyanın 14-cü maddəsi aşağıdakıları nəzərdə tutur:

"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və ya digər

baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır."

42. Məhkəmə qeyd edir ki, bu şikayət yuxarıda yoxlanılanla əlaqəlidir və buna görə, eynilə məqbul elan edilməlidir.

43. Lakin 1 saylı Protokolun 3-cü maddəsinə aid yuxarıdakı qənaəti nəzərə alaraq, Məhkəmə hesab edir ki, Konvensiyanın 14-cü maddəsinin pozuntusunun baş verib-verməməsinin araşdırılması zəruri deyildir.

B. Konvensiyanın 6-cı maddəsi

44. Konvensiyanın 6-cı maddəsinə əsasən ərizəçi şikayət edib ki, daxili məhkəmə araşdırmaları ədalətsiz olmuşdur, ona görə ki, daxili məhkəmələr əsaslandırılmış qərar çıxarmadan, seçki komissiyalarının qanunsuz qərarlarını qüvvədə saxlamışlar.

Konvensiyanın 6-cı maddəsi müvafiq hissədə aşağıdakıları nəzərdə tutur:

"Hər kəs mülki hüquq və vəzifələri müəyyən edilərkən..., məhkəmə vasitəsilə... ədalətli araşdırma hüququna malikdir..."

45. Məhkəmə qeyd edir ki, sözügedən məhkəmə araşdırmaları ərizəçinin parlament seçkilərində namizəd kimi iştirak etmək hüququnun müəyyən edilməsinə aid olmuşdur. Buna görə, sözügedən mübahisə ərizəçinin siyasi hüquqlarına aid olmuş və Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin mənasında "mülki hüquq və vəzifələrə" hər hansı təsir etməmişdir (baxın, Pyer-Bloh Fransaya qarşı, 21 oktyabr 1997-ci il, § 50, Hesabatlar, 1997-VI; Çerepkov Rusiyaya qarşı (qərardad), № 51501/99, İHAM 2000-I; ZdanokaLatviyaya qarşı (qərardad),

№ 58278/00, 06 mart 2003-cü il; və Mütəllibov Azərbaycana qarşı (qərardad), № 31799/03, 19 fevral 2004-cü il).

46. Buna görə, Məhkəmə hesab edir ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin mənası baxımından Konvensiyanın müddəaları ilə ratione materiae uyğun deyildir və Konvensiyanın 35-ci maddəsinin 4-cü bəndinə müvafiq olaraq rədd edilməlidir.

III. Konvensiyanın 41-ci maddəsinin tətbiqi

47. Konvensiyanın 41-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

"Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir."

A. Zərər

1. Maddi zərər

48. Ərizəçi seçkidə namizəd qismində iştirak etmək hüququ pozulmadığı halda, Milli Məclisə seçildikdə, deputat kimi alacağı maaş üçün qazancın itirilməsinə görə 83.209EUR iddia etmişdir.

49. Hökumət hesab edib ki, ərizəçinin tələbi ilə iddia olunan pozuntu arasında səbəbli əlaqə yoxdur.

50. Məhkəmə qeyd edir ki, hazırkı şikayət ərizəçinin namizəd kimi seçkidə iştirak etmək hüququna aiddir. Güman oluna bilməz ki, ərizəçinin qeydiyyat müraciətindən imtina olunmadığı halda, o, öz dairəsində mütləq şəkildə seçkiləri

udacaq və deputat olacaq. Buna görə, ərizəçinin deputat maaşı alıb-almayacağına dair fərziyyə irəli sürmək Məhkəməyə aid deyildir (baxın, mutatis mutandis, Gürcüstanın Əmək Partiyası Gürcüstana qarşı, № 9103/04, § 150, 08 iyul 2008-ci il). Buna görə, Hökumət kimi Məhkəmə hesab edir ki, iddia olunan maddi itki ilə müəyyən olunmuş pozuntu arasında səbəbli əlaqə yoxdur (həmin yerdə, § 151; baxın, həmçinin yuxarıda qeyd olunmuş Melniçenko, §§ 73-75). Müvafiq olaraq, Məhkəmə bu məsələ üzrə ərizəçinin tələbini rədd edir.

2. Mənəvi zərər

51. Ərizəçi mənəvi zərərə görə 100.000 EUR kompensasiya tələb edərək iddia edib ki, namizəd kimi onu qeydə almaqdan imtina ona mənəvi zərər yetirmiş və nüfuzunu ləkələmişdir.

52. Hökumət hesab edib ki, bu tələb həddən artıq olmaqla, əsassız varlanmaya yönəlir və Məhkəmədən ədalətli əsaslarla ağlabatan kompensasiyanın təyin olunmasını tələb edib.

53. Məhkəmə təsdiq edir ki, parlament seçkilərində namizəd kimi iştirak edə bilmədiyi üçün ərizəçi mənəvi zərərdən əziyyət çəkmişdir. Ədalətli əsaslarla qərar çıxararaq və işin bütün hallarını nəzərə alaraq, Məhkəmə üstünə gələ bilən hər hansı vergi hesablanmaqla, mənəvi zərərə görə 7.500 EUR kompensasiyanı təyin edir.

B. Xərc və məsrəflər

54. Ərizəçi daxili məhkəmələr qarşısında çəkdiyi xərc və məsrəflərə görə 2.000 EUR və Məhkəmə qarşısında çəkdiyi 1.000 EUR xərc və məsrəflərin ona ödənilməsini tələb edib. Tələbinin sübutu kimi o, Məhkəmə qarşısında araşdırmalarda

cənab A.Rzayevin göstərdiyi hüquqi xidmətlər üçün müqavilənin surətini təqdim etmişdir.

55. Hökumət iddia edib ki, bu tələb rədd olunmalıdır, ona görə ki, o, zəruri sübutlarla təsdiq olunmamış və göstərilmiş hüquqi xidmətlərin əsl dəyərini əks etdirməmişdir.

56. Məhkəmənin presedent-hüququna əsasən, ərizəçi öz xərc və məsrəflərinin əvəzləşdirilməsi hüququna yalnız o halda malikdir ki, onların həqiqətən və zərurət qarşısında xərclənməsi və həcminə görə əsaslı olması göstərilsin. Hazırkı işdə Məhkəmə qeyd edir ki, ərizəçi daxili araşdırmalarda xərc və məsrəflər üçün tələbini təsdiq edən hər hansı sənədləri təqdim etməmişdir. Buna görə, Məhkəmə tələbin bu hissəsini rədd edir. Bundan başqa, malik olduğu məlumatları və yuxarıdakı meyarı nəzərə alaraq, Məhkəmə ərizəçinin Məhkəmə qarşısında çəkdiyi xərclərə görə üstünə gələ bilən hər hansı vergi hesablanmaqla, Avropa Şurasından hüquqi yardım kimi aldığı 850 EURçıxarılaraq 1.000 EUR məbləği təyin edir.

C. Faiz dərəcəsi

57. Məhkəmə məqsədəmüvafiq hesab edir ki, faiz dərəcəsi üstünə üç faiz əlavə edilməli olan, Mərkəzi Avropa Bankının təqdim etdiyi dərəcənin son həddinə əsaslanmalıdır.

Bu səbəblərə görə, məhkəmə yekdilliklə

1. Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinə və Konvensiyanın 14-cü maddəsinə əsasən şikayətləri məqbul və şikayətlərin qalan hissəsini qeyri-məqbul elan edir,

2. Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozulmasını qərara alır,

3. Şikayətin ayrıca Konvensiyanın 14-cü maddəsi üzrə araşdırılmasının tələb olunmadığını qərara alır,

4. Qərara alır ki,

(a) Qərarın Konvensiyanın 44-cü maddəsinin 2-ci hissəsinə əsasən qəti olduğu gündən üç ay müddətində mənəvi zərərə görə Dövlət tərəfindən həll etmə tarixinə tətbiq olunan dərəcədə Yeni Azərbaycan manatına keçirməklə, aşağıdakı məbləğlər ərizəçiyə ödənilsin:

(i) mənəvi zərərə görə, üstünə gələ bilən hər hansı vergi hesablanmaqla, 7.500 EUR (yeddi min beş yüz avro);

(ii) xərcə və məsrəflərə görə, üstünə gələ bilən hər hansı vergi hesablanmaqla, Avropa Şurasından hüquqi yardım kimi aldığı 850 EUR (səkkiz yüz əlli avro) çıxarılaraq 1.000 EUR (min avro);

(b) yuxarıda qeyd olunan üç ay bitdiyi vaxtdan həll olunma gününədək üç faiz əlavə olunmaqla, yuxarıdakı məbləğ üstünə Mərkəzi Avropa Bankının faiz dövründəki təqdim etdiyi dərəcənin son həddinə uyğun ödənilməlidir.

5. Ədalətli kompensasiyaya aid ərizəçinin qalan tələbini rədd edir.

İngilis dilində tərtib olunub və Məhkəmə Reqlamentinin 77-ci qaydasının 2 və 3-cü bəndlərinə müvafiq olaraq, qərar barədə məlumat yazılı şəkildə 03 dekabr 2009-cu ildə göndərilib.

Hakim Malinverninin hakimlər Vajiç və Kovlerlə üst-üstə düşən rəyi

1. Mənim həmkarlarım kimi mən 1 saylı Protokolun 3-cü maddəsinin pozulmasının müəyyən edilməsinin lehinə səs vermişəm. Lakin mənim səbəblərim digərlərindən fərqlənir.

2. Hazırkı işdə ərizəçinin namizəd kimi qeydə alınmaq müraciətindən "dini xadimə" parlamentə seçilməyə maneə törədən Konstitusiyanın 85-ci maddəsinin II hissəsinə və "peşəkar dini fəaliyyətlə" məşğul olduqda, parlament üzvü işləməyi "dini xadimə" mümkünsüz edən Seçki Məcəlləsinin 14.2.4-cü maddəsinə əsasən imtina olunmuşdur.

3. Bu qərarda "qoyulmuş məhdudiyyətin dairəsinə aid müvafiq qanunun qeyri-müəyyən olması və ... hüquqları məhdudlaşdırılmış şəxslər kateqoriyasının dəqiq anlayışının nəzərdə tutulmaması" və "müvafiq olaraq, ərizəçinin şikayətinin əsas istiqamətinin məhdudiyyətin əsaslandığı qanunun keyfiyyəti və xüsusən, məhdudiyyətin qabaqcadan gözlənilən olması" xüsusilə vurğulanmışdır (32 və 33-cü paraqraflar).

4. Mən bu mövqelərlə və qərarın 34-cü paraqrafında göstərilmiş dəlillərlə, xüsusilə "daxili qanunvericiliyin müvafiq müxtəlif müddəalarının hərfi ifadəsinə nəzər yetirdikdə, bu müddəalar dini xadimlərin passiv seçki hüquqlarından (yəni, seçkidə namizədliyini irəli sürmək hüququ) məhrum olunub-olunmaması məsələsinin, həm də yalnız uyğun gəlməyən vəzifələri (yəni, "peşəkar dini fəaliyyətin" seçildiyi halda parlament üzvü vəzifəsi ilə eyni zamanda həyata keçirilməsi) eyni vaxtda tutduqları üçün onların diskvalifikasiya oluna bilib-bilməməsi məsələsinin hər ikisinə zidd kimi görünə bilər"

(34-cü paraqraf), ““dini fəaliyyət” termini ... qeyri-müəyyəndir” (36-cı paraqraf) və ““dini fəaliyyət” termini ilə istifadə olunmuş “peşəkar” termininin mənası da aydın deyildir” (həmin yerdə) bağlı, Məhkəmənin dəlilləri ilə razılaşmaqda çətinlik çəkirəm. Təbiətinin və tənzimlədiyi dairənin necə olmasından və hansı münasibətləri tənzimləməyə yönəldiyindən asılı olmadan, qanunvericiliyin bir hissəsi zərurətinə görə abstrakt və ümumi alətdir. O, hər bir təfsilatı və bütün mümkün variantları nəzərə ala, nə də istifadə etdiyi bütün terminlərə anlayış verə bilməz. Məhkəmə bir neçə hallarda bu faktı müşahidə etmişdir.

5. Azərbaycanda sözügedən qanunvericilik, mənim fikrimcə, tam qaneedicidir. 1995-ci il tarixli Konstitusiya ümumi ifadələrlə “dini xadimlərin seçkidə iştirak etmək hüququna məhdudiyyətlərin qoyula bilməsini” (56-cı maddənin III hissəsi) və “dini xadimin Milli Məclisin deputatı seçilə bilməməsini” (85-ci maddənin II hissəsi) nəzərdə tutsa da, 2003-cü il tarixli Seçki Məcəlləsi vəzifələrin uzlaşmamasına dair iki müxtəlif halı çox aydın şəkildə müəyyən etmişdir. Birincisi, həmin Məcəllənin “Passiv seçki hüququnun mənsubiyyəti” adlanan 13-cü maddəsi müəyyən kateqoriya şəxsləri istənilən halda seçkidə iştirak etməkdən istisna etməklə, belə şəxsləri “Milli Məclisin deputatı seçilməyə hüququ olmayan” kimi müəyyən etmişdir (13.3-cü maddə). Kateqoriyalar “azadlıqdan məhrum etmə cəzasını çəkən şəxsləri”, “Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrinə əsasən məhkum olunmuş şəxsləri” və “ikili vətəndaşlığı olan şəxsləri” nəzərdə tutur və “dini xadimi” ehtiva etmir.

Bu Məcəllənin “Vəzifələrin uzlaşmamamsı” adlanan 14-cü maddəsi digər tərəfdən göstərib ki, parlament deputatının

vəzifəsi müəyyən başqa vəzifələrlə eyni vaxtda və ya paralel olaraq tutula bilməz. Bununla da, həmin müddəa aydınlaşdırır ki, uzlaşmama yalnız o halda mövcud olur ki, müvafiq şəxslər başqa fəaliyyəti həyata keçirməyə davam etsinlər. O, "hərbi xidmətdə olduqda, silahlı qüvvələrin üzvlərinə", "vəzifədə olduqda, hakimlərə" və nəhayət, "peşəkar dini fəaliyyətlə məşğul olduqda, dini xadimlərə" istinad edir.

6. Namizəd kimi seçkidə iştirak etməyə icazə almaq üçün ərizəçi dini fəaliyyətinə xitam vermək barədə yazılı öhdəlik təqdim etmişdir (baxın, 7-ci paraqrafda). Bu baxımdan, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının və Elmi Dini Şurasının 14 iyul 2005-ci ildə keçirilmiş birgə iclasının protokollarına görə, ərizəçinin Qazılar Şurasındakı üzvlüyünə onun öz müraciəti əsasında xitam verilmiş (8-ci paraqraf); və Qafqaz Müsəlmanları İdarəsi sədrinin 15 avqust 2005-ci il tarixli qərarına əsasən, ərizəçi İdarənin təhsil şöbəsinin müdiri və Bakı İslam Universitetinin Sumqayıt filialının rəhbəri vəzifələrindən azad olunmuşdur (9-cu paraqraf).

7. Buna baxmayaraq, DSK ərizəçini namizəd kimi qeydə almaqdan imtina etmişdir, ona görə ki, o, "peşəkar dini xadim kimi fəaliyyətini davam etdirmişdir"; lakin DSK bu dəlilin təsdiqi üçün hər hansı zəif olsa belə sübutu təqdim etməmişdir (10-cu paraqraf).

Bundan sonra, MSK hər hansı səbəblər gətirmədən "əsassız" olduğunu qeyd etməklə, ərizəçinin şikayətini rədd etmişdir.

Öz növbəsində, Apellyasiya Məhkəməsi və Ali Məhkəmə tamamilə qeyri-adekvat səbəblər irəli sürməklə, ərizəçinin verdiyi şikayətləri təmin etməyərək (12 və 13-cü paraqraflar) qeyd etmişlər ki, "ərizəçinin yuxarıda qeyd olunan vəzifələrdən

çıxması faktı onun peşəkar dini fəaliyyətlə məşğul olmadığına dəlalət etmir.”

Nəhayət, Seçki Məcəlləsinin 14.2.4-cü maddəsinə istinad etməklə, Konstitusiya Məhkəməsi sadəcə olaraq yenidən təsdiq etmişdir ki, bu müddəa “dini xadimin parlamentin deputatı olmaq hüququnu yalnız sonuncunun peşəkar dini fəaliyyətlə məşğul olduğu dövrlərlə” məhdudlaşdırmış, lakin ərizəçinin işi üzrə heç bir münasibət, o cümlədən onun namizədliyinin qeydə alınmasından imtinanın düzgün olub-olmamasına dair mövqeyini bildirməmişdir.

8. Mənim qənaətim ondan ibarətdir ki, həmin vaxtda Azərbaycanda qüvvədə olmuş qanunvericilik qaneedici olmaqla, kifayət qədər aydın və gözlənilən dir, lakin ərizəçinin müxtəlif şikayətləri üzrə qərarlar çıxaran məhkəmələr tərəfindən qanunsuz tətbiq olunmuşdur. Buna görə, hazırkı işdə tənqid edilməli olan qanunvericiliyin özü deyil, onun məhkəmələr tərəfindən tətbiq olunma tərzi olmalıdır. Səhv qanunvericinin deyil, məhkəmələrin və yalnız onların üzərinə düşür.

QEYD ÜÇÜN:

Kitabça “Hüquq və İnkişaf” İctimai Birliyinin sifarişi ilə
“Print Works” Çap Evində nəşr edilib.
Tiraj: 6 500

“Hüquq və İnkişaf” İctimai Birliyi ilə əlaqə:
Tel.: (+994 12) 511-62-28; (+994 50) 611 74 43
e-mail: himerkez@yahoo.com
web.site: law.org.az